**MÜSEYİB İBRAHİM oğlu İLYASOV**

**ŞİKAR MƏHƏMMƏDƏLİ oğlu QASIMOV**

# LAÇININ ELMLƏR DOKTORLARI VƏ DÖVLƏT XADİMLƏRİ

**Bakı - Zərdabi - 2026**

**Elmi redaktor:**
Fizika-riyaziyyat elmlər doktoru, professor,
Əməkdar elm xadimi, Azərbaycan Milli
Elmlər Akademiyasının həqiqi üzvü: **Məhəmməd Mehdiyev**

**Rəyçilər:**
Tarix elmləri doktoru, professor,
Milli Məclisin Elm və təhsil
komitəsinin sədri: **Anar İsgəndərov**

Fizika-riyaziyyat elmləri doktoru,
professor, ADPU-nun Elm və
innovasiyalar üzrə prorektoru: **Asəf Zamanov**

**Müseyib İbrahim oğlu İlyasov, Şikar Məhəmmədəli oğlu Qasımov. Laçının elmlər doktorları və dövlət xadimləri. Bakı: "Zərdabi", 2026. 240 səh.**

**İSBN: 9 7 8 - 9 9 5 2 - 6 1 1 - 7 5 – 5**

Kitabda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti, rəhbər bacarı, rəşadətli Azərbaycan ordusunun qəhrəmanlığı sayəsində 30 illik işğaldan sonra azad edilən Laçın rayonundan, onun işıqlı ziyalılarından, bu gün bərpa, çiçəklənmə dövrünü yaşayan Laçın ziyalılarının təhsilin, elmin, maarifin, mədəniyyətin inkişafında və dövlətçilik sahəsində xüsusi xidmətləri olan şəxsiyyətlərin fəaliyyətindən söz açılır. Laçınlı elmlər doktorlarının və yüksək dövlət idarəçiliyi işində çalışan bir qrup laçınlının fəaliyyəti və elmi-pedaqoji xidmətləri nəzərdən keçirilir. Onların elmin və dövlətçiliyin inkişafına verdikləri töhfələrdən bəhs edilir.

Kitabda həmçinin Laçın rayonunun tarixinə ekskurs edilir, rayonun tarixi-coğrafi ərazisi, əhalisi, etnik tərkibi nəzərdən keçirilir və gələcək inkişaf perspektivləri haqqında fikirlər əks olunur.

**Qrifli nəşr**
**© "Zərdabi" nəşriyyatı, 2026.**
**© Müseyib İlyasov, Şikar Qasımov 2026.**



***“Laçın rayonu həm təbiətinə və həm də insanlarına görə Azərbaycanın ən dəyərli guşələrindən biridir. Laçından Azərbaycanın nə qədər görkəmli elm, mədəniyyət, dövlət xadimləri çıxıb.”***

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli Lideri***



*“Biz bu ərazilərə daimi olaraq yaşamaq üçün qayıtmışıq. Əgər cənnətin təsviri varsa elə buradır”.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

# Mündəricat

**Giriş**..........................................................................9-12

**Ön söz:** Laçının elmlər doktorlarının və dövlət
xadimlərinin fəaliyyətinə işıq salan kitab........13-18

**I FƏSİL. Laçının tarixi, yaxud özü bir tarix
olan Laçın**..................................................**19-27**

**II FƏSİL. Dövlətçiliyin, elmin və təhsilin
ilk fədailəri**................................................**28-46**

2.1. Xosrov bəy Paşa bəy oğlu Sultanov........................28-32

2.2. Nurməmməd bəy Adilxan bəy oğlu Şahsuvarov....33-36

2.3. Müseyib İbrahim oğlu İlyasov...............................37-46

**III FƏSİL. Elmin və dövlətçiliyin zirvəsinə
ucalanlar**..................................................**47-80**

3.1. Məhəmməd Fərman oğlu Mehdiyev.......................47-54

3.2. Şahbaz Musa oğlu Muradov..................................55-65

3.3. Zakir Fərəc oğlu Fərəcov.......................................66-77

3.4. Muradxan Mahmud oğlu Cabbarov........................78-80

**IV FƏSİL. Elmlər doktorları və professorlar**.........**81-171**

4.1. Xasay Mahmud oğlu Cabbarov.............................81-83

4.2. Ağkərim İmamqulu oğlu Əliyev............................84-87
4.3. Şirindil Həsən oğlu Alışanov................................88-90
4.4. Muxtar Əliş oğlu Həmzəyev.................................91-96
4.5. Müseyib İbrahim oğlu İlyasov.............................97-103
4.6. Şikar Məhəmmədəli oğlu Qasımov....................104-117
4.7. İlham Lazım oğlu Kazımov...............................118-120
4.8. Maarif Əli oğlu Cəfərov...................................121-123
4.9. Zöhrab İslam oğlu Qarayev...............................124-127
4.10. Eldar Allahverdi oğlu Əliyev..........................128-130
4.11. Eldar Məhəmməd oğlu Süleymanov.............. .131-134
4.12. Rəşad Şahbaz oğlu Muradov...........................135-137
4.13. Eldar İsmayıl oğlu Vəliyev..............................138-140
4.14. Tofiq Surxay oğlu Şahsuvarov....................... 141-143
4.15. Knyaz Şiraslan oğlu Məmmədov...................144-149
4.16. Ziyadxan İsrafil oğlu Nəbibəyli.......................150-154
4.17. Muğan Salman oğlu Quliyev .........................155-157
4.18. Solmaz Səttar qızı Məhərrəmova....................158-162
4.19. Sevinc Novruz qızı Əliyeva............................163-165
4.20. Səbinə Zöhrab qızı Qarayeva..........................166-167
4.21. Pərvanə Bəkir qızı İsayeva.............................168-171

**V FƏSİL. Dövlət İcra strukturunda çalışanlar**
**(*İcra hakimiyyəti başçıları*)....................172-191**
5.1. Xanlar Əliş oğlu Məmmədov.............................172-174
5.2. Elbrus Halay oğlu Təhməzov.............................175-177
5.3. Sevindik Hacıağa oğlu Hətəmov........................178-179
5.4. Aqil Ağaxan oğlu Nəzərli.................................180-181
5.5. Akif İsmayıl oğlu Səlimov................................182-184
5.6. Ramiz Məhərrəm oğlu Cəbrayılov.....................185-187
5.7. Azər Səfər oğlu Məmmədov..............................188-189
5.8. Zakir Cabbar oğlu Cabbarov..............................190-191

**VI FƏSİL. Qanunvericilik orqanlarında çalışanlar**
***(Milli Məclisin üzvləri)*** .........................192-214
6.1.1. Rövşən Şahbaz oğlu Muradov........................192-196
6.1.2. Müşfiq Fazil oğlu Məmmədov.......................197-199
6.1.3. Mahir Tapdıq oğlu Abbaszadə .......................200-201
6.1.4. Səlim İsmayıl oğlu Səlimov............................202-204
6.1.5. Nazim Fərəc oğlu Fərəcov..............................205-206
**6.2. Azərbaycan SSR Ali Sovetinin deputatları....207-214**
6.2.1. Şərqiyyə Əkbər qızı Vəliyeva.........................207-208
6.2.2. Familə Savalan qızı Həşimova........................209-210
6.2.3. İsgəndər Əziz oğlu İsgəndərov.......................211-212
6.2.4. Mirzə Ələsgər oğlu Cabbarov.........................213-214

**VII FƏSİL. Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar Süleyman oğlu İlyasov**.................................................215-217

**VII FƏSİL. Zəhməti ilə şöhrətlənib, Laçını sovetlər məkanında tanıdan Cabbar Ələsgər oğlu Cabbarov**......................................218-221

**Nəticə əvəzi - yaxud da dağlar qoynunda yenidən qurulan Laçın**................................................222-236

**İstifadə edilmiş ədəbiyyat**.........................................237-238

***Kitabı otuz illik işğal dövründə qəlbi Laçınınla çırpınan, onu azad görmək arzusunda olan, lakin bugünkü azad Laçını görmədən və Laçın həsrəti ilə dünyadan köçən ziyalılarımızın əziz xatirələrinə ithaf edirik.***

# Giriş

Qırx dörd günlük Vətən müharibəsi (27 sentyabr - 8 noyabr 2020-ci il) və cəmi 23 saatlıq (19-20 sentyabr 2023-cü il) antiterror əməliyyatı ilə 30 illik erməni işğalına birdəfəlik son qoyan Azərbaycan bu gün erməni faşistləri tərəfindən darmadağın edilən şəhər və kəndlərimizdə bərpa-quruculuq işləri aparır. Dağıdılmış, daşı daş üstə qalmayan şəhərlər, kəndlər yenidən tikilir və məcburi köçkünlər öz yurd-yuvalarına qayıdırlar. Bu yerlərdə həyat yenidən canlanır. Belə məkanlardan biri də 1 dekabr 2020-ci ildə erməni işğalından azad edilən Laçın rayonudur.

Laçın rayonu yalnız özünün gözəl təbiəti, mineral bulaqları, çayları, gölləri, göz oxşayan meşələri, çəmənlikləri, yeraltı və yerüstü sərvətləri ilə deyil, mərdliyi, dağ vüqarlı insanları və xalqımızın qəhrəmanlıq tarixində yeri olan igid oğulları ilə də tanınır. Laçın həm də dövlətçilik tarixində xüsusi xidmətləri olan dövlət xadimləri, Azərbaycan maarifinin, elminin, təhsilinin və mədəniyyətinin inkişafında əməyi olan çoxsaylı ziyalıları ilə şöhrət qazanmış bölgələrimizdəndir.

Hazırkı dünyada mövcud olan 200-ə yaxın dövlət içərisində özünün qədimliyi, dövlətçiliyi, mədəniyyəti, təhsili və tarixi şəxsiyyətləri ilə tanınan Azərbaycanın bir dövlət kimi formalaşmasında digər regionlar kimi Laçın rayonunun da öz yeri, öz payı vardır. İstər 1992-ci ilə kimi (30 illik erməni işğalından əvvəl), istərsə də 2020-ci ildə erməni vandallarının

işğalına son qoyan 44 günlük Vətən müharibəsindən sonra özünün azad dövrünü yaşayan Laçın,  Azərbaycan tarixində şərəfli yer tutmuş və hazırda da bu missiyanı uğurla davam etdirir. Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Baş komandanı cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti, qətiyyəti, diplomatiyası, xalqımıza və ordumuza arxalanması və ordu quruculuğundakı fəaliyyəti sayəsində Azərbaycanımızın bütövlüyünə nail olunması bu gün Laçın haqqında, laçınlılar haqqında ürəkdən danışmağa, qürurla yazmağa böyük stimullar verir.

1988-ci ildən 1992-ci ilin 17-18 may tarixinə kimi laçınlılar erməni silahlı qüvvələrinə qarşı mərdliklə mübarizə apardılar. Laçının işğalı laçınlıların deyil, vəzifə başına keçmək istəyən nankorların, səriştəsiz respublika rəhbərlərinin hesabına, onların xəyanətinə görə oldu. Laçınlılar 30 il laçınsız yaşadılar, lakin bir gün də olsun laçınsız olmadılar. Onu qəlblərində, yuxularında, Laçına qayıtmaq həsrətində yaşatdılar. Neçə-neçə kitablar yazıldı, şeirlər qoşuldu, mahnılar bəstələndi, ən başlıcası, gənclərimiz vətənpərvərlik ruhunda böyüdüldü, tərbiyə edildi, harada doğulmasından, boya-başa çatmasından asılı olmayaraq Laçını özlərinin Vətəni bildilər. Uşaqlı-böyüklü, təhsilli-təhsilsiz, vəzifəli-vəzifəsiz bütün laçınlıların ən böyük arzusu Laçına qayıtmaq, Laçının azadlığa qovuşduğu günü görmək oldu.

30 illik işğal laçınlıların iradəsini sarsıda bilmədi. Laçınlılar özlərinin ləyaqətini, saflığını qorumaqla yanaşı, bir gün də olsun Laçını unutmadılar, Laçınla nəfəs aldılar. Ora dönmək arzusunu günbəgün yaxınlaşdıran Ali Baş Komandan, cənab prezidentimiz İlham Əliyevin sisyasətini dəstəkləyərək bu günü gözlədilər.

Laçının böyük bir ziyalı təbəqəsi vardır. Bunlar tarixən də olmuş, bu gün də vardır. Bunların içərisində respublikamızda tanınan dövlət xadimləri, həyatını elmə, təhsilə sərf edən Respublika Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri, elmlər və fəlsəfə doktorları, professorlar da az deyildir. Laçın ziyalıları tarixən də, bu gün də dövlətimizi, dövlətçiliyimizi dəstəkləyərək onun inkişafına öz töhfələrini verməyə çalışmışlar. Bu kitabı yazmaqda məqsədimiz də bu insanların həyat və fəaliyyəti haqqında bir qədər ətraflı məlumat vermək, gördükləri işlərlə xüsusilə gənc nəsli tanış etmək və onların şəxsiy-yətinə az da olsa öz hörmət və ehtiramımızı bildirməkdir.

Kitab haqlarında yazılan insanların fəaliyyətlərinin əsas mahiyyətininə müvafiq olaraq bir neçə hissədən ibarət tərtib olunmuşdur. Kitabda öncə Laçının tarixinə ekskurs edilir, əsası 1924-cü ildə qoyulan Laçın şəhərinin, eləcə də Laçın rayonunun inkişafı, bu sahədə xüsusi xidmətləri olan şəxsiyyətlərin adları hörmətlə yad edilir, sonra dövlətçilik, elm və təhsilin ilk fədailəri olan, Xosrov bəy Sultanov, Nurməmməd bəy Şahsuvarov və Müseyib İlyasov, daha sonra hələlik yeganəlik təşkil edən, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Məhəmməd Mehdiyev və müxbir üzvü Şahbaz Muradov, bunların ardınca 22 nəfər elmlər doktoru və professor, ardınca rayon icra hakimiyyətinin başçıları, Milli Məclisin üzvləri, YAP rayon təşkilatının rəhbəri və keçmiş Azərbaycan SSR Ali sovetinin deputatları, onların həyat və fəaliyyətləri haqqında məlumatlar yer alır.

Kitabın yazılmasında özünün köməyini əsirgəməyən, ayrı-ayrı şəxsiyyətlər haqqında bizə dəyərli məlumatlar verən həmyerlilərimizə öz minnətdarlığımızı bildiririk. Təbii ki,

kitabda müəyyən çatışmazlıqlar da yox deyildir. Bu kitabda adları, fəaliyyətləri yer almağa layiq olan, lakin haqlarında məlumat toplaya bilmədiyimiz şəxsiyyətlərimiz də vardır ki, burada onların haqqında məlumat verə bilməmişik. İnanırıq ki, kitab laçınlı elmlər doktorları və dövlət xadimlərinin tanıdılmasında və gənc nəsl üçün nümunə götürülməsində əhəmiyyətli olacaqdır.

Kitab haqqında özünün xeyirxah fikirlərini bildirən oxucularımıza əvvəlcədən təşəkkürümüzü bildiririk.

***Müəlliflər***

# Ön söz
## Laçının elmlər doktorlarının və dövlət xadimlərinin fəaliyyətinə işıq salan kitab

Laçın və onun yetirmələri, tarixən hər bir azərbaycanlının qəlbində, yaddaşında qürur, və əyilməzlik nümunəsinə çevrilmişdir desək bizcə mübaliğəsiz olar. Qədim Türk yurdu olan Laçın ərazisinin çoxsaylı tarixi abidələri və kəndləri yaşayış məskəni kimi çox-çox qədimlərdən xəbər verir. Belə ki, bu ərazilərdə xristianlıqdan əvvəllərə aid abidələrin günümüzə qədər qalması fikrimizi təsdiq edir. Rayonun ərazisində olan qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar, qəbirüstü abidələr, Hoçaz məbədi (V əsr), ilkin orta əsrlərə aid daş at və qoç fiqurları, ərazidəki Ağoğlan qəsri (IX əsr), Dəmrovlu Pir Məbədi (XI əsr), Məlik-Əjdər türbəsi (XII-XIV əsrlər), Uşaq  qalası (XV əsr), Kar kümbəz (XVII əsr), habelə X-XIX əsrlərə aid birtağlı və ikitağlı körpülər, eləcədə çoxsaylı su dəyirmanları və s. kimi tarixi abidələr  öz memarlıq üslubu ilə bu ərazilərin qədimiliyindən xəbər verir. Eyni zamanda rayonun ərazisində ərəb-fars, türk-monqol mənşəli toponimlərin mövcudluğu isə tarixin müxtəlif mərhələlərində yadelli işğalçıların bu yerlərə basqınlarını göstərir.

Çar Rusiyası dövründə Zəngəzur qəzasının əsas hissəsi olan və sonradan inzibati ərazi vahidi kimi formalaşan Laçın rayonu XIX əsrin II yarısından başlayaraq özünün füsünkar təbiəti, zəngin təbii ehtiyatları, qoçaq oğulları və qabaqcıl ziyalıları ilə nəinki Azərbaycanda, ondan uzaqlarda da məşhurlaşmışdı. Belə nümunələrdən biri kimi hələ XVII əsr Azərbaycan aşığı, haqq aşığı, qərib aşıq adları ilə tanınan, Güləbird kəndindən olan Sarı Aşığı göstərmək olar.

1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti qurulduğu zaman əhalinin maariflənməsi və savadsızlığın ləğvi istiqamətində aparılan tədbirlərdə Laçın rayonundan olan ziyalı insanlar xüsusilə fəallıq göstərmiş, dövlət siyasətinin yerlərdə həyata keçirilməsində mühüm rol oynamışlar. Belə ki, dövrünün seçilən ziyalısı, Azərbaycan Xalq Cumhuriyyətinin görkəmli dövlət və siyasi xadimi, milli azadlıq hərəkatının fəal iştirakçısı, sonradan Qarabağın General Qubernatoru olmuş Xosrov bəy Paşabəy oğlu Sultanov, Azərbaycan Xalq Cumhuriyyətinin dövlət xadimi, Dağlılar Respublikasının Xalq Maarif Naziri, 1919-cu ilin iyununda AXC-nin birinci hökümət kabinəsində maarif nazirinin müavini, 1920-ci il martın 5-də beşinci hökümət kabinəsində Maarif və Dini Etiqad Naziri vəzifələrində işləmiş Minkəndli Nurməhəmməd bəy Əbilxan oğlu Şahsuvarov, dövrünün görkəmli ziyalısı və söz adamı kimi Azərbaycandan kənarda da çox məşhur olmuşlar. Zəngəzur qəza-sının Cicimli kəndindən olan Seyid Mir Həmzə Nigari, Laçın rayonunun Oğuldərə kəndində anadan olmuş, Zəngəzur qəza maarif şöbəsinin müdiri vəzifəsində çalışmış, dağ obalarınında maarifin, mədəniyyətin yayılmasına çalışan, sözün əsl mənasında cəhalətə qarşı mübariz olan, Azərbaycanda müəllim kadrlarının hazırlanmasında mühüm xidmətlər göstərmiş, xalq arasında böyük hörmət qazanmış, Qəzanın bir çox yerlərində Laçın şəhərində, Minkənd, Kürdhacı, Qorçu, Vağazin, Şamkənd, Hocaz və onlarca başqa dağ kəndlərində məktəb binaları tikdirmiş və onların tezliklə istifadəyə verilməsinə şəxsən özü rəhbərlik etmiş, 1926-cı ildə birinci türkoloji qurultayının iştirakçısı olmuş Müseyib İbrahim oğlu İlyasov və digərləri belə ziyalılardandır. Göründüyü kimi, tarixi araşdırmalar, xalqın yaddaşı göstərir ki, belə dəyərli ziyalıların və

həm də Laçın şəhərinin bünövrəsini qoyanların fəaliyyətləri kimi adları da Laçının tarixinə həkk olunmuşdur. İndi o günlərdən söz düşəndə Hüsü Hacıyevin, İsmayil Şəfiyevin, Qara İlyasovun, Rəhim Hüseynovun, Əsəd Qarayevin, İsmayıl Mirzəyevin, Ocaqqulu Musayevin, Abduləli Lütvəliyevin və baş-qalarının adları da hörmətlə yad edilir.

Sovet-alman müharibəsindən sonrakı illərdə də Laçınlı ziyalılar rayonun və Azərbaycanın ictimai-siyasi həyatında xüsusilə fərqlənmişlər. Bu ziyalılardan Ələsgər Məmmədovu, Əmiraslan Şahverdiyevi, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu, Oktyabr inqilabı, Azərbaycan bayrağı ordenlərinə layiq görülmüş, 26 il Rayon Partiya Komitəsinin birinci katibi və Laçının ağır illərində İcra hakimiyyətinin başçısı vəzifəsin-də işləmiş Muradxan Cabbarovu, tibb elmləri namizədi İzzət Sadıqovu, kimya elmləri doktoru İsmayıl Sadıqovu, filologiya elmləri doktoru, professor Xasay Cabbarovu, Fəlsəfə elmləri namizədi Salman Salahovu, filologiya elmləri namizədi, şair Hüseyn Kürdoğlunu, filologiya elmləri namizədi, dosent, şair Ağa Laçınlını, tanınmış idmançı, SSRİ çempionu İnqlab Novruzovu, SSRİ-nin fəxri neftçisi, Azərbaycanın Əməkdar Neft Mühəndisi, hal-hazırda Xəzər dənizində üzən gəmilərdən birinə adı verilmiş Məhəmməd Süleymanovu, Laçın rayon İcra hakimiyyətinin başçısı işləmiş Xanlar Məmmədovu, müxtəlif məsul vəzifələrdə işləmiş, ağsaqqallığı ilə seçilən Umud Məmmədovu, Umud Allahverdiyevi, Ümumittifaq müəllim-lərinin II qurultayının nümayəndəsi, müəllim Şərif İlyasovu, şair-jurnalist Malik Fərruxu və xeyli sayda dəyərli insanları göstərə bilərik.

Mərkəzi hökumət və havadarları tərəfindən müdafiə olunduqlarına görə şirniklənən ermənilər XX əsrin 80-ci

illərindən fəallaşdılar. Qurub-yaratmaq eşqi ilə yaşayan, mərd oğulları, vətənsevər ziyalıları, dövlət strukturunda sədaqətlə çalışan insanları ilə seçilən  Laçın rayonu da çox təəssüf ki, mənfur erməni faşistləri tərəfindən 1992-ci il may ayının 17-də işğal olundu. 30 ilə yaxın müddətdə bütün laçınlılar, laçın əsilli ziyalılar və dövlət adamları bir gündə olsun Laçına qayıtmaq ümidlərini itirmədilər. Ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşdilər. Bu birlik və inam öz nəticəsini 44 günlük Vətən müharibəsində göstərdi.

Bütün bu olanları, Laçınlı ziyalıların, elm və dövlət adamlarının fəaliyyətini işıqlandırmaq və gənc nəslə tanıtmaq çox əhəmiyyətli bir işdir. Bu gün rahatlıqla demək olar ki, bu əhəmiyyətli və dəyərli işin öhdəsindən tarix elimləri doktoru, professor Şikar Qasımov və pedaqoji elimlər doktoru, professor Müseyib İlyasov gəlmişlər.

30 ilə yaxın müddətdə Laçınsız yaşamağımıza baxmayaraq, qələbəyə olan inamımız, vətən sevgimiz tükənmədi və qəti oldu. Elə bu "Zəfər" sevincindən güc alan hər iki professorun "Laçının elmlər doktorları və dövlət xadimləri" adlı dəyərli bir kitab yazmasını çox əhəmiyyətli və olduqca təqdirə layiq hal kimi qiymətləndirmək olar. Doğma yurdumuzun bütövlüyü uğrunda mübarizə aparanlar, qəhrəmanlıq göstərənlər və eyni zamanda boya-başa çatdığımız bölgənin elmlər doktorları və dövlət xadimləri haqqında araya-ərsəyə gətirilən hər bir iş xüsusi əhəmiyyət kəsb edir. Bu yönümlü mövzular xalqın öz azadlığı, düşmənlərə qarşı mübarizəsi və torpaqlarımızın bütövlüyü uğrunda canını belə əsirgəməyən igid oğul və qızlarımızın fədakarlıqlarına dayaqlanır. Bu yönümlü mövzular bölgənin ziyalılarının, onların seçilən hissəsi olan elmlər doktorlarının və dövlət xadimlərinin tanınmasına, fəaliyyətlərinin

gənclərə nümunə olmasına və tərbiyəvi əhəmiyyət daşımasına dayaqlanır. Bunları əsas götürən müəlliflər olduqca zəruri və əhəmiyyətli bir mövzu üzərində işləmişlər. Kitabın əlyazmasını oxuduqdan sonra bu qənaətə gəldim ki, əsər fəaliyyətləri ilə Laçın tarixinə düşən, gələcək nəslə nümunə olan ziyalıların tanınmasına imkan verən, ardıcıllıq və obyektivlik prinsipi ilə yazılmışdır. Müəlliflərin kitabda qədim zamanlardan müasir dövrə qədər gətirdikləri tarixi faktlar Laçın ərazisində olan qədim yaşayış məskənləri, çoxsaylı tarixi abidələr, Laçının qədim tarixə malik olduğunu göstərməklə yanaşı, ən əsası Laçının Azərbaycanda və ondan kənarda tanınan dəyərli ziyalılarının, dövlət xadimlərinin olmasını, konkret faktlarla, yığcam və Laçın sevgisi ilə təsvir etmişlər. Eyni zamanda kitabda laçınlıların məcburi köçkünlük illərində torpağa bağlılığı, vətən sevgisi, Laçına qayıtmaq ümidlərnin itməməsi və ölkə Prezidenti İlham Əliyevə olan inam inandırıcı şəkildə verilmişdir. Kitabı oxunaqlı edən tərəflərindən biri də, Laçın rayonu ərazisinin qədim Oğuz-Türk yurdu olduğunu, onun çox saylı tarixi abidələri, yaşayış məskənləri, qədim dövrlərə gedib çıxan memarlıq abidələri və maddi mədəniyyət nümunələri vasitəsi ilə sübut olunmasıdır.

Laçının elmlər doktorları və dövlət xadimləri haq-qında araşdırmaların aparılması və onların gənc nəslə nümunə olan fəaliyyətlərini nəinki, gənclərə elə laçınlılara və Respublika ictimayyətinə çatdırmaq böyük əhəmiyyət kəsb edir. Ona görə ki, 30 ilə yaxın müddətdə Laçın camaatı yer-yurdundan didərgin düşüb. Onların bir qismi mətbuatdan kənar qalıb, digər bir qismi isə Laçından kənarda dünyaya gəlib və böyüyüblər. Şərait imkan verməyib ki, laçınlı elmlər doktor-larını, onların elmə verdikləri töhfəni və Laçına baş ucalığı

gətirən dövlət işlərində məsul vəzifələrdə çalışanları tanısınlar. Bu baxımdan müvafiq kitab Laçın üçün ilk əsərdir. Əsərin üstün tərəflərindən biri də ondadır ki, elm adamlarını arayıb axtarmaqla yanaşı, onların xidmətləri aşkarlanmış, Laçında təhsilin, maarifin inkişafı, bu sahədə xidməti olanlar barəsində fotoları ilə birlikdə ətraflı məlumat verilmişdir. İndiyə qədər dövlət işlərində çalışmış, xüsusi xidmətləri olanlar haqqında, eyni zamanda bu gün də yorulmadan məsul dövlət vəzifələrində çalışan, ölkə prezidentinin siyasi kursunu ləyaqətlə həyata keçirən İcra başçıları, Millət vəkilləri və digərləri barəsində geniş məlumat verilmişdir. Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilənlər üzə çıxarılmışdır.

Beləliklə, professor Müseyib İlyasovun və professor Şikar Qasımovun müəllifi olduqları “Laçının elmlər doktorları və Dövlət xadimləri” kitabını oxuduqdan sonra bu qənaətə gəldim ki, müəlliflər böyük zəhmət hesabına ilk dəfə olaraq Laçının elmlər doktorları və dövlət işlərində çalışan ziyalıları haqqında kitab ərsəyə gətirmişlər. Onlar Laçının elm adamlarının, İcra hakimiyyətində, Milli Məclisdə və dövlət strukturlarında çalışanların fəaliyyətinə işıq salmışlar. İnanıram ki, kitabda nəzərə çarpan nümunələr, Laçın gəncləri üçün qürur və örnək olacaqdır.

Müəlliflərə yaradıcılıq işlərində uğurlar diləyir və arzu edirəm ki, işğaldan azad edilmiş Laçın barəsində əsərlər yazsınlar.

**Zakir Fərəcov**
**Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı**

# I Fəsil
# Laçının tarixi, yaxud özü bir tarix olan Laçın

*“Azərbaycanın müstəqilliyi, ərazisinin qorunması nöqteyi nəzərindən Laçın rayonu çox böyük strateji əhəmiyyətə malikdir.”*

***Ümummilli lider Heydər Əliyev***

Laçın təkcə laçınlılar üçün deyil, tarixən hər bir Azərbaycanlının qəlbində, yaddaşında qürur, vüqar rəmzinə çevrilmişdir. Azərbaycanın dilbər guşələrindən biri, qədim Türk yurdu olan bu diyarın inzibati sərhədlərini Dəlidağ, İşıqlı, Qırxqız dağ silsilələri cızır. Laçın Qarabağla nankor düşmənimiz olan erməni qonşularımız arasında bir mərdlik qalası olmuş və belə bir qala olaraq da qalır. Tarix boyu torpağımıza göz dikənlər Laçını “Qarabağın qara qapısı” adlandırmış və buradan keçməyə cürət etməmişlər.

Qədim tarixi abidələrilə zəngin olan Laçın bölgəsi antik dövrlərdə və erkən orta əsrlərdə Albaniya dövlətinin tərkib hissəsi olmaqla ölkəmizin ən qədim insan məskənlərindəndir. Ərazinin çoxsaylı kəndləri və abidələri Laçının yaşayış məskəni kimi çox-çox qədim olduğundan xəbər verir. Bu ərazilərdə xristianlıqdan əvvəllərə aid abidələrin günümüzə qədər qalması fikrimizi təsdiq edir. Qalalar, Qəbirüstü abidələr, kahalar, mağaralar, kurqanlar bu gün də sirli olaraq qalır. Qurdqajı (Kürdhacı) və Ərikli kəndi arasında, Şəlvə kəndində, Korcabulaq ərazisində Keşik dağının ətəyində olan Alban abidələri, Kiş dağında yerləşən Vəng abidəsi, Cicimli kəndi ərazisində daş dövrünə aid Kurqan, dəmir dövrünə aid Qız qəbri, Mir Cəfər qalası, Məlik-Əjdər türbəsi, Məzməzəkdə

qədim Qəbristanlıq və s. abidələr bu ərazilərin qədim minilliklərindən xəbər verir. Bunlar Laçın rayonu ərazisində məskunlaşmış ulu babalarımızın altı minillik bir tarixə malik olmasını, e.ə. IV minillikdə bu yerlərin sahibi olduqlarını bir daha sübut edir.

Rayonun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki Mağara məbəd abidələri (V əsr) hələ eramızdan əvvə II-I minilliyə aid edilən Azıx və Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər Laçının tarixinin qədimliyini göstərən dəyərli və nadir sənət əsərlərindəndir. Bununla yanaşı, rayonun ərazisində olan qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar, qəbirüstü abidələr, ilkin orta əsrlərə aid at və qoç fiqurları, həmçinin gildən hazırlanmış müxtəlif bəzək, məişət əşyaları, ərazidəki Ağoğlan qəsri (IX əsr), Dəmrovlu Pir Məbədi (XI əsr), Uşaq qalası (XV əsr), Kar kümbəz (XVII əsr), habelə X-XIX əsrlərə aid birtağlı və ikitağlı körpülər, eləcə də çoxsaylı su dəyirmanları və s. kimi tarixi abidələr öz memarlıq üslubu ilə bu ərazilərin qədimiliyini göstərməklə yanaşı, həm də bu yerlərdə türk tayfalarının məskən saldığını bir daha təsdiqləyirlər.

Laçın rayonu ərazisində uzaq keçmişimizin yadigarı olan belə abidələr olduqca çoxdur. Böyük Seyidlər kəndində yerləşən, rayonun müqəddəs yerlərindən olan Seyid Alı Xəlifə (ocağı) sərdabəsi, Seyid Hüseyn ziyarətgahı, Hacı İbrahim ağanın dəfn edildiyi "Güllü qəbir" piri, Zeyvədə Şeyx Əhməd, 1-ci və 2-ci Soltanbaba abidəsi, Minkənddə XV əsr məbədi, Qarıqışlaqda Dəmirovlu pir məbədi, Bülövlük kəndinin şimalındakı qədim Kişpəyədə Alban məbədi, Piçənisdə Alban məbədi, Xan qəbiristanlığındakı Zəngəzurun sultanları Qara

Murtuza bəyin, 1-ci Almәmmәdin, 2-ci Almәmmәdin türbәlәri, Şeyx Şamillә dostluq etmiş, ona kömәk göstәrmiş Cәbrayıl bәyin türbәsi, Pircahan çayında Mәşәdi Mehralı körpüsü, Seyidlәr kәndindә bir tağlı, Minkәnddә bir vә iki tağlı körpülәr belә abidәlәrdәndir.

Laçının Mirik kәndindә ilk insan mәskәnlәrinin mövcudluğu ibtidai icma dövrünә qәdәr gedib çıxır. Bu kәndin әrazisindәki siklop xarakterli memarlıq nümunәlәri, antik qala, yeraltı mağaralar, tunellәr vә kәhrizlәr Azәrbaycan tarixinin müxtәlif dövrlәrini öyrәnmәk üçün çox maraqlı vә әvәzsiz mәnbәlәrdir. Qәdim dövrlәrә aid daş әmәk alәtlәri, daşdan yonulmuş istehsal vasitәlәri vә Azәrbaycanın qiymәtli mәdәniyyәt nümunәlәrindәn sayılan bәdii daşlar, qabartmalar, oymalar, ornamentlәr vә digәr dekorativ tәtbiqi sәnәtә aid olan әvәzsiz nümunәlәr Laçının işğalına qәdәr Mirik kәndinin әrazilәrindә qalırdı.

Laçının әn möhtәşәm abidәlәrindәn biri uzunluğu 25, eni isә 12,5 metr olan Ağoğlan mәbәdidir. Laçının incisi olan bu mәbәd Laçında Hәkәri çayının sağ sahilindә, Kosalar kәndinin yaxınlığında 2 hektarlıq әrazidә yerlәşir. Ağoğlan mәbәdi V-VI әsrlәrә aid alban monastırıdır. Abidә müxtәlif dövrlәrdә uçqun vә dağıntılara mәruz qaldığından IX әsrdә yenidәn inşa edilәrәk forma etibarı ilә kilsә üslubunda mәbәdә, monastıra uyğunlaşdırılıb. Bu abidә bәrpa edilәrkәn özünün ilk bünövrәlәri olduğu kimi saxlanmış, onun üzәrindә yeni divarlar tikilmişdir. Bәrpadan sonra Ağoğlan mәbәdi Azәrbaycan tarixinin alban dövrü memarlığının möhtәşәm abidәlәrindәn birinә çevrilmişdir.

Zәngәzurun Laçın bölgәsindә yaşayanların soy kökü, qәdim tarixi ilә bağlı toponimlәr olduqca çoxdur. Qaradağlı,

Bayındır, Bozlu, Küllü təpə, Qızıl qaya, Qırxbulaq, İşıqlı, Dəvəuçan, Qartal qayası, Koroğlu qayası, Nəbi hörgüsü və s. kimi coğrafi adlar bu qəbildəndir. Qədim yer adları var ki, onlar tayfa və yaxud soyadları əks etdirir. Laçın rayonu ərazisində ərəb-fars və türk-monqol mənşəli toponimlərin mövcudluğu da tarixin müxtəlif mərhələlərində yadelli işğalçıların bu yerlərə basqını ilə əlaqədardır. Bütün bu izahlar və gətirilən nümunələr bir daha sübut edir ki, igid oğulları və əsrarəngiz təbiəti ilə seçilən Laçının tarixi çox-çox qədimlərə gedib çıxır. Bu yerlərin türk yurdu olduğu bir daha qədim toponimlərlə də öz təsdiqini tapır.

1822-ci ildə Qarabağ xanlığı ləğv olunana qədər Laçın rayonunun ərazisi həmin xanlığın tərkibində olmuşdur. 1840-cı ildə Qarabağ əyaləti Şuşa qəzasına çevrilir. 1868-ci ildə Gəncə (Yelzavetpol) quberniyası yaradılır. Şuşa qəzası ilə birlikdə Laçının ərazisi də yeni yaranmış quberniyanın tərkibinə daxil olur. 1874-cü ildən etibarən Quberniyanın tərkibində yeni bir qəza- Zəngəzur qəzası yaradılır. Laçın rayonunun ərazisi həmin qəzanın tərkibinə daxil olur. Bu cür inzibati bölgü 1921-ci ilə qədər mövcud olmuşdur. 1923-cü ildə isə Qarabağın dağlıq hissəsinə muxtariyyat verilməsi ilə əlaqədar olaraq Şuşa Qəzası ləğv olunur və onun əvəzində Ağdam qəzası təşkil olunur. Lakin, elə həmin il Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili ilə əlaqədar olaraq geniş bir ərazini əhatə edən Qubadlı, Laçın və Kəlbəcər torpaqlarının vahid qəza kimi birləşməsi məsələsi yenidən ortaya çıxır. Kürdüstan qəzasının təşkil edilməsinə dair Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsində qərar qəbul olunur və mərkəzi Laçın şəhəri olmaqla Kürdüstan qəzası yaradılır. 1924-cü ildə köhnə Abdallar kəndinin ərazisində, Laçın dağının ətəyində Laçın şəhərinin bünövrəsi

qoyulur. 1929-cu ildə Kürdüstan qəzası ləğv olunur. Laçın şəhəri 1930-cu ildən Laçın rayonunun mərkəzi elan edilir. Laçın şəhərinin bünövrəsinin qoyulmasında, onun şəhər və rayon kimi formalaşmasında bir sıra insanların xüsusi əməyi və fəaliyyətləri olmuşdur. Hüsü Hacıyev, İsmayıl Şəfiyev, Qara İlyasov, Rəhim Hüseynov, Əsəd Qarayev, İsmayıl Mirzəyev, Ocaqqulu Musayev, Abduləli Lütvəliyev, Hüseyn Abdullayev və b. belə şəxsiyyətlər olmuşlar.

Laçında ziyalılığın tarixi çox-çox əvvəllərə gedib çıxır. Tarixi faktlar göstərir ki, Azərbaycanın Rusiya tərəfindən işğalına qədər olan dövrdə də Laçının İranda, Ərəbistanda və digər Şərq ölkələrində təhsil alan ziyalıları da az olmamışdır. Zəngəzur qəzasının Cicimli kəndində 1805-ci ildə ruhani ailəsində anadan olmuş Seyid Mir Həmzə Nigari dövrünün görkəmli ziyalısı və söz adamı kimi Azərbaycandan kənarda da çox məşhur olmuşdu. Müxtəlif yerlərdə dərs almış və böyük əsərlər yazmışdır. Ömrünün sonlarında Türkiyədə yaşamış və yaratmışdır.

XVII əsr Azərbaycan aşığı, haqq aşığı, şeirin, bayatı janrının yaradıcılarından biri, qərib aşıq adları ilə tanınan Sarı Aşıq Zəngəzurun Güləbird kəndindəndir. Yaradıcılığında əsas yer tutan vüsal həsrəti onun bayatılarında, aşiqanə şerlərində təbii və təsirli şəkildə ifadə edilmişdir. Şerlərində xalq dilinin zəngin bədii imkanlarından məharətlə istifadə etmiş, orjinal təşbeh və cinaslar işlətmişdir. Haqqında xalq arasında "Yaxşı və Aşıq" dastanı mövcuddur.

Çar Rusiyası dövründə Zəngəzur qəzasına aid edilən və sonradan inzibati ərazi vahidi kimi formalaşan Laçın rayonu XIX əsrin II yarısından başlayaraq özünün füsunkar təbiəti, zəngin təbii ehtiyatları, qoçaq oğulları və qabaqcıl ziyalıları ilə

nəinki Azərbaycanda, ondan uzaqlarda da məşhurlaşmışdı. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti qurulduğu zaman əhalinin maariflənməsi və savadsızlığın ləğvi istiqamətində aparılan tədbirlərdə Laçın rayonundan olan ziyalı insanlar xüsusi fəallıq göstərmiş, dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynamışlar.

Məhz belə insanların fəaliyyətinin nəticəsi idi ki, hələ XIX əsrin sonlarına yaxın bəzi kəndlərimizdə müxtəlif tipli yeni məktəblər açılmış, əhalinin maariflənməsi üçün ilk addımlar atılmışdı. Belə məktəblərdən 130 yaşlı Minkənd kənd orta məktəbini və 130 yaşlı Qarıqışlaq kənd orta məktəbini göstərə bilərik. Hətta tarixi ədəbiyyatlarda özünə yer tapmasa da XVIII əsrin sonlarında Molla Feyzullanın oğlu Molla Əhməd tərəfindən tikilmiş Cicimli kəndindəki Məsciddə mədrəsə fəaliyyət göstərmişdir. 25 nəfərə mədrəsədə dərs deyilirmiş. Ən maraqlısı budur ki, Yelizavetopol quberniyası Zəngəzur qəzasının Bağırbəyli kəndinin sakini Məşədi Qəhrəman bəy Cəbrayıl bəy oğluna 1911-ci il sentyabrın 4-ü tarixində verilmiş Pasporta (Pasportnaya knijka) əsasən dəqiqliklə demək olar ki, Yelizavetpol quberniyası Zəngəzur qəzasının Cicimli kəndi XIX əsrin sonu XX əsrin əvvəllərində Zəngəzurda mərkəzi kənd olmuşdur. Bununla da Qəhrəman bəyə müddətsiz pasportun Cicimli kəndində verilməsi göstərir ki, bu kəndin tarixi qədimlərə gedib çıxır. Və həm də burada vaxtı ilə 700 nəfərin yaşadığı yaşayış məntəqəsinin olması da təsdiq edilir.

Azərbaycan hərb tarixində də laçınlıların müəyyən yeri vardır. Xosrov bəy Sultanovun yaxın qohumu (qardaşı oğlu), birinci süvari Tatar (Azərbaycan) alayının rodmistiri Sultanov (sənədlərdə adı göstərilmir), 1920-ci il 07 yanvar tarixli qərarla

həmin ilin yanvar ayından Zəngəzur suvari diviziyasının komandiri təyin olunmuşdu. Ancaq sənədlərdə doğulduğu kənd göstərilməməklə, 25 may 1897-ci ildə Zəngəzurda anadan olmuş Sultanov İsgəndər Rüstəm oğlu haqqında tam olmasa da məlumatlar vardır. Göstərilir ki, İ.R.Sultanov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri olmuşdur. O, 1916-cı ildə Bakı Kommersiya Məktəbini bitirmiş və Şuşa Qəza Polis İdarəsində işləmişdir. Parlamentin 1919-cu il 01 sentyabr tarixli qərarına əsasən İsgəndər Rüstəm oğlu Sultanov təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Almaniyanın Berlin Universitetinə göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən "Azərbaycanlı Tələbələr İttifaqının" 1923-1925-ci illər üçün məlumatında İ.R.Sul-tanovun təhsilinin bitməsinə iki il qaldığı göstərilir. Onun sonrakı taleyi barəsində məlumat aşkar edilməsə də araşdırmalar belə deməyə əsas verir ki, Zəngəzur suvari diviziyasının komandiri təyin olunmuş Xosrov bəyin qardaşı oğlu Sultanov haqqında söhbət gedən İsgəndər Rüstəm oğlu Sultanovdur.

1930-cu ildən başlayaraq Laçın rayonunun kəndlərində ibtidai və yeddiillik məktəblər təşkil edilməyə başlanmışdı. Laçın şəhərində "Firqə" adlanan orta məktəb fəaliyyət göstərmişdir. Direktoru görkəmli yazıçımız Əli Vəliyev olmuşdur. Bu məktəbə hər kənddən bir nəfər şagird qəbul olunurdu ki, onlar da tətil vaxtı əhalinin savadlanmasına kömək edirdilər. Müəllim çatışmazlığını nəzərə alaraq İkinci Dünya Müharibəsindən sonra Laçın şəhrində Pedaqoji Texnikum açılmış, nəinki

Laçın rayonu üçün, hətta ətraf rayonlarda da müəllim kadrlarının hazırlanmasında bu məktəbin böyük rolu olmuşdur.

XX əsrin əvvəllərində bu dövrün seçilən ziyalılarından Azərbaycan Xalq Cumhuriyyətinin görkəmli dövlət və siyasi xadimi, milli azadlıq hərəkatının fəal iştirakçısı Xosrov bəy Paşa bəy oğlu Sultanovu, Azərbaycan Xalq Cumhuriyyətinin dövlət xadimlərindən biri Nurməhəmməd Əbilxan oğlu Şahsuvarovu və Azərbaycanda xalq maarifinin yayılmasında və inkişafında xüsusi xidmətləri olan Müseyib İbrahim oğlu İlyasovu xüsusi qeyd etmək olar.

Laçın rayonunda əhalinin təhsilə, maarifə və mədəniyyətə böyük marağı olmuşdur. Çətin dağ relyefi və mərkəzdən xeyli uzaqda olmasına baxmayaraq əhali məktəbə, təhsilə böyük əhəmiyyət vermiş və övladlarının təhsil almasına, mədəni səviyyələrinin yüksək olmasına xüsusi diqqət yetirmişlər. İndi elə bir laçınlı ailəsi tapmaq olmaz ki, burada heç olmasa bir nəfər ali təhsilli mütəxəssis olmasın. Respublikamızın bir çox təhsil, elm, sənaye, idarəçilik və digər obyektlərində müvəffəqiyyətlə çalışan yüzlərlə, minlərlə laçınlılar vardır. Bunların içərisində iki nəfər akademik, xeyli sayda fəlsəfə və elmlər doktorları, rayon rəhbərləri, xalq deputatları, müəssisə rəhbərləri, əsl ziyalılar vardır ki, bunlarla da hər bir laçınlı fəxr edir.

Laçın rayonu yarandığı vaxtdan 1992-ci ilə, rayonun ermənilər tərəfindən işğalınadək böyük bir inkişaf yolu keçmişdir. Lakin 1992-ci il may ayının 17-18-də rayonun işğalı 60 min əhalisi olan rayonun məcburi köçkün həyatı yaşamalarına səbəb oldu. Düz 30 il laçınlılar Laçına qayıdacaqları günü həsrətlə gözlədilər. Nəhayət o gün gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin

müdrik daxili və xarici siyasəti, ordu quruculuğu sahəsində görülən işlər, ordumuzun vətənpərvərlik əzmi və rəşadəti, dövlət, ordu ilə xalqın birliyi sayəsində 27 sentyabr 2020-ci ildə başlayan, cəmi 44 gün davam edən və 8 noyabr 2020-ci il tarixdə böyük zəfərlə başa çatan Vətən müharibəsi işğal olunmuş ərazilərin düşməndən azad olunması ilə nəticələndi. Cəmi 23 saatdan bir qədər artıq davam edən antiterror əməliyyatı isə Azərbaycanda mövcud olan erməni separatizminə birdəfəlik son qoydu.

Həmişə arzuladığımız və son 200 ildə misli görünməmiş belə bir qələbə bu gün işğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçında quruculuq və abadlıq işlərinin aparılmasına böyük bir təkan vermiş və laçınlılarda doğma yurda, ana Vətənə daha dərindən bağlanmağa stimul yaratmışdır. 30 illik işğal dövrü Laçının "salnaməsinə" qara hərflərlə yazılsa da, bu ərazinin tarixi keçmişi, oğlunu, qızını bəxtiyar edə biləcək böyük bir gələcəyi vardır. Bunda dövlətimiz, dövlətçiliyimiz, dövlət rəhbərimizlə yanaşı, Laçında yaşamamasından, işləyib-işləməməsindən asılı olmayaraq Laçın qüruru və şərəfi olan hər bir laçınlının, o cümlədən ziyalıların, dövlət xadimlərinin və əmək adamlarının böyük zəhməti, payı vardır.

# II Fəsil
# Dövlətçiliyin, elmin və təhsilin ilk fədailəri
## 2.1. Xosrov bəy Paşa bəy oğlu Sultanov
*Azərbaycan Xalq Cümhuriyyətinin ilk müdafiə naziri, Qarabağın general-qubernatoru*



Azərbaycan Xalq Cumhuriyyətinin görkəmli dövlət və siyasi xadimi, milli azadlıq hərəkatının fəal iştirakçısı, Azərbaycan Xalq Cümhuriyyətinin ilk müdafiə naziri, Qarabağın general-qubernatoru Xosrov bəy Paşa bəy oğlu Sultanov 10 mart 1879-cu ildə Zəngəzur Qəzasının Hacısamlı bölgəsinin Kürdhacı kəndində anadan olmuşdur. Atası Paşa bəy vətəninə, torpağına bağlı, xeyirxah və müdrik el ağsaqqalarından biri

olmuşdur. Onun hikmətli, dadlı-duzlu lətifələri bu gün də zəngəzurluların (laçınlıların) söhbətlərində yaşamaqdadır. Paşa bəy ata qayğıkeşliyi ilə oğlanları Xosrov bəylə Sultan bəyi xalqın oğulları kimi yetişmələrinə böyük səy göstərmişdir. Xosrov bəyin tibb, Sultan bəyin isə hərb elminə yiyələnməsinə nail olmuşdur. Xosrov bəy Gəncə gimnaziyasında oxumuş, 1903-cü ildə Novorossiysk Universitetinin tibb fakültəsini bitirmişdir. Görkəmli dövlət xadimi Nəriman Nərimanovla tələbə yoldaşı olmuşdur. 1903-cü ildə tibb fakültəsini bitirdikdən sonra Tiflisə gəlib orada həkim işləmişdir. Hələ XX əsrin əvvəllərindən xeyriyyəçiliklə də məşğul olmuşdur. 1917-ci ildə Müəssislər Məclisinə deputat seçilmiş və Zaqafqaziya seyminin üzvü idi. 1918-ci ildə İstiqlal bəyannaməsini imzalayan 26 nəfərdən biri olmuşdur. O, Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən təsdiq olunan 1-ci hökümət kabinəsində Müstəqil Azərbaycan Cümhuriyyətinin ilk hərbi naziri, 1918-ci il iyunun 17-də Gəncədə təşkil olunan 2-ci hökümət kabinəsində əkinçilik naziri, Qarabağın general-qubernatoru olmuşdur. Zəngəzurda və Qarabağda Xosrov bəy qayğıkeş həkim, vətənpərvər general kimi tanınmışdır. Xosrov bəy hansı vəzifədə olmasından asılı olmayaraq ömrünün bütün çağlarında öz ləyaqətini, müsbət insani keyfiyyətlərini itirməmiş, həmişə öz əməlləri ilə vətənpərvər və dəyərli bir azərbaycanlı kimi xalqın yaddaşında qalmışdır. Xosrov bəy yalnız bir general kimi yox, elin vətənpərvər, qayğıkeş xilaskarı kimi tanınmışdır.

Xosrov bəy tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi ürəkdən sevən ziyalılardan olmuşdur. O, vaxtının xeyli hissəsini mütaliəyə həsr edərmiş. Şair və alimlərimizin yaradıcılığına böyük ehtiram və hörmətlə yanaşarmış. Xosrov bəy Şuşadakı evlərinin birini kitabxana etmişdir. Xosrov bəy

quberniyanın işçilərindən əlavə həftədə bir gün Şərq xalqlarının tarixi, ədəbiyyatı, mədəniyyəti və fəlsəfəsi haqqında mühazirələr oxuyarmış. Firdovsidən, Nizamidən, Xaqanidən, Sədi və Xəyyamdan fars dilində, Həsənoğludan, Nəsimi və Fizulidən, Vaqif və Vidadidən Azərbaycan dilində şeirlər oxuyarmış. Xosrov bəy Sarı Aşığın bayatılarını daha çox sevərmiş. Yeri gələndə Sarı Aşıqdan bayatı demək Xosrov bəyin söhbətlərinin dadlı-duzlu olduğundan xəbər verir. Bəzən özü də bədahətən şeirlər deyərmiş. Müasirlərindən Əhməd Cavadın şeirlərini daha çox sevib mütaliə edərmiş. Bu da məlumdur ki, Xosrov bəy Bakıda Ə.Cavadın xəbəri olmadan onun şeirlər kitabını çap etdirmişdir. Bu xəbəri eşidən Ə.Cavad qəzetlərin birində Xosrov bəyə qədirbilənliyinə görə təşəkkürünü bildirmişdir.

Xosrov bəy Sultanov 1917-ci ildə "Müsavat" partiyasına daxil olmuş, Rusiya Müəssislər Məclisinə deputat seçilmişdir. Zaqafqaziya seyminin üzvü olmuşdur. Xosrov bəy 1918-ci ildə "İttihad" partiyasına keçmişdir.

Xosrov bəy Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən təsdiq olunan 1-ci hökumət kabinəsində hərbi nazir təyin edilmiş, Azərbaycan Milli Şurasının və Hökumətinin yaranmasını, onların məqsəd və vəzifələrini izah etmək, regionda qayda-qanun və əmin-amanlıq yaratmaq məqsədilə Nəsib bəy Yusifbəyli və Şəfı bəy Rüstəmbəyli ilə birlikdə ilk nümayəndə heyətinin tərkibində Gəncəyə göndərilmişdir. Xosrov bəy 1918-ci il iyunun 17-də Gəncədə təşkil olunan 2-ci hökumət kabinəsində əkinçilik naziri olmuşdur.

Xosrov bəy 1918-20-ci illərdə Qarabağın və Zəngəzurun daşnak-erməni quldur dəstələrindən təmizlənməsində qardaşı Sultan bəylə birlikdə müstəsna xidmət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Ermənistanın daşnak hökumətinin 1918-ci ilin yayından başlayaraq Zəngəzur bölgəsində azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı siyasətinin, Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında törətdiyi kütləvi soyqırımılarının, vəhşiliklərin, qarətlərin qarşısını almaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarını Gəncə quberniyasından ayırıb, Müvəqqəti Qarabağ general-qubernatorluğu yaratdı və Xosrov bəy Sultanovu 1919-cu il fevralın 12-də həmin qubernatorluğun general-qubernatoru təyin etdi. Xosrov bəy Sultanov 15 yanvar 1919-cu ildən 1920-ci ilin aprel ayının 28-dək Azərbaycanın Sovet qoşunları tərəfindən işğalına kimi Mərkəzi Şuşa şəhəri olan və Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl inzibati ərazilərini əhatə edən Qarabağın general-qubernatoru olmuşdur.

Xosrov bəy Sultanov Şuşaya gələn kimi Qarabağda daşnak Andronik başda olmaqla erməni quldur dəstələrilə amansız mübarizəyə başladı, təhlükəli yerlərdə milli ordunun əsgərlərindən ibarət mühafizə dəstəsi yaratdı, Erməni Milli Şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Buna cavab olaraq erməni yaraqlıları Şuşada silahlı toqquşma törətdilər. Sabahısı gün iyunun 6-da sülh əldə edilmiş, şəhərin dinc erməni əhalisi Xosrov bəy Sultanova üzrxahlıq məktubu yazaraq, erməni separatçılarının fitnəkarlığına görə onun şəxsində Şuşanın müsəlman camaatından üzr istəmişdi.

1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində Qarabağda, Zəngəzurda və ermənilərin ərazi iddiası irəli sürdüyü digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Həmin ilin

sentyabrında Azərbaycan hökuməti burada yaşayan ermənilərə mədəni muxtariyyət verdi.

Xosrov bəy Sultanov Azərbaycanın işğalından sonra mühacirətdə yaşamışdır. O, əvvəlcə İrana, sonra Parisə, sonra isə 1926-cı ildə Parisdən İrana gedərək, burada İttihadın Tehran və Təbriz komitələrini yaratmışdı. Xosrov bəy Türkiyədə olarkən 1941-45-ci illər sovet-alman müharibəsində əsir alınmış Azərbaycanlıların həbs düşərgələrindən azad olunmasına yaxından kömək göstərmiş, Fransada Azərbaycan xəstəxanası açmışdır.

Xosrov bəy 7 yanvar 1943-cü ildə Türkiyədə, İstanbul şəhərində vəfat etmişdir. İstanbulun Feriköy qəbirstanlığında dəfn olunmuşdur.

Xosrov bəy Sultanov böyük vətəndaş, vətənini, xalqını sevən, onun yolunda mübarizə aparan şəxsiyyət olmuşdur.

## 2.2. Nurməmməd bəy Adilxan bəy oğlu Şahsuvarov

*Görkəmli dövlət və elm xadimi, Azərbaycan Xalq Cümhuriyyətin fəal qurucularından biri*



Azərbaycan Xalq Cumhuriyyətinin dövlət, elm xadimlərindən və fəal qurucularından biri, Nurməmməd Adilxan oğlu Şahsuvarov 1883-cü ildə Zəngəzur qəzasının, indiki Laçın rayonunun Minkənd kəndində bəy ailəsində anadan olmuşdur. İbtidai təhsilini Minkənd rus-tatar (Rus – Azərbaycan) məktəbində alan Nurməmməd Şahsuvarov 1889-cu ildə məşhur Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olmuş, 1903-cü ildə seminariyanı bitirmişdir. Seminariyada təhsilini bitirdikdən sonra Nurməmməd Şahsuvarov bir

müddət Gəncə şəhərində rus dili müəllimi işləmiş, sonra isə Tiflisdəki Aleksandr Müəllimlər İnstitutuna daxil olmuş, 1912-ci ildə institutu bitirmişdir. Təhsilini davam etdirən Nurməm-məd Şahsuvarov elə həmin il Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş, 1915-ci ildə universiteti ekstern yolu ilə bitirmişdir. Nurməmməd Şahsuvarov təhsil aldıqdan sonra Dağıstan Vilayəti Xalq Təhsili İdarəsi üzrə Teymurxanşura (Buy-naksk) şəhərinə təlimatçı təyin olunmuşdur. 1915-1919-cu illərdə Dağıstan Xalq Məktəblərinin inspektoru vəzifəsində çalışmışdır. 11 may 1918-ci ildə Şimali Qafqaz Dağlılar Respublikası müstəqilliyini elan etdikdən sonra Nurməmməd Şahsuvarov həmin respublikada əvvəlcə xalq maarifi nazirinin müavini, sonra isə xalq maarifi naziri işləmişdir. 1919-cu ilin mayında Dağlılar Respublikası işğal edildikdən sonra Nur-məmməd Şahsuvarov Bakıya qayıtmış, burada İttihad partiyası sıralarına qoşularaq Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

Nurməmməd bəy Şahsuvarov Rusiya Fevral inqilabı dövründə siyasi hadisələrdə yaxından iştirak etmişdir. 1 may 1917-ci ildə Birinci Dağlı Qurultayında Dağıstan oblastı adından Mərkəzi Komitənin üzvlüyünə 2-ci dərəcəli namizəd seçilmişdir. 1918-ci ildə isə dağlı ziyalıları adından türk nümayəndələr ilə görüşdə iştirak etmişdir.

Nurməmməd bəy Şahsuvarov Azərbaycan Xalq Cüm-huriyyətin fəal qurucularından biri olmuşdur. O, 14 mart 1919-cu il tarixində qurulan Nəsib bəy Yusifbəyli hökumətində Maarif və Dini etiqad nazirinin müavini təyin edilmişdir. 5 mart 2020-ci ilə kimi N.Şahsuvarov bu vəzifədə çalışmış, həmin tarixdə isə Nurməmməd bəy Şahsuvarov Maarif və Dini etiqad naziri təyin olunmuşdur.

Nazir olduğu müddətdə Nurməmməd bəy Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılması, təhsil və mədəniyyət sahəsində bir sıra mütərəqqi tədbirlərin həyata keçirilməsində, 1919-cu ildə açılan Bakı Dövlət Universitetinin təşkilində yaxından iştirak etmişdir. Xalq Cümhuriyyətinin fəal qurucularından olan, görkəmli maarif xadimi Nurməmməd bəy Şahsuvarov 20 aprel 1920-ci ildə Azərbaycanın rus qoşunları tərəfindən işğalından sonra Azərbaycanı tərk etməmiş, Vətəndə qalmağı hər şeydən üstün tutmuşdur. Aprel işğalından sonra Nurməmməd Şahsuvarov Azərbaycan SSR Xalq Maarif komissarı Dadaş Bünyadzadənin müavini təyin olunmuşdur. 1920-ci ilin yanvar ayının 25-də Bakı İctimai Məclisinin zalında N.Şahsuvarovun fəal üzvü olduğu İttihad partiyasının II Qurultayı keçirilmiş, qurultayda M.Şahsuvarov yeni tərkibli Mərkəzi Komitəyə üzv seçilmişdir.

N.Şahsuvarov Bakıda əvvəlcə pedaqoji seminariyada, sonra S.Ağamalıoğlu adına Torpaq və Geodeziya texnikumunda rus dilindən dərs demişdir. Sonralar isə BDU-da rus dili kafedrasının müdiri, Azərbaycan Neft İnstitutunda isə rus dili müəllimi vəzifəsində işləmişdir.

1937-ci ilin represiya dalğası minlərlə ziyalımız kimi Nurməmməd bəy Şahsuvarovdan da yan keçməmişdir. 1937-1938-ci illərin qatı repressiyasına məruz qalan Nurməmməd bəy Şahsuvarov 3 mart 1938-ci ildə həbs edilərək 1940-cı ilin fevralında "millətçi antisovet, qiyamçı təşkilatlarda iştirakına görə" adı ilə 5 il müddətinə Krasnoyarsk diyarına sürgün edilmişdir.

Nurməmməd Şahsuvarov həbs edilməzdən əvvəl Moskvada Qubkin adına institutda dosent vəzifəsində işlə-

mişdir. Feona Kuzmişina adlı bir xanımla ailə həyatı qurmuşdur. 1938-ci ilin fevralın 27-də Moskva yaxınlığındakı Leninsk rayonunda Kalujsk şossesində Derevlevo kəndində 52 nömrəli evdə yaşayan N.Şahsuvarov Dövlət Təhlükəsizlik Komitəsinin kapitanı Fedotov tərəfindən həbs edilmiş və Bakıya göndərilmişdir.

N.Şahsuvarova qarşı ilk istintaq 1938-ci ilin martında aparılmış və istintaq zamanı əksinqilabi təşkilatda iştirak ittihamı ilə təqsirləndirilsə də o, bunu təkzib etmişdir. 1938-ci ilin aprelin 15-də keçirilən növbəti istintaqda o, təzyiqlər altında qalaraq əksinqilabi təşkilata daxil olduğunu deməyə məcbur olmuşdur. 1943-cü ildə sürgün müddəti bitəndən sonra N.Şahsuvarov Bakıya qayıtmış və pedaqoji fəaliyyətini davam etdirmişdir. Nurməmməd bəy 1946-cı ildən 1958-ci ilədək Azərbaycan Tibb İnstitutunda və Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda Rus dili kafedrasında professor vəzifəsində çalışmışdır. Həmin dövrdə həm də Azərbaycan Tibb İnstitutunun Rus dili kafedrasının müdiri olmuşdur.

N. Şahsuvarovun oğlu Cahangir Moskvada yaşamışdır. Fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. Moskva Yerin Fizikası İnstitutunda çalışmışdır. Qardaşı Mürsəl bəy Şahsuvarov Azərbaycan Xalq Cümhuriyyətinin xaricdə təhsil almağa göndərdiyi 100 tələbədən biri olmuşdur.

Nurməmməd Şahsuvarov 1958-ci ilin avqustun 11-də Bakıda vəfat etmiş və Yasamal qəbiristanlığında dəfn edilmişdir.

## 2.3.Müseyib İbrahim oğlu İlyasov

*Görkəmli maarif xadimi*



Görkəmli maarif xadimi Müseyib Kərbəlayı İbrahim oğlu İlyasov 1893-cü ildə Yelizavetpol Quberniyasının Zəngəzur qəzasının (İndiki Laçın rayonunun) Oğuldərə kəndində anadan olmuşdur.

Müseyib İlyasov ilk təhsilini atasının Oğuldərədə açdığı xüsusi məktəbdə almışdır. Sonralar Minkənd kəndində olan Rus-Azərbaycan (tatar) məktəbində təhsilini davam etdirmişdir. Rus-Azərbaycan (tatar) məktəbini bitirdikdən sonra 1906-1907-illərdə Şuşada Həşim bəy Vəzirovun müdir olduğu Qəza

məktəbində oxumuşdur. Yaxşı oxuması və çalışqanlığı ilə diqqəti cəlb etmiş və başqa bir neçə gənclə birlikdə görkəmli maarifçi-pedaqoq Firidun bəy Köçərli onun da təhsilini Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında davam etdirməsini məsləhət bilmişdir. M.İlyasov 1908-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olmuş və 1912-ci ildə Seminariyanı bitirmişdir (Şəhadətnamə № 613/542).

Müseyib İlyasov seminariyanı bitirdikdən sonra 13 sentyabr 1912-ci ildən, 13 sentyabr 1915-ci illədək Bakı şəhər ikinci rus-tatar məktəbində müəllim işləmişdir.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin "Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyası" adlı fondunda digər sənədlərlə yanaşı, Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru F.A.Smirnovun 1912-ci il iyulun 30-da "Xalq məktəbləri Bakı-Dağıstan Direksiyası"nın direktoru A.S.Txorjevskiyə ünvanladığı məktubda F. A. Smirnov bildirirdi ki, Seminariyanın kurslarını cari ildə bitirmiş və Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyasında xidmət etmək istəyən M.İlyasovun aşağıda qeyd olunan sənədlərini: 1) Seminariyanın kurslarını bitirdiyi haqqında 613/542 saylı şəhadətnaməni; 2) 703 saylı doğum haqqında şəhadətnaməsini Direksiyanın ünvanına göndərir və xahiş edir ki, M.İlyasov hər hansı xalq müəllimi vəzifəsinə təyin edilsin (ARDTA, f.309, siy. 4. iş. 440, v. 2-2 (arxa üzü).

Bakı şəhər Duması nəzdindəki məktəb komissiyasının sədrinin Bakı quberniyası və Dağıstan vilayətinin xalq məktəbləri direktoruna göndərdiyi 4 yanvar 1913-cü il tarixli məktubda bildirilirdi ki, komissiyanın 19 dekabr 1912-ci il tarixli iclasında Müseyib İlyasovun ikinci şəhər rus-tatar məktəbinə müvəqqəti olaraq boş qalan müəllim vəzifəsinə

seçilməsi haqqında qərar qəbul edilmişdir. Həmin məktubda məktəb komissiyasının Müseyib İlyasov haqqında həmçinin aşağıdakı məlumatlara da malik olduğu qeyd edilirdi: "milliyyətcə tatar (Azərbaycanlı), şiə məzhəbli müsəlmandır, 20 yaşı var, subaydır. 1912-ci ildə Qori şəhərində Müəllimlər Seminariyasının tam kursunu bitirmiş, həmin ilin noyabrında isə Azərbaycan dili üzrə biliyi yoxlanılaraq qənaətbəxş hesab edilmişdir, ikinci şəhər rus-tatar məktəbində işləyir" (ARDTA, f.309, siy.4. iş.440, v.3)

Müseyib İlyasov Bakı şəhər ikinci rus-tatar məktəbində 13 sentyabr 1912-ci ildən, 13 sentyabr 1915-ciilədək işləmişdir (ARDTA, f.309, siy. 4. iş.440, v.6;13).

Bəzi mənbələrdə olan məlumatlara görə M.İlyasov Bakı şəhər ikinci rus-tatar məktəbindən çıxdıqdan sonra Bakıda və Qubada müxtəlif məktəblərdə və gimnaziyalarda müəllim vəzifəsində fəaliyyətini davam etdirmişdir (Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsi (1879-2009) s.50).

Lakin DTX-nın arxivində olan 21 sentyabr 1941-ci ildə həbs edilmiş M.İlyasovun PR-22319 nömrəli qovluğundakı sənədlərdə onun 25 sentyabr və 18 oktyabr 1941-ci ildə müstəntiq Arzumanyana verdiyi ifadələrdən məlum olur ki, 1915-ci ildən 1919-cu ilə qədər qaçqınlar və imperialist müharibəsində zərər çəkmişlərə köməklik göstərən Xosrov bəy Sultanovun rəhbərlik etdiyi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuş və burada fəaliyyət göstərmişdir. 1919-cu ildən yenidən pedaqoji fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılan "Bakı şəhəri III Aleksandr adına I kişi gimnaziyası" fondunda xalq məktəb müəllimi Müseyib İlyasovun Bakı I kişi gimnaziyasının milli əlifba sinifinə müəllim təyin edilməsi

haqqında Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarif naziri R.B.Kaplanovun 1919-cu ilin avqustun 12-də imzaladığı əmr vardır (ARDTA, f.391,siy.1. iş.1086,v.2).

M. İlyasov Bakı I kişi gimnaziyasında xeyli müddət işlədikdən sonra qısa müddətli məzuniyyətə çıxmışdır. 1920-ci il fevralın 3-də Bakı I kişi gimnaziyasının direktorunun verdiyi vəsiqədə qeyd edilirdi ki, M.İlyasov ailə işləri ilə əlaqədar 1920-ci il fevralın 6-dan 9-dək qısa müddətli məzuniyyətə buraxılır (ARDTA,f.391,siy.1.iş.1086,v.2).

Bu illərdə Bakıda maarifçi pedaqoq, şair Seyid Əzim Şirvaninin nəvəsi Mir Fazilin müdir olduğu məktəbdə müəllim işləmişdir. Çox güman ki, bu elə Bakı I kişi gimnaziyası olmuşdur.

1915-1916-cı illərdə Xosrov bəy Sultanovla birlikdə onun rəhbərlik etdiyi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin xətti ilə İrana və Türkiyəyə getmiş və əhalinin yoxsul təbəqələrinə yardım etmişlər.

Müseyib İlyasov 1920-ci ildə Şuşa şəhərində açılan kişi müəllimlər seminariyasına direktor təyin edilmiş, onun ilk yaradıcı və təşkilatçılarından biri olmuşdur. Görkəmli maarifpərvər kimi tanınmış Müseyib İlyasov 1924-cü ilə qədər Şuşa kişi müəllimlər seminariyasının müdiri vəzifəsində çalışmış və onun müəllim kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur.

M.İlyasov 1921-ci il 12 sentyabr ayında görkəmli pedaqoq və kütləvi mədəni iş rəhbərlərinin, o cümlədən M.Qiyasbəyov, S.M.Qəniyev, F.Rzabəyov, H.Cavid, R.Əfəndiyev, Q.Bağırov, N.Qiyasbəyov, A.Qasımov, S.Acalovun iştirakı ilə keçirilmiş müəllim seminariyaları müdirlərinin qurultayında iştirak etmişdir.

Müseyib İlyasov ixtisaslı pedaqoq olaraq 1924-cü ilə qədər Şuşa kişi müəllimlər seminariyasına rəhbərlik etmişdir. Bu müddətdə respublikamız üçün xeyli müəllim kadrları hazırlanmışdır. Onun rəhbərliyi altında bir sıra tanınmış şəxslər, o cümlədən Azərbaycan Xalq Yazıçıları Süleyman Rəhimov və Əli Vəliyev pedaqoji təhsil almışlar. Süleyman Rəhimov 1921-ci ilin iyun ayının 1921-ci ilin noyabr ayınadək Şuşa pedaqoji kursunda təhsil almış, kursu bitirdikdən sonra 1921-ci il dekabr ayından 1922-ci il avqust ayınadək Qubadlı rayonunun Qubadlı kəndində, 1923-cü ilin sentyabrından 1924-cü ilin avqust ayınadək Laçın rayonunun Hoçaz kəndində müəllim işləyərək təhsili yaymış (ARDƏİA, f.2, siy.2, İş,4410,v.3 (arxa üzü), 1931-ci ilin sentyabr ayından, 1932-ci ilin avqust ayına qədər olan müddətində Şuşa Pedaqoji Texnikumun direktoru olmuşdur. Sonralar Laçında Siyasi Maarif şöbəsinin müdiri olmuşdur. Əli Vəliyev Şuşa Pedaqoji Seminariyasında müəllim işləmiş, sonralar Laçın rayonunda Maarif Şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Görkəmli maarifpərvər olan M.İlyasov Şuşa Müəllimlər Seminariyasına rəhbərlik etdiyi müddət ərzində özünü təşkilatçı-pedaqoq, maarif işini dərindən bilən bacarıqlı rəhbər və qayğıkeş müəllim kimi göstərmiş, Azərbaycanda müəllim kadrlarının hazırlanmasında mühüm xidmətlər göstərmiş, fəaliyyəti ona xalq arasında böyük hörmət və nüfuz qazandırmışdı.

Mərkəzi Laçın şəhəri olmaqla 1924-cü ildə Laçın, Qubadlı və Kəlbəcər rayonlarını əhatə edən Kürdüstan qəzası təşkil edildikdən sonra M.İlyasov Qəza Maarif Şöbəsinin müdiri təyin edilmiş və 1924-cü ildən 1930-cu ilədək bu ərazidə xalq maarifinin təşəkkülü və inkişafında böyük fədakarlıqlar və

misilsiz xidmətlər göstərmişdir. Bu haqda görkəmli xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı və sonralar onunla birlikdə işləmiş Süleyman Rəhimov "Dağlar məni səslədi (xatirat və təəssürat)" adlı povestində yazırdı: *"Laçının Oğuldərə kəndindən çıxan, inqilabdan əvvəl məhşur Qori seminariyasını bitirən, Şuşada açılan darülmüəlliminin ilk təşkilatçısı və müdirlərindən olan, sonralar Kürdüstan qəza maarif şöbəsinin müdiri vəzifəsində çalışan Müseyib İlyasov bir fədai-mücahid kimi hərəkət edir, dağ obalarının hamısına maarifin, mədəniyyətin yayılmasına çalışır, sözün əsil mənasında cəhalətə qarşı çarpışırdı"* (*Azərbaycan jurnalı 1967, № 11, səh. 60-61*].

Əhali arasında savadsızlığın ləğvinə böyük diqqət göstərməsi ilə yanaşı, Müseyib İlyasov məktəb tikintisinə də xüsusi əhəmiyyət vermişdir. Laçın şəhərində, Minkənd, Qorçu, Hacıxanlı, Şamkənd, Kürdhacı, Vağazin, Hoçaz və digər bir sıra kəndlərdə çox yaraşıqlı məktəb binalarının tikintisinə şəxsən özü rəhbərlik etmiş və onların qısa müddətdə istifadəsinə nail olmuşdur. Qeyd edək ki, 1992-ci ilin may ayına, ermənilər Laçın rayonunu işğal edənə kimi bu məktəblər orta məktəblər kimi fəaliyyət göstərmişdir.

Şuşa seminariyasında və Laçında M.İlyasovla birlikdə işləmiş görkəmli ədib, xalq yazıçısı Əli Vəliyev Müseyib İlyasovun bu fədakar əməyindən bəhs edərək "Onları unutmaq olmaz" adlı məqaləsində yazırdı: *"Laçının kəndlərində məktəb binası yox idi. Yeni binalar tikmək, uşaqları məktəbə cəlb etmək məqsədilə qəza maarif şöbə müdiri Müseyib İlyasovun işgüzar fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Qəzanın Oğuldərə kəndindən olan Müseyib İlyasov Qori seminariyasını qurtarmış, Şuşa seminariyasında işləmiş, maarif cəbhəsinin fədaisi kimi hörmət qazanmışdı. Müseyib İlyasov tikilən məktəb*

*binalarını vaxtaşırı yoxlayır, hər cür köməklik göstərib işləri sürətləndirirdi.*

*Müseyib İlyasov müəllimlərin qəza mərkəzinə çağrılmasına nadir hallarda razılıq verərdi. Onun həm özü, həm də inspektorlar məktəbə gedər, müvəffəqiyyət və nöqsanları yerində görər, məktəbə lazımi yardım göstərərdi.*

*Müseyib İlyasov müəllimlər qarşısında çıxış edər, bir məsələni həmişə xatırlardı: "Xalq müəlliminin ümdə vəzifəsi savadlı, bilikli, mədəniyyətli şagird və tələbə tərbiyə etməkdən ibarətdir."*

*Qəza zəhmətkeşləri arasında dərin hörmət qazanmış Müseyib İlyasov müəllim kadrları hazırlamaq məqsədilə son sinif tələbələrinin savadlılarından Şuşa yay pedaqoji kurslarına göndərər, yeni dərs ilində onları müəllim təyin edərdi.*

*Müseyib İlyasov həm təvazökar, həm də qayğıkeş idi. Öz üzərində işləməyən, sinfə hazırlıqsız girən, konspektsiz dərs deyən müəllimlərdən acığı gəldiyi kimi, bacarıqlı, bilikli, zirək, işlək, gündən-günə irəli gedən məllimlərə hər cür qayğı göstərər, kömək əlini uzadardı"("Sovet kəndi" qəzeti, 1974-cü il).*

Görkəmli psixoloq, professor Məmmədəli Məhərrəmov 1928-ci il sentyabr ayının 3-də Şuşa II dərəcəli şura zəhmət məktəbini bitirib Laçına müəllim işləməyə gedəndə M.İlyasovla görüşməsindən bəhs edərək yazırdı: *"M.İlyasova hamı səmimi hörmət və sadə mehribanlıqla Müseyib əmi deyirdi. Mən onu hələ Şuşa Pedaqoji Texnikumunun direktoru olan vaxt ötəri görmüşdüm. Burada isə lap yaxından gördüm, qəbulunda oldum. İlk baxışda adama elə gəlirdi ki, o, qaşqabaqlı, həmişə qəzəbli və ətiacı adamdır. Lakin bir neçə dəqiqəlik ünsiyyət bu ilk təəssüratı alt-üst edirdi. Məlum olurdu ki, bu ciddi*

*görkəmin arxasında hər kəsə müyəssər olmayan bir mehribanlıq və məhrəmanə qayğıkeşlik saxlanılır.*

*Müseyib əmi əsl iş adamı idi. Yalnız yeri gələndə danışardı, gurultulu cümlələr işlətmək "qabiliyyətinə" malik deyildi. Özü haqqında danışdığını eşidən adama rast gəlmədim. Amma başqaları onun işindən hörmət və məmuniyyətlə danışardılar" (Azərbaycan müəllimi qəzeti, 1970-cu il, 9 yanvar).*

M.İlyasov 1930-cu ildən sonra Bakıya gəlmiş və 1939-cu ilə kimi Azərbaycan Xalq Maarif komissarlığında bir çox məsul vəzifələrdə, kadrlar şöbəsində pedaqoji kadrlar üzrə məsul icraçı, metodist və inspektor, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rus dili kafedrasında müəllim vəzifələrində çalışmışdır. O, Şuşada pedaqoji seminariyanın direktoru vəzifəsində çalışarkən də, Qəza Xalq Maarif Şöbəsinə başçılıq edəndə də, Respublika Maarif komissarlığında işləyəndə də müəllim kadrlarının yetişdirilməsinə mənəvi ata qayğısı ilə yanaşmış və böyük əmək sərf etmişdir.

M.İlyasov ölkəmizin ictimai həyatında bilavasitə fəal iştirak edirdi. 1923-cü ildə o ictimai əsaslarla Moskvada Azərbaycan pavlionunda təşkil edilən kənd təsərrüfatı sərgisinin direktoru olmuşdur. 1930-cu illərdə Laçında milislərlə birlikdə banditlərə qarşı mübarizədə iştirak etmişdir. Vətənin çağırışı və öz vicdanının səsilə öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirmişdir. 1936-cı ildə Bukşpanın rəhbərliyi ilə Laçın rayonunda əhalinin etnik tərkibin öyrənilməsi məqsədilə təşkil edilən xüsusi ekspedisyada fəal iştirak etmişdir.

Müseyib İlyasov 1926-cı ilin fevralın 26-dan martın 6-a qədər olan müddətdə Bakı şəhərində hazırda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi binanın üçüncü mərtəbəsində yerləşən böyük akt zalında keçirilmiş

məşhur I Türkoloji Qurultayın iştirakçısı olmuşdur. Lakin təssüflər olsun ki, sonrakı dövrlərdə Birinci Türkoloji Qurultayının demək olar ki, bütün iştirakçıları kimi, Müseyib İlyasov da repressiya qurbanı olmuşdur.

Müseyib İlyasova SSRİ Mərkəzi İcrayə Komitəsi və Xalq Komissarlar Sovetinin müəllimlərə şərti ad vermə haqqında 1936-cı il tarixli qərarına əsasən Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən 20 yanvar 1939-cu ildə orta məktəb müəllimi adı verilmişdir (Attestat № 9342).

Müseyib İlyasov Azərbaycan maarifinin və təhsilinin ən böyük simalarından biri olmuşdur. O, ali məktəb müəllimi kimi də fəaliyyət göstərmişdir. O, 1939-cu ilin sentyabr ayından 1940-cı ilin avqust ayına kimi Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rus dili kafedrasında assistent vəzifəsində çalışmışdır. Bu görkəmli maarif xadiminin həyatının son dövrü Bakıdakı 17 nömrəli məktəblə bağlı olmuşdur. O, 1940-cı ilin sentyabr ayından 1941-ci ilin sentyabr ayına- həbs olunana qədər bu məktəbdə müəllim işləmişdir.

Şəxsiyyətə pərəstiş dövrünün yüzlərlə zəkalı və istedadlı Azərbaycan oğulları kimi, maarifçi-pedaqoq Müseyib İlyasov da ədalətsizliyin qurbanı olmuşdur. O, 1941-ci ilin sentyabr ayının 21-də cinayətkarcasına təşkil edilmiş saxta ittiham əsasında həbs edilmişdir. İstintaq zamanı müstəntiqin "özünüzü günahkar hesab edirsinizmi?" sualına dəfələrlə: "Mənə təqdim olunan ittihamlara razı deyiləm, günahkar deyiləm, sovet hökuməti zamanı 21 il işləmişəm, işlədiyim müddətdə heç bir siyasi səhv etməmişəm və heç zaman antisovet fəaliyyəti ilə məşğul olmamışam" - cavabını versə də, nə istintaq, nə də məhkəmə prosesində heç bir cinayət sübut olunmasa da, Xosrov bəy Sultanovun yaxını, onunla dost olması, bir yerdə

işləməsi və əhali arasında antisovet təbliğatı aparması bəhanəsilə 14 fevral 1942-ci ildə 8 il həbs cəzası ilə azadlıqdan məhrum edilmiş (Cinayət işi: Pr.22319) və 12 may 1944-cü ildə Qazaxıstanın Karakanda şəhərində həbsxanada vəfat etmişdir. Əslində isə onun həbs olunmasının əsas amillərdən biri onun represiya olunan digər böyük şəxsiyyətlərimiz kimi vətənpərvər ziyalı olması və birinci Türkoloji Qurultayın nümayəndəsi olması olmuşdur.

Azərbaycan SSR Ali Məhkəməsinin 4 avqust 1956-cı il qərarına əsasən Müseyib İlyasovun işində heç bir cinayət tərkibi olmadığından ona verilmiş hökm ləğv edilmiş və ölümündən sonra bəraət verilmişdir.

*Bu kitabda indi haqlarında danışacaqlarımız elm, təhsil, mədəniyyət və dövlət xadimləri məhz bu şəxslərin xələfləri və davamçılrı kimi təkcə Laçınımızın deyil, respublikamızın mədəni və sosial həyatının çiçəklənməsinə öz töfələrini verən və qürur duyduqlarımız şəxslər və şəxsiyyətlərdir.*

# III Fəsil
# Elmin və dövlətçiliyin zirvəsinə ucalanlar
## 3.1.Məhəmməd Fərman oğlu Mehdiyev

*Fizika-riyaziyyat elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər*
*Akademiyasının həqiqi üzvü*



Məhəmməd Fərman oğlu Mehdiyev 02 oktyabr 1941-ci ildə Laçın rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Atası 30 sentyabr 1943-cü ildə İkinci Dünya müharibəsində həlak olmuşdur. Ana himayəsində böyüyən Məhəmməd Mehdiyevin uşaqlıq dövrü çətin keçmişdir.

Məhəmməd Mehdiyev 1951-ci ildə Ərdəşəvi kənd yeddiillik məktəbinin birinci sinfinə daxil olub, 1958-ci ildə

məktəbi əla qiymətlərlə bitirmişdir. Orta məktəbdə təhsil almağa gec - 10 yaşında başlasa da məktəbdə yaxşı oxuması ilə fərqlənir və müəllimlərin böyük hörmətini qazanır. İbtidai sinif müəllimi Teyyub Hüseynovu, riyaziyyat müəllimi Əjdər müəllimi dərin hörmətlə xatırlayan Məhəmməd müəllim ilk təhsilində onların böyük rolu olduğunu dərin ehtiramla yad edir. Ərdəşəvi məktəbi yediillik olduğundan o, orta təhsilini qonşu Vağazin kənd orta məktəbində davam etdirməli olur və 1958-ci ildə bu məktəbin səkkizinci sinfinə daxil olur. Məhəmməd Mehdiyev bu məktəbdə də özünün çalışqanlığı, riyaziyyata olan marağı ilə müəllimlərin diqqətini cəlb edir. Məktəb direktoru İbrahim müəllimin, riyaziyyat müəllimi Rəhim müəllimin əməklərini yüksək qiymətləndirir.

Məhəmməd Mehdiyev 1961-ci ildə rayonun Vağazin kənd orta məktəbini əla qiymətlərlə bitirir və həmi il sənədlərini Azərbaycan Dövlət Universitetinin (İndiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsinə verir, yüksək qiymətlərlə universitetə daxil olur. Universitet illərində də Məhəmməd müəllim özünün savadı, biliyi, qətiyyəti, çalışqanlığı ilə pedaqoji kollektivin və tələbə yoldaşlarının böyük hörmətini və etimadını qazanır.

Məhəmməd Mehdiyev universitet illərində ona böyük etimad və qayğı göstərən fakültə dekanı akademik Əşrəf Hüseynovu, universitetin Nəzəri mexanika kafedrasının müdiri, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Yusif Əmənzadəni, Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Həşim Ağayevi hörmətlə yad edir.

Məhəmməd Mehdiyev 1966-cı ildə universiteti əla qiymətlərlə - fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin il

Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasına daxil olur və təhsilini davam etdirmək üçün Rusiyanın Rostov şəhərində Rostov Dövlət Universitetində aspiranturaya qəbul olunur. O, burada bir çox tanınmış riyaziyyatçı alimlərdən dərs alır. Elmi rəhbəri professor Yuri Anatoloyeviç Ustinov, akademik İosif İzrayleviç Voroviç kimi riyaziyyatçı alimlər ona xüsusi qayğı göstərirlər.

M.Mehdiyev 1970-ci ildə təyinatla AMEA-nın Riyaziyyat və Mexanika İnstitutuna göndərilmiş və kiçik elmi işçi vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

M.Mehdiyev 1975-ci ildə Rostov Dövlət Universitetində "Konik örtük və dəyişən qalınlıqlı dairəvi lövhə üçün üçölçülü gərginlik-deformasiya vəziyyətin asimptotik təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almışdır. 1976-cı ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutuna baş elmi işçisi vəzifəsinə seçilmişdir. 1978-ci ildə isə Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyət göstərən Xüsusi Konstruktor Bürosunda "Nazik divarlı kontruksiyalar" şöbəsinə müdir təyin edilmişdir. 1985-1991-ci illərdə Xüsusi Konstruktor Bürosunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır.

Riyaziyyat elmi sahəsində görkəmli alim kimi tanınan M.Mehdiyev kosmik uçuş aparatlarının təkmilləşdirilməsində və yeni kosmik aparatların yaradılmasında icraçı, məsul icraçı, mövzu rəhbəri və baş layihə konstruktoru kimi bilavasitə iştirak etmişdir. "Energiya-Buran" sistemində istifadə olunan daşıyıcı raketin möhkəmlik məsələləri üzrə baş konstruktoru olmuşdur. Kosmik uçuş aparatlarının real şəraitdə sınağı üçün nəzərdə tutulmuş sınaq stentinin müəlliflərindən biridir.

Məhəmməd Mehdiyev elmi tədqiqatlarını davam etdirmiş və 1989-cu ildə Leninqradda (indiki Sank-Peterburq) Leninqrad Dövlət Universitetində “Örtüklər üçün elastikiyyət nəzəriyyəsinin bəzi fəza məsələlərinin asimptotik təhlili” mövzusunda doktorluq dissertasiyası müdafiə edib, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi, 1994-cü ildə isə professor elmi adı almışdır.

Professor Məhəmməd Mehdiyev qazandığı elmi nailiyyətlərə və riyaziyyat və mexanika elminə verdiyi töhfələrə görə 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik M.Mehdiyev 1991-ci ildən pedaqoji fəaliyyətini Bakı Dövlət Universiteti ilə bağlamışdır. 2002-ci ildə “Tətbiqi analizin riyazi üsulları” kafedrasına kafedra müdiri vəzifəsinə seçilmişdir. 2018-ci ilədək bu kafedraya başçılıq etmişdir. 2008-ci ildə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı vəzifəsinə seçilmiş və 2024-cü ilədək bu vəzifədə uğurla çalışmışdır. Hazırda Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat kafedrasının professoru vəzifəsində çalışır.

Akademik Məhəmməd Mehdiyev bərk cism mexanikası sahəsində təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da tanınmış görkəmli alimdir. Onun tərəfindən elastikiyyət nəzəriyyəsində yeni “bircins həllər” metodu işlənib hazırlanmışdır. Həmin metodun köməyi ilə örtük və lövhələr üçün elastikiyyət nəzəriyyəsinin üçölçülü məsələsindən ikiölçülü məsələyə keçid problemi öyrənilib, həmçinin örtük və lövhələrin ümumi riyazi nəzəriyyəsi yaradılaraq bu dəqiq münasibətlər əsasında örtük və lövhələrin klassik nəzəriyyəsinin tətbiq olunma oblastı müəyyən olunmuşdur.

Akademik Məhəmməd Mehdiyev tərəfindən örtük və lövhələrin klassik nəzəriyyəsinə nəzərən daha dəqiq olan örtük və lövhələrin yeni tətbiqi nəzəriyyəsi verilmişdir. Deformasiyaların bərk cisim mexanikası sahəsində aldığı fundamental nəticələrlə yanaşı, prof. M.Mehdiyev tərəfindən verilmiş "bircins həllər" metodu diferensial operatorların spektral nəzəriyyəsinə, diferensial tənliklərin asimptotik inteqrallama metoduna ciddi yenilikdir.

M.Mehdiyev impuls təsirli determinik oyunlarda yəhərvari nöqtənin varlığı üçün zəruri şərtlər taparaq həmin şərtlərin zəruri və kafi olduğu sinifləri müəyyən edib. Qeyri-lokal şərtli optimal idarəetmə məsələsində optimallıq üçün birinci və ikinci tərtib zəruri şərtlər alınıb. Son illərdə akademik və onun tələbələri tərəfindən anizotropik örtüklərin ümumi nəzəriyyəsi yaradılıb və onun əsasında mövcud texniki nəzəriyyələrin tətbiq olunma oblastları müəyyən edilib.

M.Mehdiyev "AMEA-nın xəbərləri" (mexanika buraxılışı) jurnalının redaksiya heyətinin üzvü və "Bakı Dövlət Universitetinin Xəbərləri" (fizika-riyaziyyat seriyası) jurnalının baş redaktorunun müavinidir. Krasnodar vilayətində Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının beynəlxalq "Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Elmi Mərkəzinin Ekoloji Xəbərləri" jurnalının redaksiya heyətinin üzvüdür.

Akademik M.Mehdiyevin elmi rəhbərliyi ilə 20 nəfər elmlər namizədi (fəlsəfə doktoru), 2 nəfər elmlər doktoru dissertasiyaları müdafiə edərək elmi dərəcələr almışlar. O, 37-si xaricdə olmaqla 150 elmi əsərin, o cümlədən 4 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin müəllifidir.

Akademik Məhəmməd Mehdiyevin fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdi. O, 2009-cu ildə

Respublika Prezidenti İlham Əliyevin 540 saylı sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş və 2019-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2016-cı ildə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmiş və Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə universitetin yubiley medalına layiq görülmüşdür.

Akademik Məhəmməd Mehdiyev təkcə Azərbaycanda deyil, dünyanın bir çox inkişaf etmiş ölkələrində tanımış alimdir. O, 2003-cü ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "İlin Adamı" elan edilmişdir. 2004-cü ildə Avropa İttifaqının Elm və Sənaye Palatasının elm və bəşəriyyət qarşısında xidmətlərinə görə Qızıl medalı ilə təltif olunmuşdur. ABŞ-in "Albert Helson Marqus" fondu tərəfindən çap olunan "Dünyanın görkəmli adamları" ensiklopediyasının 23-cü cildində onun haqqında ətraflı yazı verilmişdir. 2010-cu ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən "Öz ölkəsini dünyada şöhrətləndirən adam" nominasiyası üzrə Qızıl medala layiq görülmüşdür. İngiltərənin Kembrc Universiteti tərəfindən böyük elmi nailiyyətlərinə görə "Leonardo Da Vinci almazı" medalı ilə təltif edilmişdir. 2013-cü ildə Kembirc Universitetinin fəxri doktoru seçilmişdir.

Akademik Məhəmməd Mehdiyev təkcə elmi nailiyyətləri ilə deyil, özünün şəxsiyyəti, şəxsi keyfiyyətləri, alim və vətəndaş ləyaqəti, humanistlik və vətənpərvər ziyalılığı ilə də böyük hörmət və nüfuz qazanmışdır.

***Əsərlərinin bir qismi***

1. Mehdiyev M.F., Bergman R.M. "Asymptotic analysis of the dynamic problem of the theory of elasticity for a transverse isotropic hollow cylinder." Journal of sound and vibration-2001. – Vol. 244, N 2. p. 177-194.

2. Мехтиев М.Ф., Сардарова Н.А.Фомина Н.И "Асимптотическое поведение решения осесимметричной задачи теории упругости для трансверсаль но полого конуса." Известия РАН.Механика твердого тела.2003. № 2. С. 61-70.

3. Mehdiyev M.F. "Asymptotic analysis of anisotropic elasticity theory proplem for finite length hollw cylinder." Trans. of NAS of Azerb, ser. of phys.- techn. & math. sci.-2003.- vol. 23, N 1. Math. & Mech.- p. 219 -228.

4. Мехтиев М.Ф., Амрахова А. Р. "Задача растяжения-сжатия для транстропной плиты переменной толщины." Изв. ВУЗ-ов Северокавказский регион Сер. Естеств. Науки.- Спецвыпуск. – 2004. – с. 72-77.

5. Mehdiyev M.F., Mollai H.H., Sharifov Y.A. "On an optimal control problem for nonlinear systems with integral conditions." Trans. of Nas.of Azerb.ser. phys. techn. and math.sci.2005. vol.XXV, N 4. Math. and Mech. p.191- 198.

6. Mehdiyev M.F. "Non-axiallysymmetrric problems of elasticity theory for transversally isotropic hollow sphere." Trans. of NAS of Azerb. ser. of phys.-techn. & math. sci.–2007.vol. 27, N1–Math. & Mech.-p.155-164.

7. Mehdiyev M.F., Məmmədov O.M. "Xətti cəbrin əsas elementləri." "Bakı Universiteti"nəşriyyatı.- 2013, 187 səh.

8. Mehdiyev M.F., Məmmədov O.M. "Kompüter mütəxəssisləri üçün universal cəbr nəzəriyyəsi." "Bakı Universiteti 2013. 390 səhifə.

9. Мехтиев М. Ф., Муталлимов Ш. М. “О соударении твердого тела с гибкой конструкцией.” Доклады НАНА, том LXX, №3 с. 29-34, 2014
10. Мехтиев М. Ф., Ахмедов Н. К., Шахвердиева Н. “Анализ осесимметричной задачи теории упругости для неоднородной трансверсально-изотропной конической оболочки.” Известие высших учебных заведений, Северо-Кавказский регион, естественные науки, №2(5-11), 2015.
11. Mehdiyev M.F., Zeynalov R. M. “Solution of boundary-value problem for cauchyriemann equation in a domain bounded with a parabola of 1-st quadrant” Esat European Scientific Journal Wschodnioeuropejskie Czasopismo Naukowe, 3 (10) 2016,p.119-122.

## 3.2. Şahbaz Musa oğlu Muradov

*İqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*



Şahbaz Musa oğlu Muradov 1940-cı il avqust ayının 10-da Azərbaycan Respublikasının dilbər güşələrindən birində - Laçın rayonunun Xumarta kəndində sadə və zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Atası Musa Murad oğlu Kazımov sadə zəhmət adamı olsa da, yaşadığı el-obasında və ondan çox-çox uzaqlarda öz insanpərvərliyi, mərdliyi və sözübütövlüyü ilə seçilən el ağsaqqalı kimi böyük nüfuz sahibi olmuşdur.

O, 1946-cı ildə öz doğma kəndi Xumartada elə həmin il yenicə açılmış ibtidai məktəbin 1-ci sinfinə daxil olmuş və 1950-ci ildə 4-cü sinfi əla qiymətlərlə bitirib, Xumarta kəndindən 6-7 km məsafədə olan Köhnəkənd 7-illik məktəbində təhsilini davam etdirmişdir. 1953-cü ildə həmin məktəbin 7-ci sinfini əla qiymətlərlə bitirib təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlib imtahansız Azərittifaqın Bakı Kooperativ Texnikumuna daxil olur. 1956-ci ildə həmin texnikumu da fərqlənmə diplomu və tərifnamə ilə bitirir.

Şahbaz Muradov Azərittifaqın İdarə Heyətinin qərarına əsasən K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda təhsil almağa göndərilir. O, qəbul imtahanı vermədən həmin ali məktəbin maliyyə-iqtisad fakultəsinə qəbul olunur. Lakin 1959-cu ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu bağlanır və onun bir hissəsi Azərbaycan Dövlət Universitetinə birləşdirildiyinə görə Ş.Muradov təhsilini həmin Universitetin İqtisadiyyat fakültəsində davam etdirməli olmuşdur. Hələ Bakı Kooperativ Texnikumunda təhsil aldığı illərdə siyasi-iqtisad elminə böyük maraq göstərən Şahbaz Muradov Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda oxuduğu zaman tələbə elmi cəmiyyətinin üzvü seçilmişdir. Azərbaycan Dövlət Universitetinin 3-cü kursunda oxuduğu illərdə isə Universitetin siyasi iqtisad kafedrasının müdiri, məhşur iqtisadçı alim, professor Həsən Dadaşovla yaxından tanış olur və onun bilavasitə rəhbərliyi və köməkliyi ilə K.Marksın “Kapital” əsərini dərindən öyrənməyə və onu mənimsəməyə nail olur. Şahbaz Muradovun siyasi iqtisad elminə böyük maraq göstərməsini müsbət qiymətləndirən prof. Həsən Dadaşov onun bu elmin sirlərinə dərindən yiyələnməsinə köməklik göstərmək məqsədilə o zaman siyasi iqtisad kafedrasının ən yaxşı siyasi iqtisad müəllimlərindən

hesab edilən Fəsli Əmikişiyevə və Həbib Şirinova Şahbaz Muradovla məşğul olmaq və hər ayın sonunda bu barədə ona məlumat vermələrini xahiş etmişdi. Eyni zamanda Şahbaz Muradovu həmin vaxt siyasi iqtisad kafedrasının nəzdində yaradılmış siyasi iqtisad dərnəyinə rəhbər təyin etmişdir. Şahbaz Muradov 1959-1961-ci illərdə həmin dərnəyə rəhbərlik etmiş, universitetin iqtisadiyyat, tarix və hüquq fakültələrində oxuyan ən yaxşı tələbələri bu dərnəyin işində fəal iştirak etməyə cəlb etmişdir.

Şahbaz Muradov 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra, elmi işə olan marağını nəzərə alan prof. Həsən Dadaşov köməklik edərək onu Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnsitutuna işə göndərmişdir. Elə 1961-ci il iyun ayının 16-dan indiyə kimi Şahbaz müəllim öz taleyini Azərbaycan Elmlər Akademiyası və onun aparıcı elmi mərkəzlərindən biri sayılan İqtisadiyyat İinstitutu ilə bağlamışdır. O, zəhmətsevərliyi ilə, pillə-pillə yüksələrək kiçik elmi işçi vəzifəsindən, elmlər doktoru, professor Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun direktoru və AMEA-nın müxbir üzvü kimi yüksək elmi dərəcə, elmi ad və vəzifələrə yiyələnmişdir.

Ş.M.Muradova SSRİ Ali Attestasiya Komissiyası tərəfindən 1965-ci ildə iqtisad elmləri namizədi, 1972-ci ildə iqtisad elmləri doktoru elmi dərəcələri və 1977-ci ildə isə professor elmi adı verilmişdir. 2001-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. O, keçmiş SSRİ məkanında iqtisad elmi sahəsində ən gənc yaşında doktorluq dissertasiyası müdafiə etmiş 3-4 nəfərdən, Azərbaycanda iqtisad elmləri doktoru alimlik dərəcəsi almış ilk

10-12 nəfərdən biri olan və gənc ikən öz elmi məktəbini yaratmış alimlər nəslinə mənsub olan iqtisadçı alimdir. Onun rəhbərliyi altında 100-dən çox namizədlik və doktorluq dissertasiyası müdafiə edilmişdir. O, Azərbaycanda və xarici dövlətlərdə yaşayan 45 nəfərdən çox namizədlik, doktorluq dissertasiyası işlərinə rəsmi opponentlik etmiş, monoqrafiya, kitab və dərsliklərin elmi redaktoru və rəyçisi olmuşdur.

O, 2000-ci ildə, Azərbaycan EA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən doktorluq və namizədlik Dissertasiya Şurasının sədri olmuş və həmin şurada 2000-2008-ci illərdə 125 nəfər namizədlik və 13 nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda Ş.M.Muradov 5 nəfər fəlsəfə doktorluğu və 5 nəfər də elmlər doktorluğu dissertasiyası üzrə işləyən doktorantlara rəhbərlik edir.

Onun apardığı tədqiqat işlərinin nəticələri 2000 çap vərəqi həcmindən çox və 700-dən artıq nəşr edilmiş monoqrafiya, kitab, dərslik və jurnal məqalələrində öz əksini tapmışdır. O cümlədən, bu əsərlərin 30-u iri həcmli monoqrafiya, kitab və dərs vəsaitlərindən ibarətdir. Prof. Ş.M.Muradovun 60-dan çox əsəri xarici ölkələrdə, o cümlədən ABŞ-da, Rusiyada, Ukraynada, Belorusiyada, Gürcüstanda, Baltikyanı ölkələrdə və Orta Asiya Respublikalarında çap edilmişdir. Onların bəziləri ingilis dilində çap edilib dünyanın bir çox ölkələrinə yayılmışdır. Prof. Ş.M.Muradov xarici ölkələrin görkəmli iqtisadçı, demoqraf və sosioloq alimləri ilə birlikdə yazılmış və 1971-2001-ci illərdə Moskva şəhərində nəşr edilmiş 15-dən artıq fundamental tədqiqat əsərinin müəlliflərindən biridir. Bunlardan "Воспроизводство рабочей силы и повышение эффективности исполь-зования трудовых ресурсов". М., МГУ, 1971, 279 с,; "Население союзных республик",

М.Статистика, 1977, 326 с,; "Особенности миграции население в союзных республиках", М.Статистика, 1978, 215 с; "Проблемы народонасселения и демографическая политика социалистического общества", М., Наука, 1986, 192 с.; "Региональные особенности вопроизводства и миграции населения СССР". М., Наука, 1981, 267с,; "Социально-демографическое разитие трудообепеченных районов СССР". М., Наука, 1989, 205 с,; "Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия, механизмы". М., Наука, 2001, 647 с. göstərmək olar. Bunlarla yanaşı prof. Ş.M.Muradov Moskva şəhərində SSRİ EA tərəfindən hazırlanmış ETT-nin Kompleks Proqramının yekun sənədinin və proqramın nəticələri üzrə 1979, 1983 və 1987-ci illərdə çap olunmuş 50.0 ç.v. həcmində üç cildliyin müəlliflərindəndir.

Professor Ş.M.Muradovun apardığı tədqiqatlarların səciyyəvi cəhəti ondan ibarətdir ki, onların hamısı real həqiqətləri özündə əks etdirən konkret faktlara, geniş statistik bazaya söykənir, nəzəri dərinliyi və kifayət qədər elmi cəhətdən əsaslandırılmış olması ilə fərqlənir. Onun tədqiqat obyektini Azərbaycanın yaxın və uzaq gələcəkdə sosial-iqtisadi inkişaf strategiyası və taktikasının müəyyənləşdirilməsi və proqnozlaşdırılması ilə bilavasitə bağlı olan demoqrafiya və əhali sakinliyinin inkişafı, iş qüvvəsinin təkrar istehsalı, əmək ehtiyatlarından istifadə edilməsi, insan potensialı, məşğulluq, işsizlik və məşğulluq sahəsində gender problemləri təşkil edir. Professor Ş.M.Muradov dəyərli əsərləri ilə respublikada və MDB məkanında iqtisad elminin zənginləşməsinə sanballı töhvələr vermişdir. Belə ki, keçmiş SSRİ-də və o cümlədən də Azərbaycan Respublikasında qadın əməyindən istifadənin

sosial-iqtisadi və demoqrafik aspektlərinin kompleks şəkildə tədqiqi prof. Ş.M.Muradovun adı ilə bağlıdır. O, keçmiş SSRİ məkanında ilk dəfə olaraq qadın məşğulluq sahəsində gender problemlərinin tədqiqi ilə məşğul olan görkəmli demoqraf alim kimi tanınmışdır. Onun sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilən "Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri" adlı monoqrafiyası 1974-cü ildə "Elm" nəşriyyatında çap olunmuşdu. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 dekabr 1998-ci il və 23 iyun 2003-cü il tarixli sərəncamları ilə ilk dəfə olaraq Azərbaycan Respublikasında işlənib hazırlanmış "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası" (1999-cu il) və "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" (2004-2008-ci illər) bilavasitə prof. Ş.M.Muradovun elmi rəhbərliyi və şəxsi iştirakı ilə yerinə yetirilmişdir. Onun rəhbərliyi və şəxsi iştirakı ilə aparılan tədqiqatlar müsbət qiymətləndirməklə yanaşı, SSRİ-nin və Azərbaycan SSR-nin sosial-iqtisadi inkişafının əsas istiqamətlərində istifadə olunmuşdur.

Prof.Ş.M.Muradovun rəhbərliyi, iştirakı və həm də ittifaq miqyasında SSRİ EA-nın bir sıra institutlarının alimləri ilə birlikdə yerinə yetirdiyi elmi-tədqiqat işlərinin yüksək elmi nəticələrinə görə, prof. Ş.M.Muradovun tədqiqatlarına yüksək qiymət verilərək, dəfələrlə Azərbaycan EA-nın prezidentinə və Azərbaycan EA İqtisadiyyat İnstitutunun rəhbərliyi adına təbrik və təşəkkür məktubları daxil olmuşdur. Eyni zamanda onun bir sıra çap olunmuş əsərlərinə respublikanın nüfuzlu mətbuat orqanlarında və elmi jurnallarında müsbət rəylər dərc olunmuşdur. Göstərilən bu əsərlər "Azərbaycan SSR kənd

təsərrüfatında qadın əməyi və ondan səmərəli istifadə edilməsi məsələləri" (Bakı, Elm, 1969); "Azərbaycan SSR-də qadın əmək ehtiyyatlarından istifadənin sosial-iqtisadi problemləri" (Bakı, Elm, 1974); "Müasir mərhələdə demoqrafiya siyasəti" (Bakı, Elm, 1986); "İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər" (Bakı, Elm, 2004) və b.barəsində rəylər yazılmışdır.

Prof. Ş.M.Muradovun elmi yaradıcılığında xüsusi yer tutan və ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər" (Bakı, Elm, 2004, 656 s) fundamental tədqiqat əsəri xüsusi yer tutur. Bu kitabı ümumi şəkildə XXI əsrin başlanğıcında Azərbaycanda iqtisad elminin inkişaf səviyyəsini və yeni iqtisadi təfəkkürə keçidi xarakterizə edən monumental tədqiqat əsəri kimi qiymətləndirmək olar. Əsər 106 ildən artıq bir dövrü (1897-2003-cü illər) əhatə edən, Azərbaycanda insan potensialının formalaşması, inkişafı və bir çox mühüm nəzəri-metodoloji, sosial-iqtisadi, etno-demoqrafik və regional problemlərinin öyrənilməsinə həsr edilmişdir.

Bunlarla yanaşı, Prof. Ş.M.Muradov Azərbaycan Respublikası Ali Sovetinin və Milli Məclisinin daimi komissiyalarının işində də həmişə fəal iştirak etmişdir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ilk dəfə olaraq onun təşəbbüsü və rəhbərliyi ilə 1994-cü ildə respublika miqyasında "Bazar iqtisadiyyatında keçidin aktual problemləri: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər" mövzusunda elmi ictimaiyyətin böyük marağına səbəb olmuş, elmi-nəzəri konfrans keçirilmiş və onun nəticələri tövsiyələr şəklində nəşr edilərək Azərbaycanın bütün dövlət və hökümət orqanlarına, elm və təhsil müəssisələrinə göndərilmişdi.

Professor Ş.M.Muradov uzun illər ərzində Azərbaycan KP MK-nın ştatdan kənar mühaziräçisi, Azərbaycan EA Partiya və Komsomol komitələrinin üzvü, işlədiyi institutda Komsomol Təşkilatının katibi, Partiya Bürosunun üzvü və Xalq Nəzarəti Qrupunun sədri və s. kimi ictimai vəzifələrdə çalışaraq Akademiyanın və Respublikanın ictimai həyatında fəal iştirak etmişdir.

Professor Ş.M.Muradov 1995-ci ildən 1998-ci ilədək Azərbaycan Respublikası Ali Sovetinə Seçkilər üzrə Mərkəzi Seçki Komissiyasının üzvü olmuş, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi və ilk demoqratik parlament seçkilərinin keçirilməsində fəal iştirak etmişdir. 1995-1998-ci illərdə AzTv-də "Konstitusiya və biz" rubrikası altında "İnam" verilişinin aparıcısı olmaqla müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının öyrədilməsi və təbliğ işində vətənpərvərlik nümunəsi göstərmişdir. O, 1998 və 2003-cü illərdə keçirilmiş prezident seçkilərində öz təşəbbüsü ilə fəal iştirak edərək, Heydər Əliyevin və İlham Əliyevin təbliğatçısı olmuşdur.

Professor Ş.M.Muradovun əsl elmi təşkilatçılıq qabiliyyəti onun İqtisadiyyat İnstitutuna rəhbərlik etməyə başladığı 1999-cu ilin ilk günlərindən özünü biruzə verməyə başlamışdır. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə institutun elmi istiqaməti, strukturu və kadr potensialının tərkibi formalaşmaqda olan yeni ictimai quruluşun qanunları və tələbləri baxımından köklü surətdə yenidən dəyişdirilib təkmilləşdirilmiş və ilk dəfə olaraq yeni istiqamətli sektorlar və şöbələr yaradılmışdı. Azərbaycan EA İqtisadiyyat İnstitutunun tarixində ilk dəfə olaraq prof. Ş.M.Muradovun rəhbərliyi və iştirakı ilə yazılmış "Azərbaycan iqtisadiyyatının dünəni və bu günü" adlı

tədqiqat əsərinin əlyazması, Beynəlxalq İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin 2000-ci ildə keçirdiyi müsabiqədə I dərəcəli mükafata layiq götürülmüşdür.

Prof. Ş.M.Muradovun elmi-ictimai fəaliyyəti çoxtərəfli və rəngarəngdir. O, Azərbaycan Respublikasının Prezidenti mərhum Heydər Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Respublikasında demoqrafik inkişaf konsepsiyanın hazırlanması üzrə Dövlət Komissiyasının və Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının hazırlanması üzrə Əlaqələndirmə Komissiyasının üzvü seçilmişdir. Prof. Ş.M.Muradov uzun illər ərzində Azərbaycan EA İqtisadiyyat İnstitutunda, Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda (indiki ADİU), Azərbaycan Dövlət Universitetində (indiki BDU) və Özbəkistan SSR EA-nın İqtisadiyyat İnstitutlarında fəaliyyət göstərmiş iqtisadiyyat üzrə doktorluq və namizədlik dissertasiyası şuralarının, habelə 1971-ci ildən 1991-ci ilədək keçmiş SSRİ EA-nın "Əhali sakinliyinin sosial-iqtisadi problemləri" və "Demoqrafiya və əmək ehtiyyatları" Prob-lem Elmi Sovetlərinin üzvü, SSRİ və Azərbaycan EA-nın Rəyasət Heyətləri nəzdində fəaliyyət göstərmiş "Əhali, əmək ehtiyatları və əmək şəraiti" üzrə elmi-texniki tərəqqinin və sosial-iqtisadi inkişafın proqnozlaşdırılması komissiyalarının üzvü və sədri, Azərbaycan EA ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Soaial Müdafiəsi Nazirliyinin Birləşmiş Elmi Şurası sədrinin müavini, habelə bir sıra İxtisaslaşdırılmış Müdafiə Şuralarının üzvü və sədri olaraq yüksək ixtisaslı kadrların hazırlanması sahəsində gərgin işlər aparmaqla elmi ictimaiyyət arasında böyük nüfuz qazanmışdır.

Prof. Ş.M.Muradov onlarca beynəlxalq elmi konfranslarda, simpozium, konqres və seminarlarda Azərbaycan iqtisad elmini layiqincə təmsil etmiş, respublikanın Mərkəzi Komitəsində, Nazirlər Kabinetində keçirilmiş iclaslarda, AMEA Rəyasət Heyətində, BDU-da, ADİU-də keçirilmiş tədbirlərdə iqtisad elminin aktual problemlərinə dair məruzələr etmişdir. Prof. Ş.M.Muradov 2004-2014-cü illərdə AMEA-nın nəzdindəki RETTƏŞ-nın İqtisadiyyat üzrə Problem Şurasının sədri olmuşdur.

Naxçıvan Ensiklopediyası Elmi Redaksiya Heyətinin üzvü, 1995-1998-ci illərdə isə AR Mərkəzi Seçki Komissiyasının üzvü olmuşdur. O, hazırda Azərbaycan Milli Ensiklopediyasının Redaksiya Heyətinin, YUNESKO-nun Azərbaycan Respublikasında "Bioetika elmi bilikləri və texnologiyaları" Komitəsinin, AMEA Humanitar və İctimai Elmlər Bölməsinin Elmi Şurasının, AMEA-nın nəzdindəki İqtisadiyyat üzrə Problem Şurasının, AMEA İqtisadiyyat İnstitutunun Dissertasiya Şurası və İnstitutun Elmi Şurasının və Elmi əsərlərin Redaksiya Şurasının üzvü, həmçinin AMEA-nın Xəbərləri "İqtisadiyyat seriyası" jurnalının baş redaktorudur. Professor Ş.M.Muradov 50 ildən artıqdır ki, elmi yaradıcılıqla yanaşı, həm də respublikamızın bir sıra ali təhsil müəssisələrində "Siyasi iqtisad", "İqtisadi nəzəriyyə", "Demoqrafiya", "Əməyin iqtisadiyyatı və sosiologiyası" fənlərindən tələbələrə dərs demək və magistrlərə rəhbərlik etməklə, ali təhsil sahəsində kadr hazırlanması işinə də öz köməkliyini göstərmişdir.

Prof. Ş.M.Muradovun xidmətləri dövlət və hökümət tərəfindən yüksək qiymətləndirilmişdir. O, keçmiş Sov. İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİŞ və ÜLKİ MK, SSRİ Nazirlər Soveti, ÜİHİŞ və ÜLKİ MK-nın, Azərbaycan LKKİ-nin fəxri

fərmanları, V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr edilmiş "Fədakar əməyə görə" Yubiley medalı, "Əmək veteranı" medalı, AMEA-nın Fəxri Fərmanları və Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 14 fevral 2004-cü il tarixli sərəncamı ilə "Şöhrət" ordeni, 03 noyabr 2015-ci il tarixli sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adı, 08 avqust 2020-ci il tarixli sərəncamı ilə isə Azərbaycan Respublikasında elmin inkişafındakı uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu" ilə təltif olunmuşdur.

Üç övladı vardır.

## 3.3. Zakir Fərəc oğlu Fərəcov

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*



Elə insan yoxdur ki, həyatının müəyyən mərhələlərində bir anlıq da olsa, geri boylanıb keçdiyi ömür yoluna nəzər salıb, götür-qoy etməsin. Xalqı üçün nə etdiyini düşünməsin. Amma bir çox insanlar da var ki, dönüb geri baxa bilmirlər, keçdiyi həyat yolundan daim şikayətçi olurlar. Yola saldığı illərdə ciddi uğurlara imza ata bilməmələrindən gileylənirlər. Maraqlısı budur ki, çox zaman belə insanlar günahı özlərində deyil, zamanda, taledə axtarmağa çalışırlar. Əslində belə insanlar özlərini taleyin ümidinə buraxanlar və yaxud zəhmətə qatlaşmaq istəməyənlərdir. Ancaq işinə, peşəsinə və dövlətinə

bağlı olan insanlar həyatının hansı mərtəbəsindən baxırlarsa baxsınlar, geridə kifayət qədər uğurlar, nailiyyətlər olduğunu görə bilirlər. Əslində belələrini də iki yerə ayırmaq olar. Biri tək özü üçün çalışanlar, ikincisi isə həm özü, həm də cəmiyyət üçün çalışanlardır. Bax, bu ikinci yerə aid olanlar özlərini daha xoşbəxt hiss edə bilirlər. Çünki kamil insan eli-obası, ölkəsi, xalqı, dövləti üçün yaşayır, öz çiyinlərini daim böyük yüklərin altına verə bilir. Yaşadığımız cəmiyyətin ehtiyacı olduğu belə fədakar insanlardan, dövlət xadimlərindən və ölkə Prezidentinə sədaqəti ilə seçilənlərdən biri - fəaliyyəti ilə Laçın torpağına baş ucalığı gətirən, ziyalığı və dövlətə sədaqəti ilə seçilən Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəc oğlu Fərəcovdur.

Zakir Fərəc oğlu Fərəcov 1954-cü ildə fevral ayının 3-də Laçın rayonunun Qazıdərə kəndində anadan olmuşdur. 1961–1971-ci illərdə orta ümumtəhsil məktəbində təhsil almışdır.

Əmək fəaliyyətini 1971-ci ildə Sumqayıt Superfosfat zavodunda fəhlə kimi başlamışdır. 1971-ci ilin yanvar ayında Sumqayıt şəhəri Mənzil Kommunal Təsərrüfatı İstehsalat birliyində texnik kimi işə başlamışdır.

1972-ci ilin noyabr ayından 1974-cü ilin noyabr ayınadək Murmansk vilayətinin Severomorsk şəhərində keçmiş Sovet Ordusunda həqiqi hərbi xitmətdə olmuşdur. 1975-ci ildə D. Bünyadzadə adına Xalq Təsərrufatı İnstitutunun "Sənaye İqtisadiyyatı" fakültəsinin axşam şöbəsinə daxil olmuş, 1980-ci ildə həmin institutu bitirmişdir. 1978-ci ildə Sumqayıt şəhəri Mənzil Kommunal Təsərrüfatı Birliyində şöbə rəisi, 1981-ci ildə baş direktorun müavini, 1988-ci ildə Mənzil Kommunal İstehsalat birliyinə baş direktor təyin olunmuşdur.

23 dekabr 1999-cu ildə keçirilən bələdiyyə seçkilərində iştirak etmiş və Sumqayıt bələdiyyəsinin üzvü seçilmişdir. 2000-ci ildə bələdiyyənin keçirilən iclasında sədr seçilmişdir.

Zakir Fərəcov 2005–2015-ci illərdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmışdır. 2 sentyabr 2015-ci il tarixdən isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı vızifısinə təyin olunmuşdur. Zakir Fərəcov çalışdığı bütün sahələrdə yaradıcı fəaliyyəti, vətənpərvərliyi, xeyirxahlığı, ən əsası Ulu öndər siyasətinə sədaqəti, Ölkə Prezidenti İlham Əliyev cənablarının sərəncam və tapşırıqlarını layiqincə yerinə yetirməsi ilə seçilmişdir. Zakir müəllimin yalnız Sumqayıt şəhər İcra hakimiyyəti başçısı işlədiyi dövr ərzində gördüyü işləri sadaladıqca onun vətənsevərliyinin, qurucu, təşkilatçı rəhbər olduğunun, dövlətə və dövlət başçısına sədaqətli olmasını bir daha əməli işində görmüş olarıq.

Cənab Prezident İlham Əliyev 27 sentyabr 2016-cı il tarixdə Sumqayıtda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı səsləndirmişdi ki, Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq. Sumqayıt bulvarı cəmi bir il ərzində, bəlkə də ondan da az bir vaxtda yaradılıb. Bu, onu göstərir ki, biz Azərbaycanda istənilən işi görə bilərik. Sumqayıt sovet vaxtında kimya

sənayesi mərkəzi idi. Kimin ağlına gələ bilərdi ki, Sumqayıt belə gözəl, ekoloji cəhətdən təmiz şəhərə çevriləcək. Mən çox şadam ki, bizim siyasətimizdə qarşıya qoyulan vəzifələr icra edilir. Mən dövlət işində işləyənləri məcbur edirəm ki, bu işləri görsünlər. Ancaq Sumqayıtda siz özünüz təşəbbüslər göstərirsiniz. Özünüz istəyirsiniz ki, Sumqayıt daha da gözəl şəhərə çevrilsin, daha da abadlaşsın".

Bu fikirlər həm də onu göstərir ki, Ulu öndərin Sumqayıtla bağlı ən böyük arzularından biri, son 10 ildə həyata keçirilmişdi. Sumqayıt bulvarı gerçəkləşən möcüzə olmuşdu. Bulvarın sahəsi genişləndirilərək uzunluğu 5,2 kilometrə, ərazisi isə təqribən 146 hektara çatdırılmışdı. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınmış, müasir işıqlandırma sistemi qurulmuş, park boyu 1 kilometr uzunluğunda yeni yol inşa olunmuşdu. Kompleksin yeni salınan hissəsində əhalinin istirahəti üçün yüksək şərait yaradılmışdı. Prezidenti İlham Əliyev noyabrın 21-də şəhərin 70 illik yubileyi günündə, Sumqayıt Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olmuşdu. Bununla yanaşı şəhərin mərkəzində mövcud olan əsas parklardan biri - Heydər Əliyev parkı tamamilə yenidən qurulmuş, parkın ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilmişdi. Burada 200-dən çox müasir işıq dirəkləri, oturacaqlar quraşdırılmış, 5 mindən çox ağac, dekorativ kol əkilmiş, 20 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınmış, 30 min kvadratmetr daş döşənmiş, həmçinin rəngli fontan kompleksi və Bayraq meydanı tikilmişdir. Ümumilikdə Zakir müəllimin fəaliyyəti sayəsində Sumqayıt parklar şəhərinə çevrilmişdi. İnsanların rahat istirahəti üçün şərait daha da yaxşılaşdırılmışdı.

Sumqayıtda tikilən yeni bina və mərkəzlər də şəhərə gözəllik gətirmişdir. Belə ki, müasir və çoxfunksiyalı Heydər Əliyev Mərkəzi tikilərək, qısa müddətdə şəhər sakinlərinin ixtiyarına verilmişdi. Üç mərtəbədən və mansardan ibarət olan binanın ümumi sahəsi 5 min kvadratmetrdir. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 420 yerlik böyük konfrans zalı, kompyuter və digər ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar var. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan mərkəzdə sərgi zalı, xalçaçılıq dərnəyi, 40 nəfərlik iclas zalı, smart sinif, rəsm və foto studiyaları, elektron kitabxana, kompyuter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərir. Onu da qeyd edək ki, mərkəzdə yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir.

Müasir şəhər üçün müasir incəsənət məktəbinin olmasını nəzərə alan şəhər rəhbərliyinin sayəsində, üçmərtəbəli binadan ibarət Uşaq İncəsənət Məktəbi tikilərək şəhər sakinlərinin ixtiyarına verilmişdi. 80 otaqdan ibarət məktəb yeni avadanlıqla təmin olunmuşdu. Hazırda Uşaq İncəsənət Məktəbində 200-dən çox müəllim tədrislə məşğul olur. Məktəbdə ümumilikdə 800-dək şagird təhsil alır. Sumqayıt şahmat məktəbinin yetirmələri bu gün dünya miqyasında uğurları ilə tanınır. Şahmat sahəsində olan uğurları nəzərə alaraq, Zakir müəllim deyib ki, şahmat məktəbinin baxımsız və yararsız bir məkanda yerləşməsi heç də yaxşı hal deyil. Müasir şahmat məktəbinə ehtiyac var. Qısa müddət ərzində rəhbərliyi sayəsində şəhərin Heydər Əliyev Parkı ərazisində ikimərtəbəli Şahmat Məktəbi tikilərək istifadəyə verilmişdi. Məktəb müasir avadanlıqla təmin olunmuşdu. Hazırda məktəbdə 25 qrupda,

ümumilikdə 550-600 şagird idmanın qədim növü olan şahmatın sirlərini öyrənirlər.

Cənab Prezident İlham Əliyevin tapşırığı və Z.Fərəcovun rəhbərliyi ilə 1986-cı ildə istifadəyə verilmiş “Kimyaçı” Mədəniyyət Sarayının qısa müddətdə təmir olunması işi yüksək keyfiyyət və müasir dizaynla yerinə yetirilmişdi. Saraydakı 750 tamaşaçı yerlik konsert zalı, yüksək səviyyədə qurulmuş və mədəniyyətsevərlərin ixtiyarına verilmişdir. 1950-ci illərdə istifadəyə verilmiş Sumqayıt teatrının binası uzun müddət təmirsiz qalmışdı.

Sumqayıtda həyata keçirilən əsaslı layihələrdən biri də teatrın binasının müasir üslubda təmir olunması olmuşdu. Binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurularaq, 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olunmuşdu. Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilmişdi. Binanın müasir üslubda yenidən qurulması, sakinlərin teatra marağının artmasına və şəhərin mədəni həyatının daha da canlanmasına təkan vermişdi.

Görülən işlərin davamı olaraq, 2017-ci ilin fevralında Sumqayıt Bulvarı ərazisində Bayraq Muzeyinin inşasına başlanılmış və sentyabr ayında tikinti işləri başa çatmışdı. Ümumi ərazisi 10 min kvadratmetr olan muzeyin üçmərtəbəli binasında iki sərgi zalı, inzibati və yardımçı otaqları yaradılmışdı. Bayraq Muzeyinin Sumqayıt Bulvarında inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buradakı eksponatlarla tanış olmalarına imkan yaradır. Eyni zamanda Sumqayıt şəhərində son illərdə yadda qalan hadisələrdən biri də Sumqayıtda Muğam Mərkəzinin tikilərək istifadəyə verilməsi olmuşdu. 2019-cu il noyabrın 21-də, Prezident İlham Əliyev

Sumqayıtın 70 illik yubileyi günündə Mərkəzin açılışında iştirak etmişdi. Muğam Mərkəzi Sumqayıt bulvarında yerləşir və ikimərtəbəlidir. Burada konfrans zalı, qrim, məşq, rejissor otaqları yaradılıb. Sinif otaqlarının hamısı zəruri avadanlıqla təchiz edilibdir. Tamaşaçı tutumu 400 nəfər olan konsert zalında müxtəlif mədəni tədbirlərin, o cümlədən muğam gecələrinin keçirilməsi üçün hər cür şərait yaradılıbdır.

Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov daima Sumqayıtın ədəbi-mədəni və yaradıcı mühitinin inkişafını diqqətdən kənarda qoymamışdır. O gənclərlə görüşü zamanı Sumqayıt şəhərində müasir kino-teatrın olmasının vacibliyini dilə gətirmişdi. Qısa müddət ərzində şəhərdə müasir tələblərə cavab verən kinoteatrın istifadəyə veriləcəyini bildirmişdir. Ona görə ki, 1960-cı illərdə inşa olunan "Nizami" kinoteatrının binasında heç bir təmir işləri aparılmamışdı. Z.Fərəcovun rəhbərliyi ilə qısa müddətdə "Nizami" kino-teatrının köhnə binası sökülərək yerində müasir tələblərə cavab verən kinoteatr tikilmiş, binanın ərazisi abadlaşdırılmış və ətrafda istirahət parkı salınmışdı. 2019-cu il noyabrın 21-də istifadəyə verilən "Nizami" kinoteatrının yeni binasının açılışında Cənab Prezident İlham Əliyev də iştirak etmişdi. Qeyd etmək olar ki, "Nizami" kinoteatrının yeni binasının istifadəyə verilməsi Sumqayıtın mədəni həyatında mühüm hadisə olmuşdu. Sumqayıtda Zakir Fərəcovun gördüyü çoxsaylı işlərin sırasına inşa edilən möhtəşəm stadionu da daxil etmək olar. Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş və iki-üç min azarkeş üçün hesablanan Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu müasir tələblərə cavab vermirdi. Bunu nəzərə alan cənab Prezident Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə vəsait ayırmışdı. Sumqayıt şəhər

stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamına əsasən 2020-ci ildə başlanıldı. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırıldı. Yenidənqurmadan sonra stadionda tamaşaçı tutumu 9502 nəfərə çatdırıldı. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılmış, ərazi abadlaşdırılmış, yaşıllıq zonaları salınmışdır. 2023-cü ilin 23 oktyabrında Prezident İlham Əliyev M. Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yara-dılan şəraitlə tanış olmuşdur.

Son illərdə Sumqayıt şəhərində çoxlu sosial təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilmişdi. Bu sırada inzibati binalar da xüsusi əhəmiyyət kəsb edir. Son illərdə açılışı olan məkanlardan biri də Yeni Azərbaycan Partiyası, Sumqayıt şəhər təşkilatının 2017-ci ildə inşa olunan müasir inzibati binasıdır. Prezident İlham Əliyev 15 dekabr 2017-ci il tarixdə binanı istifadəyə vermişdi. Yeni Azərbaycan Partiyasının yeni inzibati binası Sumqayıt şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynaması, bu gün də Sumqayıt sakinləri tərəfindən minnətdarlıq hissi ilə dəyərləndirilir.

Sumqayıt şəhər 2 saylı xəstəxanası, uzun illər istismar olunduğuna görə əhaliyə keyfiyyətli tibbi xidmət göstərə bilmirdi. Xəstəxananın yararsız vəziyyətdə olması bu müəssisəsinin yenidən qurulmasını zəruri edirdi. Şəhər rəhbərliyinin təşəbbüsünü və xahişini nəzərə alaraq cənab Prezident İlham Əliyev 2 saylı Sumqayıt şəhər xəstəxanasının yenidən tikilməsi və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi haqqında Sərəncam imzalamışdı. Tezliklə xəstəxana binası əhalinin istifadəsi üçün hazır olmuşdur. Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 23-də Xəstəxananın yeni binasının açılışını

etmişdi. 150 çarpayılıq xəstəxana - poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən ibarət yeni tipli xəstəxana Sumqayıtlıların istifadəsinə verilmişdi.

Sumqayıt şəhərində eyni zamanda Zakir müəllimin rəhbərliyi altında milli-mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində də mühüm işlər görülür. Belə ki, Sumqayıt və ətraf qəsəbələrdə mövcud məscidlərdə dini ayinlərin icra olunması, insanların rahat ibadət etmələri üçün hər cür şərait yaradılmışdır. Məscidlərdə təmir işləri aparılmışdır. Təmir edilərək Coratın ən qədim dini ibadədgahlarından biri olan “Cümə” məscidi, yenidən öz qapılarını sakinlərin üzünə açmışdı. Burada eyni anda 500 müsəlman ibadət edə bilər.

Sumqayıtda son illər geniş vüsət almış abadlıq və quruculuq işləri sırasında 2021-ci ildə əsaslı şəkildə təmir olunmuş şəhər Şəhidlər xiyabanını da göstərə bilərik. Burada kompleks yenidənqurma işləri aparılmış, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılmışdı. Xiyabanında “Qalib Əsgər” abidəsi ucaldılmış, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılmış və Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə “Zəfər ağacı” abidəsi ucaldılmışdı. Şəhidlər Xiyabanında Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 144 şəxs haqqında məlumatların əks olunduğu abidə yenilənmişdi. 2022-ci il iyulun 20-də isə Prezident İlham Əliyev Sumqayıt Şəhidlər Xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdu.

Sumqayıt şəhər rəhbərliyi, şəhid ailələrini və qaziləri daim diqqət mərkəzində saxlayır. Bu məqsədlə Zakir

Fərəcovun sərəncamı ilə yaradılmış Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Əlaqələndirmə Mərkəzi, onların sosial təminatı və yaşayış imkanlarının yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər görür. Belə ki, şəhərin küçələrindən birinə Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun və ümumilikdə şəhər ərazisində 100-ə yaxın küçəyə şəhidlərimizin adı verilmişdi.

Yarım milyona qədər əhalisi olan Sumqayıt şəhəri üçün vacib olan müasir nəqliyyat infrastrukturu yaradılmış, bu sahədə idarəetmə təkmilləşdirilmiş, sərnişin daşınması işinin rahatlığını təmin etmək məqsədilə Türkiyə istehsalı olan, 200-dən çox müasir tələblərə cavab verən avtobuslar şəhərə gətirilərək marşrut xətlərinə buraxılmışdı. Ölkə rəhbəri Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində əhaliyə göstərilən nəqliyyat xidməti yaxşılaşdırılmış, əhalinin binalarda liftdən təhlükəsiz istifadə etməsinin təmin olunması məqsədilə, istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz olunmuş və son illərdə şəhərin mənzil fonduna aid olan 1200-dən artıq çoxmənzilli yaşayış binalarına dam örtüyü vurulmuşdur. Bu istiqamətdə işlər hazırda da davam etdirilir.

Ən əsası diqqəti cəlb edən məsələlərdən biri, Sumqayıt şəhərinin qurucularının Zakir müəllim tərəfindən diqqət mərkəzində saxlanılmasıdır. Belə ki, 76 yaşlı şəhərin qurulmasında əməyi olan hər kəs hörmət və ehtiramla yad edilmiş, xatirəsi əbədiləşdirilmiş, yaşadıqları binalara xatirə lövhələri vurulmuş və bir neçə küçəyə şəhərin qurucularının adı verilmişdi. 2019-cu ildə Sumqayıtın 70 illik yubileyi və 2024-cü ildə isə 75 illiyi təntənəli şəkildə qeyd olunmuşdu. Ölkə Prezidenti cənab İlham Əliyev Sumqayıtın 70 illik yubileyinin ölkəmizdə geniş qeyd edilməsi haqqında Sərəncam imzala-

mışdı. Respublikamızda hər hansı bir şəhərin yubileyinin ölkə miqyasında və ilboyu keçirilməsi barədə belə sərəncamların verilməsi nadir hadisədir. Bu, Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında Zakir Fərəcovun rəhbərliyi ilə Sumqayıtın xüsusi rol oynadığını bir daha göstərir. Fərəhləndirici haldır ki, cənab Prezident İlham Əliyev 2019-cu ildə, Sumqayıtın şəhər statusu aldığı - 21 noyabr günündə şəhərdə bir neçə açılışlar etmişdi. Və Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edərək, şəhərin sosial və iqtisadi inkişafında xidmətləri olan şəxsləri də təltif etmişdi.

Göründüyü kimi bütün bu sadalananlar yalnız Sumqayıt şəhərinin sosial, iqtisadi və mədəni inkişafında Zakir Fərəcovun göstərdiyi xidmətlərdir. O, dövlət məmuru olaraq çalışdığı bütün sahələrdə Ulu öndər siyasətinə sədaqəti və ölkə prezidenti cənab İlham Əliyevin tapşırıqlarını yerinə yetirməsi ilə fərqlənmişdi. Bu gün də belədir.

Dövlətimiz və onun Prezidenti cənab İlham Əliyev Zakir Fərəc oğlu Fərəcovun fəaliyyətini layiqincə qiymətləndirmişdir. O, Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2012-ci il tarixli 2625 saylı Sərəncamı ilə Abşeron rayonunun yaradılmasının 50 illiyi münasibəti və rayonun sosial-iqtisadi inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə, Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2016-cı il tarixili Sərəncamı ilə Sumqayıt şəhərinin sosial və iqtisadi inkişafındakı xidmətlərinə görə 2-ci dərəcə-li "Vətənə xidmətə görə" ordeni ilə və Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2024-cü il tarixili Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur. Bunlarla yanaşı, Türkiyə Cümhuriyyətinin Ankara

şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən anadan olmasının 70 illiyi, eyni zamanda Türk Dünyası Dövlətçiliyinə və Mədəniyyətinə göstərdiyi böyük xidmətlərə görə “İlin Ziyalısı" Fəxri adına layiq görülmüş və "Avropa Şərəf Ordeni" ilə təltif edilmişdir.

Zakir müəllimə bu gün də Sumqayıt şəhərinin abadlaşması, gözəlləşməsi, şəhər sakinlərinin istirahətinin təşkili, sosial, iqtisadi və mədəni inkişafı naminə yorulmadan çalışır. O, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarını ləyaqətlə yerinə yetirir.

Onun rəhbərliyi altında Sumqayıtda görülən işlərə, uzun ilər ərzində təsadüf edilməmişdir. Əgər bu gün Sumqayıtın giriş qapısından şəhərə kim daxil olursa, elə ilk andan onda xoş bir təssürat yaranır. Sumqayıtın Azərbaycanın ən gözəl şəhəri olması yəqinliyi hakim kəsilir.

Biz də qurub – yaradan, dövlətə sədaqətlə xidmət edən və xeyirxahlığı ilə seçilən İcra Başçısı kimi tanınan Zakir müəllim Fərəcova şərəfli fəaliyyətində uğurlar arzu edirik.

# 3.4. Muradxan Mahmud oğlu Cabbarov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*
*“Şərəf nişanı” və “Xalqlar dostluğu” ordenli*



***Muradxan müəllim təbiətən ağır, sanballı, müdirik adam, ağsaqqal, bacarıqlı, təşkilatçı və əsl vətən oğlu idi.***
***Ziyad Səmədzadə, Akademik***

Muradxan Mahmud oğlu Cabbarov 1926-cı il may ayının 5-də Laçın rayonunun Kərəviz kəndində anadan olmuşdur. 1944-cü ildə Laçın şəhər orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1944-1950-ci illərdə M.Cabbarov ordu sıralarında xidmət etmişdir. Əsgəri xidmətini başa vurduqdan sonra doğma Laçına qayıdır. Biliyi, bacarığı və yüksək təşkilatçılığı ilə seçilən M.Cabbarov tezliklə Azərbaycan LKGİ Laçın Rayon

Komitəsində işə dəvət olunur. 1955-1959-cu illərdə Azərbaycan LKGİ Laçın Rayon Komitəsinin şöbə müdiri, daha sonra ikinci katibi və birinci katibi vəzifələrində çalışmışdı. O, 1955–1959-cu illərdə Bakı Ali Partiya Məktəbində, 1961–1967-ci illərdə isə Gəncə Kənd Təsərrüfatı İnstitutunda ali təhsil almışdır.

1959-cu ildən Laçın Rayon Partiya Komitəsinin ikinci katibi, 1960-cı ildən isə Laçın Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin Sədri vəzifələrində işləmişdi. 1962-ci ildən Laçın RPK-nin birinci katibi vəzifəsinə irəli çəkilmiş və 1980-ci ilədək bu vəzifədə işləmişdir. 1980-ci ildə isə Respublika rəhbərliyi tərəfindən Zəngilan rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçilmiş və 1988-ci ilə qədər bu vəzifədə çalışmışdır.

M.Cabbarov istər öz doğma rayonu Laçında, istərsə də Zəngilanda məsuliyyət və işgüzarlıqla çalışmışdır. Rəhbərlik etdiyi dövrdə rayonun elektrikləşdirilməsi, yol çəkilişi, qazlaşdırılma, məktəb, kitabxana, mədəniyyət evləri və digər sosial obyektlərin tikilməsi kimi işlərə xüsusi diqqət yetirmiş və uğurlu nəticələrə nail olmuşdur. Onun hər iki rayona rəhbərlik etdiyi dövrdə bütün iqtisadi göstəricilərdə, həyat səviyyəsinin yüksəldilməsində böyük artım təmin edilmiş, bir sıra sahələrdə məhsuldarlığın dəfələrlə yüksəldilməsinə nail olunmuşdur.

1988-ci ildə M.Cabbarov İttifaq əhəmiyyətli fərdi təqaüdçü kimi Laçına qayıtmış və bir müddətdən sonra Laçın Şəhər Xalq Deputatları Soveti İcrayyə Komitəsinin sədri kimi fəaliyyətini davam etdirmişdir.

Respublika Prezidenti, Ulu öndər Heydər Əliyev uzun illər tanıdığı, iş təcrübəsinə, şəxsiyyətinə yaxşı bələd olduğu üçün Muradxan Cabbarovu aprel 1994-cü ildə Laçın Rayon

İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin etmiş və 2005-ci ilədək bu vəzifədə çalışmışdır. M.Cabbarov işlədiyi bütün dövrlərdə Laçının inkişafında, laçınlıların həyat və şəraitinin yaxşılaşdırılmasında əvəzsiz xidmətlər göstərmişdir. Onun haqqında xalqın yaxşı tanıdığı şəxslər dəyərli fikirlər söyləmişlər. Belə ki, Akademik Asəf Nadirov: "*Muradxan müəllim sözün əsl mənasında el adamı, diqqəti cəlb edən, üzügülər adam idi. Uzun müddət bir rayonun başçısı olmaq asan iş deyildi. Bu ancaq böyük qabiliyyətin, böyük insanpərvərliyin nəticəsi idi",* şair Ənvər Əhməd: *"Muradxan müəllim əsl el adamı, dəyərli, ağsaqqal, sanballı bir kişi idi" və* "AzərTac"ın baş direktoru Aslan Aslanov: *"Muradxan müəllim çox ağıllı, dərrakəli, savadlı şəxs idi. Muradxan müəllim kimi şəxslər Azərbaycan xalqının xəzinəsi, əsl sərvəti idi*" fikirlərini söyləmişlər.

Muradxan Cabbarovun Laçın rayonunun inkişafında müstəsna xidmətləri olmuş və onun fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. O, 1963-1988-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdi. "Şərəf nişanı", 3 dəfə "Qırmızı Əmək Bayrağı", "Oktyabr İnqilabı", "Xalqlar Dostluğu" ordenləri və bir sıra medallarla təltif olunmuşdur. Təltif olunduğu mükafatlar içərisində ona ən əziz olanı isə 1996-cı ildə respublikamızın ictimai-siyasi həyatında xidmətlərinə və Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi yolunda yüksək fəaliyyətinə görə Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilməsi olmuşdur.

Muradxan Mahmud oğlu Cabbarov 13 aprel 2006-cı ildə Bakı şəhərində vəfat etmişdir.

# IV Fəsil
# Elmlər doktorları və professorlar
## 4.1. Xasay Mahmud oğlu Cabbarov
*Filologiya elmləri doktoru, professor*



Xasay Mahmud oğlu Cabbarov 19 mart 1936-cı ildə Laçın rayonunun Kərəviz kəndində anadan olmuşdur. 1942-ci ildə Ağanus kənd yeddillik məktəbinin birinci sinfinə daxil olmuş, 1949-cu ildə 7-ci sinfi bitirmişdir. 1949-1953-cü illərdə Laçın Pedaqoji Məktəbində ibtidai məktəb müəllimi ixtisası almışdır. 1953-1955-ci illərdə Laçın şəhər 1 nömrəli orta məktəbdə ibtidai sinif müəllimi işləmişdir. 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan

Dövlət Pedaqoji Universitetinin) tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisasına daxil olmuş, 1960-cı ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil aldığı illərdə məqalələri institutun orqanı olan "Gənc müəllim" qəzetində dərc olunmuşdur. İnstitutu bitirdikdən sonra təyinatla Laçın şəhər orta məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi göndərilmişdir. Xasay Cabbarov 1960-1969-cu illərdə Laçın şəhər 1 nömrəli orta məktəbində əvvəlcə müəllim, sonra isə təlim-tərbiyə işləri üzrə direktor müavini işləmişdir. 30 iyul 1965-ci ildə səmərəli fəaliyyətinə görə "Fəxri fərman"la təltif edilmişdir.

Elmi yaradıcılığa olan marağı Xasay Cabbarovu Bakı şəhərinə gətirmiş və o, 1967-1972-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına dilçilik institutunun dissertantı olmuşdur. 25 oktyabr 1968-ci ildə ideoloji işdə fəaliyyətinə görə fəxri fərmanla təltif olunmuşdur.

Xasay Cabbarov 29 may 1972-ci ildə "Azərbaycan dilində tabu və evfemizmlər" mövzusunda dissertasiya işini müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Bir il sonra SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə dosent vəzifəsinə layiq görülmüşdür.

X. Cabbarov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialında işləməyə dəvət edilmiş, Azərbaycan dili kafedrasında dosent vəzifəsində çalışmışdır. 30 illik uğurlu elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan SSR "Əməkdar Ali Məktəb İşçisi" fəxri adına layiq görülmüşdür. Müəllim və tələbələr arasında böyük nüfuz və hörmət sahibi olan Xasay Cabbarov XPİ-də partiya komitəsinin katibi, fakültə dekanı, Azərbaycan dili kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Xasay müəllim elmi-tədqiqat işlərini uğurla davam etdirmiş və 26 aprel 1989-cu ildə Azərbaycan Elmlər Akademiyası Dilçilik İnstitutunda "Müasir Azərbaycan dilinin bədii üslubunda obrazlılıq problemi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 19 fevral 1993-cü ildə Azərbaycan Respublikası AAK-nın qərarı ilə Xasay Cabbarova  professor elmi adı verilmişdir.

Ermənilərin o zamankı Dağlıq Qarabağda başladıqları iğtişaşlarla əlaqədar olaraq X.Cabbarov 1988-ci ildə iş və yaşayış yerini dəyişməyə məcbur olmuş və Bakı şəhərinə köçmüşdür. 1988-ci ildən 1991-ci ilədək Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Azərbaycan dili kafedrasında professor, 1991-ci ildən 1996-cı ilədək isə Azərbaycan Texniki Universitetində Azərbaycan dili kafedrasının müdiri vəzifəsində işləmişdir. Xasay müəllim 7 elmi kitab və 50-dək elmi məqalə və məruzə tezisləri çap etdirmişdir.

Xasay Cabbarov 6 fevral 1996-cı ildə Bakı şəhərində vəfat etmişdir.

***Kitabları***

1. Azərbaycan  dilində tabu və  efemizmlər. Bakı: 1972.
2. Obrazlı söz qüdrətli ideya silahıdır. Bakı: 1984.
3. Bədii  ədəbiyyatda obrazlılıq".  Bakı: 1986.
4. Müasir Azərbaycan  dilinin  bədii üslubunda obrazlılıq problemi" Monoqrafiya. Bakı: 1988.
5. Əlifba təlimi. Bakı: 1992.
6. Sənətkar, söz, üslub.  Bakı: 1993.
7. Dil  qurulucuğu və  nitq  mədəniyyəti. Bakı:  1996.
8. Portret (akademiklər və müxbir üzvlər üçün). Bakı:  1996.

## 4.2. Ağakərim İmamqulu oğlu Əliyev

*Biologiya elmləri doktoru, professor*



Ağakərim İmamqulu oğlu Əliyev 1926-cı ildə Laçın rayonunun Sonasar kəndində anadan olmuşdur. İlk təhsilini öz kəndlərində, orta təhsilini isə Laçın şəhərində almışdır. 1942-ci ildə Laçından Alman-Sovet müharibəsinə getmişdir. Müharibə bitdikdən sonra 1947-ci ildə ordudan təxris olunmuş və Laçına qayıtmışdır. Müharibədən qayıtdıqdan sonra Azərbaycan Kənd Təsərrüfatı İnsitutunun baytarlıq fakültəsinə qəbul olunmuşdur. Ağakərim Əliyev hələ tələbəlik illərində özünün fəallığı, çalışqanlığı və məsuliyyətliliyi ilə fərqlənmişdir. Tələbəlik illərində İnsitutut Komsomol və Həmkarlar Təşkilatının sədri

vəzifələrində işləmişdir. 1951-ci ildə isə o zaman çox məsul və yüksək vəzifə sayılan İnsitutut partiya komitəsinin katibi vəzifəsinə seçilmişdir. 1952-ci ildə hələ institutu bitirməmiş baytarlıq kafedrasında assistent vəzifəsində saxlanılmışdır.

Ağakərim Əliyev 1953-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra da, 1957-ci ilədək İnstitut Partiya Komitəsinin katibi vəzifəsində çalışmışdır. 1957-ci ildən isə İnsitutut Xalq Nəzarəti Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. Özünün bacarığı, təşkilatçılığı və insanlara böyük qayğı və münasibəti sayəsində kollektivdə böyük hörmət və nüfuz qazanmışdır.

1959-cu ildə namizədlik dissertasiyasını müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 2003-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək, biologiya elmləri doktoru elmi dərəcəsi, sonra isə professor elmi adı almışdır. Müxtəlif illərdə Anatomiya və Fizologiya, farmakologiya kafedralarının müdiri vəzifələrində çalışmışdır. O, nəinki rəhbəri olduğu kafedralarda, çoxminli müəllim və tələbə heyəti arasında da böyük hörmət və nüfuz sahibi olmuşdur.

Azərbaycan Kənd Təsərrüfatı İnsitutunun məzunu, əslən Masallı rayonundan olan dəyərli ziyalı, 91 yaşlı el ağsaqqalı və Kənd Təsərrüfatı Nazirinin sabiq müavini İmran Əbilovun Ağakərim müəllim haqqında dedikləri: Mən Kənd Təsərrüfatı İnsitutunun tələbəsi olan vaxtı institutda 12 nəfər akademik, 50 nəfərə yaxın professor heyəti çalışırdı və beş minə qədər tələbə təhsil alırdı. Belə bir böyük ali təhsil müəsissəsində Partiya Komitəsinin katibi Ağakərim müəllim idi. Təhsil aldığım illərdə mən də İnsitutut Komsomol Komitəsinin katibi vəzifəsində çalışırdım. Yaxşı öxuduğuma görə o dövr üçün yüksək sayılan Stalin təqaüdü ilə oxuyurdum. İctimai işimlə əlaqədar olaraq Ağakərim müəllimlə mütamadi əlaqə saxlayırdım.

O, həm də baytarlıq fakultəsində dərs deyirdi.

Ağakərim müəllim qayğıkeş və xeyirxah bir insan kimi yadımda qalıbdır. Həmişə tələbə yataqxanası ilə əlaqə saxlayardı. Bir dəfə xəbər göndərdi ki, İmran bazar günü 1 saylı yataqxanada olarsan. 10 nəfər ehtiyacı olan tələbəni də müəyyənləşdirərsən. Bazar günü akademik Firuz Məlikov yataqxanaya gəldi və öz əməkhaqqından 10 nəfər ehtiyacı olan tələbənin hər birinə 300 manat pul verdi. Bu hal ardıcıl olaraq ilboyu davam etdirilirdi. Biz bilirdik ki, bu kömək Partiya Komitəsinin katibi Ağakərim müəllimin təklifi əsasında edilirdi.

Həm də hər hansı bir çətinliyi və yaxud kəsiri olan tələbələr ona müraciət edirdilər. Ağakərim müəllim isə heçkimdən köməyini əsirgəmirdi. Bir sözlə o insitutda tələbələrin, müəllimlərin dostu və qayğıkeşı kimi tanınırdı.

Ağakərim müəllimin dediyinə görə atası İmamqulu neftçi olmuşdur və Hacı Zeynalabdin Tağıyevlə yaxın dostluq etmişlər. O vaxtlar H.Z.Tağıyevin nümayəndəsi kimi İtaliyaya getmiş və Bakıda mehmanxana tikintisi üçün müqavilə imzalamışdır. Tikilən həmin binada son vaxtlara kimi "Lukoil" şirkətinin Azərbaycandakı baş ofisi yerləşirdi.

Ağakərim Əliyev müəllimlərindən ona coğrafiya dərsini deyən Müseyib Əliyevi və Ələsgər Həmidovu unutmadığını söyləmişdir. O, 2008-ci ilin 23 aprelində Ağcəbədi rayonunun ərazisində laçınlıların müvəqqəti məskunlaşdığı "Taxta körpü" adlanan ərazidə Laçın ziyalıları ilə keçirilən görüşdə iştirak etdiyini yüksək dəyərləndirmişdi. Deyirmiş el-obamızın hansı məşəqətlərə salındığını görəndə çox pis hisslər keçirdim. Erməni faşistləri kimlərəsə arxalanaraq o gözəl havalı, saf sulu, bənzəri olmayan təbiətimizi, əsrarəngiz dağlarımızı ədalətsiz-

cəsinə əlimizdən alıb və yurdumuzu talan edib, bizləri didərgin salıblar. Adamın bağrı yarılır.

Amma bu günkü görüş tədbirində iştirakım, laçınlıların torpağa bağlılığını, yer-yurdlarına qayıtmaq əzmini, ən əsası Laçın ziyalılarının birliyi və dövlət rəhbərinə sədaqətləri məndə tezliklə el-obamıza qayıtmaq inamını daha da gücləndirdi.

Biz də deyirik Ağakərim müəllim, inamınız Ali Baş Komandanın rəhbərliyi, ordumuzun qəhrəmanlığı, şəhidlərimizin canı və qanı ilə çin olub. Laçınımız azaddır, bərpa-quruculuq işləri gedir, Ruhunuz şad olsun.

Ağakərim İmamqulu oğlu Əliyev 2009-cu ilin oktyabrında Laçın həsrəti ilə dünyasını dəyişmişdir.

## 4.3. Şirindil Həsən oğlu Alışanov

*filologiya elmləri doktoru, professor*



Görkəmli filoloq, ədəbiyyatşünas - alim, filologiya elmləri doktoru, professor Şirindil Həsən oğlu Alışanov 28 oktyabr 1952-ci ildə Laçın rayonunun Əhmədli kəndində anadan olmuşdur. Bakının 19 və 111 nömrəli məktəblərində orta təhsil almışdır. 1970–ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1975-ci ildə universiteti bitirmişdir. Ədəbi tənqid üzrə ixtisaslaşmışdır.

Şirindil Alışanov 1976–1987-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda elmi işçi, institutun elmi katibi, bölmə müdiri vəzifələrində çalışmışdır. 1977–1980-ci illərdə Ş.Alışanov SSRİ Elmlər Akademiyası Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində çalışmış, məşhur estetik Yuri Borevin rəhbərliyi ilə romantizm probleminə həsr olunmuş namizədlik

dissertasiyası yazmış və 1981-ci ildə müvəffəqiyyətlə müdafiə edərək filologiya elmləri namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi almışdır.

Şirindil Alışanov çox gənc yaşlarından elmi yaradıcılıqla məşğul olmağa başlamışdır. 1976-cı ildən ədəbi-tənqidi məqalələrlə mətbuatda çıxış etmişdir. "Ədəbi proses" silsilə məcmuələrinin əsas müəlliflərindən biri olmuşdur. O, ədəbi-nəzəri fikrin ən aktual problemləri ilə bağlı müzakirələrdə, Beynəlxalq və Respublika konfranslarında, elmi sessiyalarda ardıcıl olaraq çıxışlar etmişdir. Onun ədəbi tənqidin nəzəri-metodoloji problemləri, müasir poeziya, onun əsas inkişaf meylləri, poetik axtarışlar barədə dövri mətbuatda və bir çox məcmuələrdə, eyni zamanda konfrans və simpoziumlardakı çıxışları onu respublikamızda görkəmli ədəbiyyatşünas alim kimi tanıtmışdır.

Şirindil Alışanov 1993–1998-ci illərdə "Elm" qəzetinin baş redaktoru, 1997–2013-cü illərdə "Elm" Redaksiya, Nəşriyyat-Poliqrafiya Mərkəzinin direktoru vəzifəsində çalışmışdır. 1990-cı ildən "Sabah" nəşriyyatının direktoru olmuşdur. 1998–2003-cü illərdə Nizami adına Ədəbiyyat İnstitutunun Tarixi poetika şöbəsinin müdiri olmuşdur. 2003-cü ildən ömrünün sonunadək "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri olmuşdur. Bir sıra mötəbər elmi jurnalların və çoxcildlik nəşrlərin redaksiya heyətinin üzvü olmuşdur. Moskvada çıxan "Akademiçeskie tetradi","Nauçnaya kniqa" jurnallarının beynəlxalq redaksiya heyətinin və Akademiyaların Beynəlxalq Assosiasiyasının Kitab nəşri üzrə Şurasının üzvü, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü olmuşdu.

Ş.Alışanov 2012-ci ildə “Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 2017-ci ildə isə professor elmi adı verilmişdir. Ədəbiyyatşünaslığa dair 6 fundamental kitabın və 150-yə qədər elmi məqalənin müəllifi olmuşdur. 100-dən çox elmi, ədəbi və publisistik kitabın, 11 adda elmi məcmuə və antologiyaların elmi redaktoru olmuşdur. 11 nəfər gənc tədqiqatçı onun rəhbərliyi ilə müdafiə edərək elmi dərəcə almış, 13 nəfərin isə rəsmi opponenti olmuşdur.

Şirindil Alışanov istedadlı alim olmaqla yanaşı, yüksək mənəvi keyfiyyətlərə malik ləyaqətli insan, möhkəm əqidəli, özünün sözü, dəst-xətti olan, Vətənə, xalqa bağlı vətənpərvər şəxsiyyət idi.

Şirindil Alışanov 14 mart 2024-cü ildə vəfat etmiş və Yasamal qəbiristanlığında dəfn edilmişdir.

**Kitabları:**

1. Sözün estetik yaddaşı. Bakı, "Elm", 1994, 12 ç.v.
2. Romantizm: mübahisələr, həqiqətlər (rus dilində). Bakı, "Elm", 2000, 11,3 ç.v.
3. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı, "Sabah", 2010, 22,5 ç.v.
4. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı, "Elm", 2011, 23 ç.v.
5. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi. Bakı, "Elm", 2013, 25,5 ç.v.
6. Sözün yaşamaq haqqı. Bakı, "Elm", 2022.

## 4.4. Muxtar Əliş oğlu Həmzəyev

*Psixologiya elmləri doktoru, professor*



Muxtar Əliş oğlu Həmzəyev 12 fevral 1929-cu ildə Laçın rayonunun Əhmədli kəndində anadan olmuşdur. 1936-cı ildə Əhmədli kənd 7 illik məktəbinin I sinfinə daxil olmuş, 1943-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. Elə həmin il Laçın şəhərində fəaliyyət göstərən Laçın Pedaqoji Texnikumuna daxil olmuş və 1948-ci ildə texnikumu fərqlənmə diplolum ilə bitirmişdir. Paralel olaraq bu müddətdə Laçın Pedaqoji Məktəbinin komsomol təşkilat katibi və laborant vəzifələrində çalışmışdır.

Muxtar Həmzəyev Pedaqoji Texnikumu əla qiymətlərlə bitirdiyi üçün 1948-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU-nun) Azərbaycan dili və ədəbiyyatı fakültəsinin məntiq-psixologiya şöbəsinə daxil olmuşdur. 1950-1952-ci illərdə həmin fakültənin tələbə həmkarlar təşkilatının sədri olmuşdur.

Muxtar Həmzəyev 1950-ci ildə əla qiymətlərlə oxuduğuna və ictimai işlərdə fəallığına görə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Şurasının qərarı ilə Nizami Gəncəvi adına təqaüdə layiq görülmüşdür. İnstitutu əla qiymətlərlə (fərqlənmə diplomu ilə) başa vuran Muxtar Həmzəyev İnstitut Elmi Şurasının qərarı ilə psixologiya ixtisası üzrə aspiranturaya tövsiyə olunmuşdur.

Muxtar Həmzəyev 15 noyabr 1952-ci ildə psixologiya ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına qəbul olunmuş və əməkdar elm xadimi, professor Ə.K.Zəkuzadənin rəhbərliyi ilə elmi-tədqiqat işinə başlamış və 1955-ci ildə aspirantura təhsilini başa çatdırmışdır. 1955-1956-cı illərdə M.Həmzəyev Bakı şəhəri 208 nömrəli orta məktəbdə məntiq və psixologiya müəllimi işləmişdir.

Dissertasiya işini başa çatdıran Muxtar Həmzəyev 18 may 1956-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda "İbtidai məktəbin II sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" mövzusunda dissertasiya işini müdafiə edərək psixologiya üzrə pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. 1956-cı ilin may ayından 1 yanvar 1960-cı ilədək Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda Pedaqogika və psixologiya şöbəsində baş elmi işçi vəzifəsində, 1 yanvar 1960-ci ildən 1961-ci ilin oktyabr ayına kimi isə

həmin şöbədə müdir vəzifəsində çalışmışdır. Eyni zamanda onun yaradıcı fəaliyyəti nəzərə alınaraq, 15 sentyabr 1958-ci ildə SSRİ psixoloqlar cəmiyyətinin həqiqi üzvü seçilmişdir.

1960-1970-ci illərdə M.Həmzəyev Azərbaycan Dövlət Pedaqoji İnstitutunun psixologiya kafedrasında əvəzçiliklə baş müəllim vəzifəsində çalışmışdır. Oktyabr 1961-ci ildən 1974-cü ilədək Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun Psixologiya laboratoriyasının müdiri vəzifəsində işləmişdir. 21 oktyabr 1961-ci ildə SSRİ Ali Atesstasiya Komissiyasının qərarı ilə ona "Pedaqogika və psixologiya" ixtisası üzrə baş elmi işçi adı verilmişdir.

Muxtar Həmzəyev bu müddət ərzində elmi tədqiqatlarını davam etdirmiş və doktorluq dissertasiyası üzərində çalışmışdır. 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "Azərbaycan dili orfoqrafiya və durğu işarələrinin mənimsənilməsi psixologiyası (səkkizillik məktəbdə)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və SSRİ Ali Attestasiya Komissiyasının 16 yanvar 1970-ci il tarixli qərarı ilə ona psixologiya elmləri doktoru alimlik dərəcəsi verilmişdir.

Muxtar Həmzəyev respublikamızın tanınmış psixoloqu olmuşdur. Onun adı, adları respublikamızda hörmətlə çəkilən Ə.Zəkuzadə, Fuad İbrahimbəyov, Məmmədəli Məhərrəmov, Əkbər Bayramov, Əbdül Əlizadə kimi psixoloqlarla yanaşı çəkilir.

Təhsil və elm sahəsindəki nailliyətlərinə görə Muxtar Həmzəyev 1970-ci ildə "Azərbaycan SSR Qabaqcıl maarif xadimi" döş nişanına layiq görülmüşdür. 11 iyun 1971-ci ildə isə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi adı verilmişdir. 1974-cü ildə müsabiqə yolu ilə

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası) psixologiya və pedaqogika kafedrasına müdir seçilmiş və 1 fevral 1978-ci ilədək bu vəzifədə çalışmışdır.

Muxtar Həmzəyev 1 fevral 1978-ci ildə müsabiqədən keçməklə SSRİ-nin 50 illiyi adına Azərbaycan Xarici Dillər Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) psixologiya kafedrasına müdir seçilmiş və ömrünün sonuna kimi bu vəzifədə çalışmışdır. Eyni zamanda 1993-cü ildən Bakı Ali Pedaqoji Qızlar Seminariyasında (indiki Bakı Qızlar Univesiteti) əvəzçiliklə psixologiya kafedrasına da rəhbərlik etmişdir.

Professor Muxtar Həmzəyev hansı vəzifədə çalışmışsa özünün yüksək insani keyfiyyətləri, işgüzarlığı, adamlara qarşı münasibəti, təşkilatçılığı və səmimiyyəti ilə pedaqoji ictimaiyyətin dərin hörmət və rəğbətini qazanmışdır. O, müxtəlif illərdə institut Elmi Şurasının üzvü seçilmiş, psixologiya, pedaqogika və dillərin tədrisi metodikası ixtisasları üzrə namizədlik (fəlsəfə doktorluğu) və elmlər doktorluğu sahəsində ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü olmuşdur. 1993-cü ildən həyatının sonuna kimi Bakı Dövlət Univesitetinin nəzdində olan psixologiya elmləri üzrə ixtisaslaşdırılmış Müdafiə Şurasınn üzvü olmuşdur.

Muxtar Həmzəyev uzun illər respublikamızda I siniflər üçün yazılan və pedaqoq, psixoloq və metodist alimlərin yüksək dəyərləndikləri "Ana dili" dərsliyinin müəlliflərindən biri olmuşdur.

Muxtar Həmzəyev bir çox Fəxri Fərmanlarla, "Əmək veteranı" medalı (1989) və "İşdə əla müvəffəqiyyətinə görə" (1990) döş nişanı ilə təltif olunmuşdur. Keçmiş SSRİ-nin bir

neçə respublikasında, o cümlədən Moskvada, Leninqradda, Kiyevdə, Daşkənddə, Tibilisidə, İrəvanda keçirilən bir sıra Respublika və Beynəlxalq elmi konfranslarda, simpoziumlarda, Moskvada keçirilmiş XVIII Beynəlxalq Psixoloji Konqresdə, Təbriz şəhərində keçirilmiş Elmi konfransda iştirak etmiş, maraqlı məruzələrlə çıxış etmişdir. Bir sıra əsərləri Bakı, Moskva, Kiyev, Alma-Ata, Tbilisi, Təbriz və s. şəhərlərdə nüfuzlu nəşrlərdə çap olunmuşdur.

Muxtar müəllimin qələmindən çıxan 200-ə yaxın əsəri psixoloqlar, pedaqoqlar, elmi işçilər, müəllimlər və tələbələr tərəfindən həmişə müraciət olunan mənbələr kimi dəyərləndirilmiş və bu gün də onlara müraciət olunur. Xüsusən "Pedaqoji psixologiya" (1991) və "Yaş və pedaqoji psixologiyanın əsasları" (2003) adlı dərs vəsaitləri xeyli populyarlıq qazanmış və müəllim və tələbələrin stolüstü kitablarına çevrilmişdir. Psixologiyaya aid bir sıra əsərlərin elmi redaktoru olmuş, "Ümumi psixologiya" dərsliyini rus dilindən tərcümə etmişdir (1982).

Professor Muxtar Həmzəyevin yaradıcılığı çoxcəhətlidir. Pedaqoji psixologiyanın aktual problemləri, ailə tərbiyəsi, kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri, ailədə atanın rolu, ata nüfuzu kimi məsələlər M.Həmzəyevin yaradıcılığında öz dolğun həllini tapan problemlərdir. Respublikamızda ilk dəfə tədqiq və çap olunan "Pedaqoji psixologiya" dərsliyi və "Ailədə uşaqların məktəbə hazırlanması" kitabları M.Həmzəyevin uğurlu və əhatəli tədqiqatları kimi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən və aktuallıq kəsb edən əsərlərdir.

Muxtar müəllim tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, psixologiyanın aktual problemlərinə həsr olunan onlarla

məqaləni rus dilindən ana dilimizə tərcümə etmiş və pedaqoji - psixoloji mətbu orqanlarında çap etdirmidir.

Muxtar Həmzəyevin elmi rəhbərliyi ilə 8 nəfər namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə etmiş, elmi dərəcə almışlar. 30 nəfərə yaxın tədqiqatçının fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Muxtar müəllimi şəxsən tanıdığımıza görə deyə bilirik ki, o yüksək insani dəyərlərə malik, səmimi, qəlbən çox gözəl, tanıyanlarrının rəğbətini qazanmış insan və böyük hörmətə malik şəxsiyyət idi. O, yalnız yazdığı əsərlərə görə, tutduğu vəzifəyə görə deyil, ən əsası insani keyfiyyətlərinə görə sayılıb-seçilənlərdən idi.

**Əsas əsərləri:**

1. Kiçik məktəbyaşlı uşaqların psixoloji xüsusiyyətləri. Bakı: 1968.
2. Şagirdlərin düzgün yazı vərdişlərinə yiyələnmə xüsusiyyətləri. Bakı: 1984.
3. Pedaqoji psixologiya. Dərs vəsaiti. Bakı: 1991.
4. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: 2003

# 4.5.Müseyib İbrahim oğlu İlyasov

*Pedaqogika elmləri doktoru, professor.*
*Əməkdar müəllim*



Pedaqogika elmləri doktoru, professor, əməkdar müəllim Müseyib İbrahim oğlu İlyasov 1951-ci il fevral ayının 11-də Laçın rayonunun Oğuldərə kəndində müəllim ailəsində anadan olmuşdur. 1965-ci ildə Oğuldərə kənd səkkizillik məktəbini əla qiymətlərlə bitirmiş və təhsilini Laçın şəhər orta məktəbində davam etdirmişdir. 1967-ci ildə Laçın şəhər orta məktəbini bitirmişdir. Elə həmin il H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universitetinə) daxil olub, 1971-ci ildə ali məktəbi bitirib. 1971-ci

ildə ilk təhsil aldığı Laçın rayonu Oğuldərə kənd 8 illik məktəbinə müəllim təyin olunmuşdur. 1972-1973-cü illərdə həqiqi hərbi xidmətdə olub, hərbi xidməti ehtiyat zabit kimi başa vurmuşdur. 1973-cü ilin sentyabr ayında yenidən Laçın rayonunun Oğuldərə kənd orta məktəbinə müəllim təyin edilmişdir.

M.İlyasov hələ orta məktəbdə müəllim işlədiyi dövrdə təlim-tərbiyənin aktual problemləri ilə maraqlanıb, bunlarla bağlı rayonda çıxan "Laçın" qəzetində müxtəlif məqalələrlə çıxış edib. "Ailə ilk tərbiyəçidir", "Məktəbdə metodik işlərin təşkili", "Valideyn nüfuzu" kimi məqalələr oxucular tərəfindən maraqla qarşılanmışdır.

M.İlyasov 1976-cı ilin sentyabr ayında işlədiyi Oğuldərə kənd orta məktəbinə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edilib. Bacarıqlı, işgüzar və təşkilatçı pedaqoq kimi kollektivin və valideynlərin böyük hörmətini qazanıb. Məktəbdə təlim-tərbiyə işlərinin yüksək səviyyədə qurulmasına çalışıb. Onun bu fəaliyyəti Rayon Maarif Şöbəsinin rəhbərliyinin diqqətini cəlb edərək qabaqcıl iş təcrübəsinin rayonda yayılması məsləhət bilinmişdir.

Pedaqogika elminə olan marağı M.İlyasovu 1977-ci ilin payızında V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) aspiranturasına gətirib. O, müvəffəqiyyətlə imtahan verərək istehsalatdan ayrılmaqla "Pedaqogika nəzəriyyəsi və tarixi" ixtisası üzrə aspiranturaya qəbul olunmuşdur. Həmin vaxtdan fəaliyyəti bu təhsil ocağı ilə bağlanmışdı.

M.İlyasov 1980-ci ilin sonunda aspiranturanı müvəffəqiyyətlə bitirib və Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin təyinatı ilə aspirantı olduğu Ümumi pedaqogika

kafedrasına müəllim təyin edilib. 1987-ci ildə "Kənd məktəblərarası tədris istehsalat kombinatlarında şagirdlərin peşəyönümünün pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi almışdır.

M.İlyasov 1989-cu ildə pedaqogika kafedrasına baş müəllim, 1991-ci ildə isə dosent vəzifələrinə seçilmişdir.

M.İlyasov 1989-1995-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya-biologiya fakültəsində ictimai əsaslarla dekan müavini vəzifəsində çalışmışdır.

M.İlyasov 1982-1984-cü illərdə üç dəfə hər biri 10 gün olmaqla Ümumittifaq Komsomol Təşkilatı Mərkəzi Komitəsinin, SSRİ Maarif Nazirliyinin və SSRİ Pedaqoji Elmlər Akademiyasının Rusiyanın Yaroslav vilayətinin Rostov-Velikiy və Zveniqorod şəhərlərində təşkil etdikləri "Gənc alimlər və mütəxəssislər məktəbi"nin iştirakçısı olmuşdur.

1984-1995-ci illərdə M.İlyasov Respublika televiziyasında ayda bir dəfə efirə çıxan "İstehsalatın əsasları. Peşə seçmə" adlı televiziya tədris proqramının daimi aparı-cısı olmuş, peşəseçmənin əsaslarına dair maraqlı verilişlər aparmışdır. 1980-1990-cı illərdə Respublika "Bilik" cəmiyyətinin xətti ilə respublikamızın müxtəlif bölgələrində pedaqoji mövzularda mühazirələr oxuyub, əhali arasında pedaqoji biliklərin yayılmasında fəal iştirak etmişdir.

Müseyib İlyasov 1997-1998-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda fəaliyyət göstərən pedaqogika üzrə İxtisaslaşmış Müdafiə Şurasının üzvü olub. Bir neçə nəfər dissertantın rəsmi opponenti, xeyli sayda dissertasiyalarn rəsmi rəyçisi olub. 2007–2010-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetdə fəaliyyət göstərən

pedaqoji elmlər üzrə İxtisaslaşmış Müdafiə Şurasının elmi seminarının üzvü, 2010–2012-ci illərdə Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiya-sının "Fəlsəfə, pedaqogika, psixologiya və ilahiyyat" komissiyasının Ekspert Şurasının Elmi Katibi olub, 2013–2015-cu illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən pedaqoji elmlər üzrə İxtisaslaşmış Müdafiə Şurasının elmi seminarının sədri olub. Hazırda Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Filologiya və pedaqogika" ixtisasları üzrə Ekspert Şurasının üzvüdür. Universitet, fakültə "Elmi şura"-larının və universitet "Elmi-Metodik Şura"sının üzvüdür.

M.İlyasov 2013-cü ildən 2026-cı ilə kimi ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasına rəhbərlik etmişdir. Hazırda universitetin Təhsil Menecmenti kafedra-sının professoru vəzifəsində çalışır.

M.İlyasov 1992–1997-ci illərdə N.Tusi adına ADPU-nun elmi əsərlər məcmuəsi olan "Pedaqoji Universitet Xəbər-ləri"-nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın, 2007-2010-cu illərdə isə Azərbaycan "Beynəlxalq Universitet Xəbərləri"-nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın məsul katibi olub. Hazırda bir sıra elmi-pedaqoji jurnalların - ADPU-nun elmi əsərləri olan "Pedaqoji Universitetin Xəbərləri", Respublika Elm və Təhsil Nazirliyinin orqanları olan "Azərbaycan məktəbi", "Məktəbəqədər və İbtidai təhsil" və "Peşə təhsili və İnsan kapitalı" jurnallarının, həmçinin "Magistrant" və "Pedaqogika" elmi-pedaqoji jurnallarının, Mahmud Kaşqarlı Beynəlxalq elmi jurnalının və Abay adına Qazaxıstan Milli Pedaqoji Universitetinin orqanı olan "İbtidai təhsil" jurnalının redaksiya heyətinin üzvüdür.

M.İlyasov Bakı, Səmərqənd, Tibilisi, Naxçıvan, Moskva, Ankara və digər şəhərlərdə bir sıra beynəlxalq və respublika elmi-praktik konfranslarının iştirakçısı olmuşdur.

M.İlyasov 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji elmlər üzrə İxtisaslaşmış Müdafiə Şurasında "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" mövzusunda pedaqogika elmləri doktoru elmi dərəcəsi almaq üçün doktorluq dissertasiyası müdafiə edib, pedaqogika elmləri doktoru elmi dərəcəsi almışdır.

M.İlyasov 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adı almışdır.

M.İlyasovun tədqiqatları pedaqogika elminin bir çox sahələrini əhatə edir. Ən çox və sistemli tədqiq etdiyi sahə şagirdlərin peşə seçməyə hazırlanması, müəllim peşəsi və müəllim hazırlığı problemləridir. O, 5 monoqrafiya, 5 dərs vəsaiti, 12 metodik vəsait, 40 proqram və 250-dən artıq elmi-pedaqoji və publisistik məqalənin müəllifi, 25 kitabın, onlarla tədris proqramının redaktoru və 8 kitabın tərtibçisidir. Məqalələri Bakı, Moskva, Səmərqənd, Tibilisi, Kiyev, Kirovoqrad, Samara, Tolyatti və Ankarada bir sıra nüfuzlu jurnallarda çap olunub.

M.İlyasovun proqram və dərs vəsaitini hazırladığı "Peşəyönümü və sosial məşğulluğun əsasları" adlı tədris fənni 20 ildən artıq "Pedaqogika" ixtisası üzrə təhsilin magistrastura səviyyəsində tədris edilmişdir.

M.İlyasov fəal təlim və kurikulum üzrə təlimçi kimi Respublika Təhsil Nazirliyi və UNİSEF-in birgə təşkil etdiyi treninqlərdə orta və ali məktəb müəllimləri üçün fəal təlim və kurikulum üzrə təlimlər aparıb. Onun rəhbərliyi ilə 5 nəfər

tədqiqatçı dissertasiya işi müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi almışlar.

M.İ.İlyasov Azərbaycan müəllimlərinin XV (2018-ci il) və XVI (2023-cü il) qurultaylarının nümayəndəsi olmuşdur. İki dəfə (2012 və 2021-ci illər) Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin "Fəxri fərman"ı ilə təltif edilmişdir. 2012-ci ildə Respublika Təhsil Nazirliyinin "Azərbaycan Respublikası Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif olunub. 2021-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Elə həmin il 40 ildən artıq işlədiyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaranmasının 100 illik yubiley medalı ilə təltif edilmişdir.

Müseyib İlyasov ustad müəllim və tədqiqatçı alim kimi işlədiyi çoxmilli müəllim, tələbə kollektivinin və Respublika pedoqoji ictimayyətinin dərin hörmət və ehtiramını qazanmış ziyalılarımızdandır.

M.İlyasov ailəlidir, 3 övladı vardır.

*M.İ.İlyasovun elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri:*

- şagirdlərin peşəyönümü və peşə seçməyə hazırlanmasının elmi-nəzəri problemləri;
- şagird şəxsiyyətinin sosiallaşması;
- müəllim peşəsi və məllim hazırlığının müasir problemləri;
- müəllimin pedaqoji ustalığı;
- vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi;
- təlim prosesinin optimallaşdırılması;
- orta və ali məktəblərdə tədris prosesinin aktual problemləri;
- tələbələrin pedaqoji təcrübəsi və s.

*Kitabları:*

1. Məktəbdə peşəyönümü işinin sistemi. Dərs vəsaiti. Bakı, ADPU, 1997.
2. Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi. Bakı, Təhsil, 2003.
3. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Monoqrafiya. Bakı, "Elm", 2005.
4. Şagirdlərin peşə seçməyə hazırlanması. Monoqrafiya, Bakı, "Elm", 2009.
5. Peşəyönümün əsasları. Dərs vəsaiti. Bakı, Mütərcim, 2011.
6. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti, Bakı, "Elm və Təhsil", 2013.
7. Peşə, ixtisas seçimi. Yeniyetmə və gənclər üçün vəsait. Bakı, ADPU, 2015.
8. Didaktika. Dərs vəsaiti. Bakı, ADPU, 2015.
9. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı, "Elm və Təhsil", 2018.
10. Müasir təhsil: ənənədən innovasiyaya. Monoqrafiya. Bakı, "Elm və Təhsil", 2021.
12. Peşə, sənət, ixtisas seçimi haqqında söhbətlər. Bakı: "Elm və Təhsil", 2023.
13. Pedaqoji tədqiqatların metodları və metodologiyası. Dərs vəsaiti. Bakı: ADPU, 2023.
14. Maarif fədaisi: Müseyib İlyasov. Bakı: "Elm və Təhsil", 2024.

## 4.6. Şikar Məhəmmədəli oğlu Qasımov

*Tarix elimlər doktoru, professor*
*Qabaqcıl təhsil işçisi*



Əsrarəngiz təbiəti, dəyərli ziyalıları, etibarlı və mərd insanları ilə seçilən Laçın rayonu Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişafına töhfələr verən ziyalılar yetirmişdir. Hansı ki, o ziyalılar öz əməlləri və fəaliyyətləri ilə Laçının, bütövlükdə Azərbaycanın tarixinə düşmüşlər. Belə ziyalılardan biri də professor, tarix elmləri doktoru Şikar Məhəmmədəli oğlu Qasımovdur.

Bir çox insanlar var ki, dönüb geri baxmaqdan razı qalmır, keçdiyi həyat yolundan daim şikayətçi olurlar. Yola saldığı illərdə ciddi nailiyyətə imza ata bilməmələrindən gileylənirlər. Maraqlısı odur ki, çox zaman da bunun günahını özlərində deyil, zamanda, taledə axtarmağa çalışırlar. Əslində belə insanlar özlərini taleyin ümidinə buraxanlar və yaxud zəhmətə qatlaşmaq istəməyənlərdir. Ancaq daim zəhmətlə yaşayan, işinə, peşəsinə bağlı olan insanlar həyatının hansı mərtəbəsindən baxırlarsa baxsınlar, geridə kifayət qədər uğurlar, nailiyyətlər olduğunu görə bilirlər. Əslində belələrini də iki yerə bölmək olar: biri tək özü üçün çalışanlar, ikincisi isə həm özü, həm də cəmiyyət üçün çalışanlardır. Bax, bu ikinci yerə aid olanlar özlərini daha xoşbəxt hiss edə bilirlər. Çünki kamil insan eli-obası, ölkəsi, xalqı, dövləti üçün yaşayır, öz çiyinlərini daim böyük yüklərin altına verə bilirlər. Yaşadığımız cəmiyyətin ehtiyacı olduğu belə fədakar insanlardan, elm adamlarından biri, fəaliyyəti ilə Laçın torpağına baş ucalığı gətirən ziyalı - tarix elmləri doktoru, professor, "Tərəqqi" medallı, Qabaqcıl təhsil işçisi və elmi-pedoqoji fəaliyyəti çox saylı təltiflərlə dəyərləndirilmiş tarix elimləri doktoru, professor Şikar Məhəmmədəli oğlu Qasımovdur.

Professor Şikar Qasımov həyatının istənilən mərhələsində, bir anlıq da olsa geri boylanıb, keçdiyi ömür yoluna nəzər sala bilən, götür-qoy edən, xalqı üçün nə etdiyini düşünə bilən insanlardandır. O, 9 fevral 1958-ci ildə Laçın rayonunun Cicimli kəndində zəhmətkeş bir ailədə anadan olmuşdur. Səkkizillik məktəbi Cicimli kəndində əla qiymətlərlə bitirmişdir. Cicimlidə orta məktəb olmadığına görə orta təhsilini Güləbird kənd orta məktəbində almışdır. 1976-1977-ci ildə Cicimli kəndində kolxozçu işləmiş və 1977-ci ildə Xankəndi

Pedoqoji İnsitutunun tarix fakültəsinə qəbul olunmuşdur. 1981-ci ildə İnstitutun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1981-1985-ci illərdə Laçın rayonun Cicimli kəndində təyinatla tarix və ictimaiyyət müəllimi işləmişdir.

Ş.M.Qasımov hələ orta məktəbdə müəllim işlədiyi dövrdə, müəllimlik fəaliyyəti, xüsusilə məktəb komsomol təşkilatının katibi olaraq göstərdiyi fəallığı ilə fərqlənmiş, şagirdlərinə vətən sevgisini aşılaya və təhsilə marağı gücləndirə bilmişdir. Bu işlərinə, yeni ruhlu müəllim olduğuna görə məktəb kollektivi və kənd camaatı arasında hörmət qazanmışdır. Ən əsası o, şagirdlərdə vətəndaşlıq borcunun tərbiyə edilməsinə, milli-mənəvi dəyərlərin aşlanılmasına və bunun üçün optimal yol və üsulların tapılmasına çalışmışdır. Təlim-tərbiyənin möhkəmləndirilməsi sahəsində və rayonun ictimai-siyasi həyatı ilə bağlı fəallıq göstərmişdir. Bu problemlərlə əlaqəli və müxtəlif mövzularla rayonda çıxan "Laçın" qəzetində ardıcıl çıxışlar etmişdir. Fəaliyyəti nəzərə alınaraq "Laçın" qəzetinə ştatdan kənar müxbir seçilmişdir.

Şikar Qasımov yalnız rayon qəzetində çıxış etməklə kifayətlənməmiş, müvafiq mövzularda, o zamanlar heçdə asan olmayan respublika mətbuatında da çıxışlar etmişdir. Onun iri həcmli məqalələri ardıcıl olaraq "Tarix, İctimaiyyət və Coğrafiya", "İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodiki jurnallarında çap olunmuşdur. Öz xatirələrindən eşitmişik ki, məni bir dəfə məktubla, "Tarix, İctimaiyyət və Coğrafiya" jurnalının əməkdaşı Zemfira Poladova adlı xanım, Bakıya-Nizami küçəsi 58-də yerləşən jurnalın redaksiyasına dəvət etdi. İçəri keçəndə çoxluq idi, soruşdum Zemfira xanım kimdir. Gözəl bir xanım dedi mənəm, eşidirəm. Utancaq səslə mən Şikar Qasımovam, çağırmısınız dedim. O xanım elə bir tərzdə

cavab verdi ki, Sizsiniz Şikar müəllim...! Ay Allah köməyiniz olsun, necə də güclü qələminiz var, biz professorların yazısını ildə bir dəfə verə bilmirik. Siz də ara vermədən məqalələr göndərirsiniz... Əlacımız kəsilir, yazırıq tələbatı ödəmir. İstədim sizi tanıyam. Redaksiya ilə əlaqəni üzməyin, yazılarınızın hamısı dəyərlidir. Hissə-hissə hamısını dərc edəcəyik...

Şikar müəllim onuda deyir ki, Zemfira xanımla görüşdən aldığım xoş və sevindirici təəssüratın təsirindən çıxmamış, Laçına qayıdan kimi, məni Rayon Maarif Şöbəsininə dəvət etdilər. Görünür fəaliyyətim RMŞ-i rəhbərliyinin də diqqətini cəlb edirmiş. Maarif Şöbəsində Metod kabinetin müdiri Telman müəllimlə şöbədə görüşdük. Dedi ki, fəaliyyətinizi izləyirik, rayonda sizin kimi aspirant və həmdə Respublika mətbuatında metodiki məqalələrlə çıxış edən müəllimlərimiz yoxdur. Sizin təcrübənizi yaymalıyıq və sizə metodist müəllim adını verəcəyik. Sənədlərini hazırla... Düzdür, pedoqoji stajımın iki il olması, bu adı almağıma imkan verməsə də, Bakıda Zemfira xanımın və Laçında Telman müəllimin mənə verdikləri dəyər və stimul, məni elə ruhlandırdı ki, bu gün də mətbuatdan, qələmdən aralı dura bilmirəm. Bunları xatırlatmaqla göstərmək istəyirik ki, elə orta məktəbdə işlədiyi illərdən Şikar Qasımov hər tərəfli fəaliyyəti, bacarıqlı və işgüzarlığı ilə seçilirmiş.

Elmə olan marağı Şikar Qasımovu 1983-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına gətirmişdi. O, elmi-tədqiqat işi ilə əlaqədar olaraq iş yerini 1985-ci ilin oktyabrından dəyişərək Bakıya gəlmişdir. 1985-1987-ci illərdə Abşeron rayon Mədəniyyət şöbəsində Tarixi abidələrin mühafizəçisi və diyarşünaslıq muzeyində elmi işçi

vəzifələrində çalışmışdır. 1987-ci ildən isə AzPİ-nin Sov.İKP tarixi kafedrasında (indiki AzTU) laborant kimi fəaliyyətə başlamışdı. O, laborantlıqdan baş laborant, müəllim, birbaşa dosent vəzifələrinə seçilmişdir. Universitetin kafedra müdiri və professoru vəzifələrinədək yüksəlmişdir.

Şikar Qasımov 1989-cu ildə həmin kafedrada müəllim vəzifəsinə seçilmişdi. 1990-ci ildə “Azərbaycan fəhlə sinfinin beynəlmiləlçilik və vətənpərvərlik tərbiyəsində müttəfiq sovet respublikaları ilə əməkdaşlığın rolu (1928-1937-cü illər)” mövzusunda yazdığı dissertasiya işini tamamlayaraq AMEA-nın Tarix İnstitutunda müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etmiş və tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

Tarixçi alimlərdən, elmi rəhbəri professor D.H.Qüdrətov, rəsmi opponentlər–professor E.A.Tokarjevsk, dosent E.Məmmədov, AMEA-nın Tarix İnsitutunun direktoru, akademik C.B.Quliyev, prof. Q.Mədətov, prof.A.Məmmədov, prof.T.H.Musayeva və AzTu-nin Sov.İKP tarixi kafedrasının müdiri prof. S.N.Qarayev və başqaları Ş.M.Qasımovun tədqiqatı haqqında müsbət fikirlər söyləyib və onu yüksək dəyərləndirmişlər.

1992-ci ildə AzTU-nun Tarix kafedrasında müsabiqə yolu ilə müəllimlikdən birbaşa dosent vəzifəsinə seçilmişdir. 1995-ci ildən isə AzTU-nun Univerisitet Həmkarlar İttifaqı Komitəsinin sədrinin birinci müavini, 1996-cı ildən 2001-ci ilə kimi “Mühəndis Biznesi və Menencment” fakültəsində tərbiyə işləri üzrə dekan müavini və 1996-1998-ci illərdə paralel olaraq 0,5 ştat əvəzçiliklə Azərbaycan Dövlət Dəniz Akademiyasında “Humanitar fənlər” kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Professor Ş.M.Qasımov 2001-2006-cı illərdə AzTU-da Tərbiyə işləri üzrə prorektor və AzTU-nun orqanı olan "Ziya" qəzetinin baş redaktoru vəzifələrində işləmişdir. 2002-ci ildən 2015-ci ilə qədər "Tarix" kafedrasının müdiri vəzifəsində, 2016-cı ilin fevralından isə müsabiqə yolu ilə "İctimai fənlər" kafedrasının müdiri vəzifəsinə seçilmiş və 2021-ci ilin fevralına kimi bu vəzifədə işləmişdir. Eyni zamanda 2014-2021-ci illərdə AMEA-nın Tarix İnsitutunda 0,5 ştat baş elmi işçi vəzifəsində işləmişdi. 2023-cü ildən isə BDU-nun tarix fakultəsində saathesabı qaydasında dərs aparır.

Şikar Qasımov 2008-ci ildə AMEA-nın Tarix İnsitutunda Tarix üzrə İxtisaslaşmış Müdafiə Şurasında "Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920-1930-cu illər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır. Tarixçilərdən akademik Y.M.Mahmudov, prof.,F.F.İbrahimli, prof.,Ş.Fərzəliyev, professor, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi T.H.Musayeva, prof., A.Məmmədov, prof., İ.M.Məmmədov, prof.,T.Mustafazadə, prof.,C. Həsənli, prof., N.Mehdiyeva, prof.,B.Aabdullayev, və b. Ş.M.Qasımovun tədqiqatını yüksək qiymətləndirib, onun aktual və dəyərli bir əsər olduğunu qeyd etmişlər.

2014-cü ildə isə ona Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adı verilmişdir.

Ş.M.Qasımov 2021-2024-cü illərdə AzTU-da "Humanitar fənlər" kafedrasının professoru və 2024-cü ilin fevralından isə Bakı Mühəndislik Universiteti "Ümumi fənlər" kafedrasının 0,5 ştat professoru vəzifələrində işləyir. 2024-cü ilin fevral ayının 29-dan 2025-ci ilin may ayına kimi, Bakı

Mühəndislik Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində işləmişdir. 2025-ci ilin may ayından Bakı Mühəndislik Universitetində Magistratura və doktorantura şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir.

Şikar Qasımov onlarla dissertasiyaların opponenti və rəsmi rəyçisi olmuşdur. 2013-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və Siyasi elmlər üzrə Ekspert Şurasının üzvüdür. MDB ölkələri arası Monitorinq İnstitutunun Bakı filalının eksperti olmuşdur. O ardıcıl olaraq mətbuatda, radio və televiziya kanallarında çıxışlar edir. Azərbaycan Respublikası Prezidenti seçkilərində, Parlament seçkilərində YAP mərkəzi aparatının təşviqat qrupunun üzvü kimi iştirak etmişdir. Heydər Əliyevin 100 illiyi çərçivəsində Laçın, Cəbrayıl, Siyəzən, Quba, Suraxanı, Sabunçu rayonlarında keçirilən rayon tədbirlərində iştirak emiş və yadda qalan çıxışlar etmişdir.

Professor Ş.M.Qasımov 350-yə qədər elmi, metodik və publistik məqalənin, o cümlədən texniki ali məktəblər üçün "Tarix" və "Azərbaycan tarixi" fənləri üzrə səkkiz tədris proqramının, "Tarix və Azərbaycan tarixinin tədrisinə dair" beş metodiki vəsaitin, iki məcmuənin müəllifi, onlarla kitabların elmi redaktoru və rəyçisi olmuşdur. O həm də gənclər tərəfindən çox istifadə edilən "Türk xalqlarının tarixi", "Siyasi tarix" dərs vəsaitlərinin rəyçisi və "İslam qanunlarına aid 400 suala 400 cavab" kitabının redaktoru və rəyçisi olmuşdur.

Moskvanın, Dağıstanın, Türkiyənin, Kiyevin, Ryazanın, Makedoniyanın, İtalyanın, Çuvaş Respublikasının, Qazaxıstanın, Özbəkistanın və Albaniyanın elmi jurnallarında 30-dan çox məqaləsi çap olunmuşdur. 33 Respublika və 30-dan çox Beynəlxalq konfransda iştirak və çıxışlar etmişdir.

Professor Ş.M.Qasımov 2011-ci ilin aprel ayında Kiyev şəhərində kosmosun fəthinin 50 illiyi münasibəti ilə keçirilmiş Beynəlxalq elmi-praktik konfransda iştirak etmiş və "Kosmik tədqiqatların Azərbaycanda elm və texnikanın inkişafında rolu" mövzusunda məruzə ilə çıxış etmişdir. 2011-ci ilin may ayında Türkiyənin Bayburt şəhərində keçirilən 19-cu Uluslararası Dədə-Qorqud festivalında iştirakına və dəyərli məruzəsinə görə Bayburt Valisi tərəfindən "Böyük saat kulesi" hədiyəsi ilə mükafatlandırılmışdır. 2012-ci ilin mayında Türkiyənin Amasya şəhərində Mir Həmzə Nigariyə həsr olunmuş Beynəlxalq Simpoziumda "Cicimlidən Amasyaya gedən təsəvvüf yolu", 2014-cü ildə Türkiyənin Konya şəhərində VIII Uluslararası Türk Kültürü, Sanatı və Kültürel Mirası Koruma Sempozyumunda "Azərbaycanın Naxçıvan Muxtar Respublikasında Ədəbiyyat və İncəsənətin inkişafı tarixindən (1920-30-cu illər)" mövzularında məruzə ilə çıxış etmişdir. Simpoziumda məruzəsinə və fəal iştirakına görə Konya Böyük şəhər Bələdiyəsi tərəfindən Cəlaləddin Ruminin 6 cildlik məsnəvisi ilə mükafatlandırılmışdır.

2014-cü ilin dekabr ayında isə Türkiyənin Malatya şəhərində İnönü Universitetində, Tarsus şəhərində Çağ Universitetində və Mersin Dövlət Universitetində "Türkiyə və Azərbaycan: Ortaq dəyərlər və tarix" mövzusunda keçirilən silsilə konfranslarda əsas məruzəçi kimi və Türkiyənin Kanal 33 TV-də bir saatlıq verlişdə çıxışlar etmişdir. 2015-ci və 2016-cı ilin may aylarında Türkiyənin Konya şəhərində, 2016-cı ilin oktyabr ayında Ağrı İbrahim Çeçen Universitetində, 2017 və 2018-ci illərin yanvarında Makedoniyanın Ohrid şəhərində keçirilən Beynəlxalq konfranslarında və 2018-ci ilin may ayında isə İtaliyanın Matera şəhərində keçirilən

Beynəlxalq konfransda iştirak etmişdir. 2016-cı ilin may ayında Türkiyənin Konya şəhərində "VI Uluslararasi türk sanatı, tarihi ve folkloru kongresi"ndə uğurlu iştirakına və dəyərli məruzəsinə görə konqresin təşkilat komitəsi tərəfindən "Bilime, Sanata Katkı" ödülü ilə mükafatlandırılmışdır. 2016-cı ilin 12-14 oktyabrında Türkiyənin Ağrı Universitetində II uluslararası sosyal bilimler sempozyumunda uğurlu çıxışına görə isə "İshak Paşa" qalasının baralyefi ilə mükafatlandırılmışdır. Bununlarla yanaşı, 2018-ci ilin oktyabrında Türkiyənin Amasya şəhərində IV Beynəlxalq Mir Həmzə Nigari Simpoziumunda "Türk xalqının azadlıq mücadiləsinə Azərbaycanlıların iqtisadi, siyasi və hərbi köməyi" mövzusunda çıxışına görə konfransda "Amasya Hatırası" adlı sənət əsəri ilə mükafatlandırılmışdır. 2019-cu ilin 24-26 yanvarında Tiflis şəhərində I Uluslararası dergi Karadeniz sosyal bilimler sempozyumunda iştirak etmiş, 2019-cu ilin 26-27 aprel tarixində Konya şəhərində XII Uluslararası Türk sanatları, tarihi ve folkloru kongresində "Azerbaycan kültürünün gelişiminde müstesna hizmetleri bulunan İsmayilli aydınları" mövzusunda və 25-26 may 2019-cu il tarixdə Qori müəllimlər Seminariyasının Qazax filialının 100 illiyi ilə əlaqədar Qazax şəhərində keçirilmiş konfransda "Heydər Əliyev siyasi kursu və Azərbaycan təhsili" mövzularında çıxışlar etmişdir. Cənab Prezident İlham Əliyevə ünvanladığı "Müdrik lideri olan xalq xoşbəxtdir" adlı iri həcmli minnətdarlıq məktub-məqaləsi "Azərbaycan" qəzetində dərc olunmuşdur.

Professor Şikar Qasımovun Bərpa və restavrasiyasını gözləyən Laçının əsirlikdən azad olmuş abidələri" (Tarix və onun problemləri, BDU, 2021), XV Uluslararası Türk sənəti, tarixi və mədəniyyəti mövzusunda Beynəlxalq konfransda

etdiyi məruzə (Türkiyə-Konya 21-23 iyun 2021), "İpək yolu bütün Türk dünyasının ortaq tarixi-mədəni dəyəridir" mövzusunda Türkiyənin Aydın Universitetində keçirilən konqresdəki məruzəsi (6-8 sentyabr 2021-ci il), "Əsrin müqaviləsinin imzalanması, onu istəməyənlər üzərində Heydər Əliyev siyasətinin qələbəsi oldu" mövzusunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransdakı məruzəsi və digər çıxışları rəğbətlə qarşılanmışdır. Bunlarla yanaşı o, 22 noyabr 2022-ci ildə "Tarixi yerlər və abidələr" mövzusunda Şuşada keçirilən IV Beynəlxalq Şuşa Simpoziumunda açılışında və bölmə iclasında "Şuşada muzeylərin yaranması tarixindən" mövzusunda çıxışlar etmişdir. Laçın sakinlərinə ilk dəfə mənzillərinin açarlarını verməsi, şəhərin küçələrinə Zəngəzur və Xosrov bəy Sultanovun adının verilməsi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyevə 31 may 2023-cü ildə minnətdarlıq məktubu ünvanlayıb. Həmin il avqust ayının 26-da Laçında, cənab Prezidentin iştirak etdiyi "Laçın şəhəri günü" tədbirində iştirak edibdir. Türkiyənin Adnan Menderes adına Aydın Universitetində 24-26 oktyabr 2023-cü ildə keçirilən, 3-cü Uluslararası Beynəlxalq konfransda Xarici ölkə universitetlərindən gələn nümayəndələr adından açılış çıxışı etmiş və oturumlardan birinə sədrlik etmişdir. Konfransın bölmə iclasında "Qərbi Zəngəzurun Ermənistana verilməsi tarixin-dən" mövzusunda çıxışı dinlənilmişdir.

2023-cü il noyabrın 01-də Ulu öndər Heydər Əliyevin yüz illiyi çərçivəsində Quba şəhəri, Heydər Əliyev Mərkəzində keçirilən konfransda "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Heydər Əliyevin rolu" mövzusunda çıxış

etmişdi. Ş.Qasımov 2024 və 2025-ci illərdə də Beynəlxalq konfranslarda aktual mövzularla çıxışlar etmiş və məqalələri çap olunmuşdur. Belə ki, 5-17 oktyabr, 2024-cü ildə İstanbul Aydın Universitetində keçirilən YOCOCU IX Beynəlxalq konfransında iştirak etmiş və "Naxçıvan Muxtar Respublikasında muzey işinin təşkilinin milli-mədəni dəyərlərin qorunmasında rolu" mövzusunda, 28-29 oktyabr 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilmiş Beynəlxalq konfransda "Naxçıvanda müəllim kadrlarının hazırlanmasında təhsil ənənələrinin və pedoqoji texnikumların rolu" və 4-6 aprel 2025-ci il tarixində İstanbul Aydın Universitetində keçirilən "Avrasiya Təhsil və Sosial Elmlər üzrə V Beynəlxalq Konfransda iştirak etmiş və "Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə, Azərbaycan Türkiyə münasibətləri tarixində yeni mərhələ başladı" mövzularında maraqla dinlənilən çıxışlar etmiş və konfrans materiallarında məqalələri nəşr olunmuşdur.

Professor Şikar Qasımovun fəaliyyəti bir daha göstərir ki, o respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən ziyalılarımızdandır. Onun bu sahədə apardığı bir sıra işlər Şikar müəllimi əsl vətənpərvər ziyalı, vətədaş-alim kimi tanıtdırmışdır. O, 1989-1992-ci illərdə Laçın bölgəsində könüllü özünümüdafiə dəstəsinin tərkibində ön cəbhədə iştirak etmişdir. Qarabağ müharibəsi veteranıdır. 2013-2021-ci illərdə Yasamal rayon, H.Cavid 25, YAP ərazi ilk təşkilatının sədri olmuş və Azərbaycan Texniki Universitetində Müharibə və Əmək Veteranları Şurasının sədri kimi ictimai iş aparmışdır.

Şikar Qasımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2011-ci ilin noyabrında "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Milli Ordumuzun

yaranması günü, ictimai, siyasi və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində fəaliyyətinə görə Respublika Qarabağ Veteranları Əlilləri Şəhid Ailələri İctimai Birliyi tərəfindən 2016-cı ildə "Fədai" medalı və 2017-ci ildə "Vətən naminə" medalı ilə, 2017-ci ilin may ayında YAP Yasamal Rayon Təşkilatı tərəfindən Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü və İctimai-siyasi fəaliyyətinə görə "Fəxri Fərmanlarla" təltif olunmuşdur. 2017-ci ildə Azərbaycan Texniki Universiteti rektorunun əmri ilə imtahan sesiyasının keçirilməsində və appelasiya kommissiyasının işində fəal iştirakına görə, 2018-ci ildə isə ictimai-siyasi fəaliyyətinə və anadan olmasının 60 illik yubileyinə görə təşəkkürlər elan edilmişdir. Bütün bunlarla yanaşı 2018-ci ilin fevralında Azərbaycan Respublikası Təhsil Nazirinin əmri ilə "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif olunmuşdur. 2021-ci ilin yanvarında Elm və Təhsil Naziri Emin Əmrullayevin əmri ilə Fəxri fərmanla, 2024-cü ildə isə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən "Vətənpərvərlik işində xidmətlərinə görə" medalı və "Böyük Zəfər" xatirə medalları ilə təltif olunmuşdu. 2025-ci ildə isə Bakı Mühəndislik Universiteti rektoru Yaqub Piriyevin, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Araz Paşayevin və YAP Laçın rayon təşkilatı sədri İlqar İlyasovun Fəxri Fərmanları ilə təltif olunmuşdur.

Professor Şikar Qasımov 2026-cı ilin aprelində Türk Dünyası Araşdırmaları Uluslararası İlimlər Akademisinin Akademik Üyesi (Akademiki) seçilmiştir. Eyni zamanda Uluslararası Ödül komitəsinin 03 aprel 2026-cı il tarixli qərararıyla Türk Dünyası Biliminə və Egitiminə üstün hizmetlerinden dolayı "Altın Yıldız" medalıyla ödülləndirilmişdir.

Kamil insan əslində eli-obası, ölkəsi, xalqı, dövləti üçün yaşayan insandır. Şikar müəllim də belə fədakar insanlardan biri, fəaliyyəti ilə işlədiyi çoxminli professor-müəllim heyyətinin, tələbə kollektivinin, onu tanıyanların dərin hörmət qazanmış və doğulduğu Laçın toralığına baş ucalığı gətirən ziyalı - tarixçı alimdir. O, ömrünün istənilən mərtəbəsində dönüb arxaya, keçdiyi ömür yoluna cürətlə baxa bilən, bu yoldan qürur duyan, təkcə illəri yox, günləri, anları da rahatca xatırlaya bilən insanlardandır.

Tarix elmlər doktoru, professor, Şikar Məhəmmədəli oğlu Qasımov hal-hazırda gənc nəslin tərbiyəsi, mütəxəsis kadrlarının hazırlanması və elmin inkişafı yollarında yorulmadan çalışır. Onun ürəyi eli-obası, doğma Laçını və xalqımız üçün döyünür.

Ailəlidir, həyat yoldaşı Qasımova Flora Azərbaycan Dövlət Pedoqoji Universitetinin baş müəllimidir. Qızı Hüseynova Gülnar Şikar qızı ingilis dili müəllimi, oğlu Qasımzadə İlqar Şikar oğlu isə həkim-onkoloqdur. Beş nəvəsi var. Onlar da orta məktəb şagirdləridirlər.

***Kitabları və bəzi məqalələri:***


1. Azərbaycan SSR yaradıcılıq ittifaqlarının yaranması və fəaliyyəti (1920-30-cu illər). Monoqr. Bakı, 2007.340 s.
2. Azərbaycan yaradıcı ziyalıları sovet hakimiyyəti illərində (1920-1940-cı illər). Monoqrafiya. Bakı, 2009, 216 s.
3. Xalq Qəhrəmanı Sultan bəy. Monoqr. Bakı, 2011, 440 s.
4. Əsirlikdə qalan Laçın. Monoqrafiya. Bakı, 2012, 206 s.
5. Azərbaycan tarixi. Texniki ali məktəblər üçün dərslik. Bakı, 2015.- 608 s.
6. Azərbaycan ərazilərində erməni saxtalaşdırmaları və ekoloji terror. (üç dildə). Bakı, 2018, - 260 s.

7. Azərbaycan tarixi fənnindən metodiki vəsait, Texniki ali məktəblər üçün. Bakı,- 2018,- 167 səh.
8. Azərbaycan tarixindən mühazirə və məşğələ dərslərinin keçilməsinə dair metodik vəsait. Bakı, 2019, - 106 s.
9. Azərbaycan tarixi. Fənn proqramı. Bakı, 2019, - 48 s.
10. Azərbaycan tarixi fənninin tədris proqramı. Texniki ali məktəblər üçün. Bakı, 2023, 54 s.
11. Heydər Əliyev və Azərbaycan SSR-də sosial-iqtisadi, ictimai-siyasivə mədəni inkişaf, Heydər Əliyev irsinin aktual məsələləri, Bakı,2023, s.174-187.
12. "Qərbi Zəngəzurun Ermənistana verilməsi tarixindən" 3 Uluslararası Beynəlxalq konfransın materialları, Türkiyə, 24-26 okt. 2023,s.38-48
13. Heydər Əliyevin hakimiyyətə qaydışı ilə, Azərbaycan Türkiyə münasibətləri tarixində yeni mərhələ başladı", "Avrasiya Təhsil və Sosial elmlər" üzrə V Beynəlxalq Konfransın materialları. İstanbul, 4-6 aprel, 2025-ci il, s.165-172
14. 24 aprelin ermənilər tərəfindən "Soyqırımı" kimi qondarılmasının, heç bir əsası yoxdur. https://www.face book. 24 aprel 2025-ci il,15s.
15. Qərbi Azərbaycana aparan yollar (Qərbi azərbaycanlıların deportasiyası və onların qayıdış haqqı) Bakı, 2025, 208 s.

## 4.7. İlham Lazım oğlu Kazımov

*Tibb elmləri doktoru, professor*



İlham Lazım oğlu Kazımov 1962-ci ildə Laçın şəhərində anadan olmuşdur. 1969-cu ildə Laçın şəhər 1 nömrəli orta məktəbin 1-ci sinfinə daxil olmuş, 1979-cu ildə 2 nömrəli orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1980-1992-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

İlham Kazımov 1983-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) II müalicə-profilaktika fakültəsinə qəbul olmuş, 1989-cu ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. 1989-

1990-cı illərdə Bakı şəhəri 5 nömrəli Klinik Xəstəxanada "Cərrahlıq" ixtisası üzrə internaturanı keçmişdir.

İlham Kazımov 1991-ci ildə müsabiqə yolu ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi Tədqiqat Qastroenterologiya institutunun qaraciyər, öd yolları, mədəaltı vəz cərrahiyyəsi şöbəsinə kiçik elmi işçi vəzifəsinə seçilmişdir. 1996-cı ildə "Mədəaltı vəzin seqmentar transplantasiyasına eksperimental yanaşmalar" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və tibb elmləri namizədi elmi dərəcəsi almışdır. 1998-ci ildə ET Qastroenterologiya institutunun qaraciyər, öd yolları, mədəaltı vəz cərrahiyyəsi şöbəsində baş elmi işçi vəzifəsinə seçilmiş, 2000-ci ildə ET Qastroenterologiya və ET Kliniki və Eksperimental cərrahiyyə institutlarının bazasında yaradılmış ET Kliniki Təbabət İnstitutunda cərrahi qastroenterologiya şöbəsində müsabiqə üzrə böyük elmi işçi vəzifəsinə seçilmişdir.

İlham Kazımov 2006-cı ildə akad. M.A.Topçubaşov adına ECM-nin Qida borusu, mədə və onikibarmaq bağırsaq cərrahlığı şöbəsində şöbə müdiri vəzifəsində çalışmışdır. Elmi-tədqiqat işlərini davam etdirən İ.Kazımov 2008-ci ildə Moskva şəhərində Rusiya Federasiyası Xalqlar Dostluğu Universitetində "Müxtəlif mənşəli qastroduodenal xoralardan qanaxmaların cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən RF elmlər doktoru elmi dərəcə diplomu nostrifikasiya olunaraq tanınmışdır.

İlham Kazımov 2018-ci ildən 2023-cü ilədək publik hüquqi şəxs olan "Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi"ndə elmi katib vəzifəsində çalışmışdır.

2023-cü ildən hal-hazıradək "Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" publik hüquqi şəxsin elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Həmçinin Elmi Şuranın üzvü, FD 1.12 Dissertasiya Şurasının elmi katibidir.

İlham Kazımov paralel olaraq 1998-2007-ci illərdə Azərbaycan Tibb Universitetinin II cərrahi xəstəliklər kafed-rasında pedaqoji fəaliyyət göstərərək "Cərrahi xəstəliklər" fənnini tədris etmişdir. 2019-cu ildən hal-hazıra kimi Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda cərrahi xəstəliklər üzrə pedaqoji fəaliyyətlə məşğul olur.

İlham Kazımov 2 ixtiranın, 6 səmərələşdirici təklifin, 2 metodik tövsiyənin, 2 klinik protokolun və 220-dən artıq məqalə və məruzə tezisinin müəllifidir. Onun elmi rəhbərliyi ilə 2 nəfər tibb üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmiş, elmi dərəcə almışlar.

İlham Kazımovun ailə tərkibi:

Həyat yoldaşı - Paşayeva Arzu Əbülfət qızı, Bakı Dövlət Universitetində pedaqoq vəzifəsində çalışır. Qızı – Kazımlı Firuzə İlham qızı Moldova Respublikasında həkim vəzifəsində çalışır. Digər qızı - Kazımlı Günel İlham qızı - həkimdir, Almaniya Respublikasında nevroloq vəzifəsində çalışır. Oğlu - Kazımlı Tural İlham oğlu, Çexiya Respublikasında tələbədir.

## 4.8. Maarif Əli oğlu Cəfərov

*Fizika-riyaziyyat elmləri doktoru, professor*



Fizika-riyaziyyat elmləri doktoru, professor Maarif Əli oğlu Cəfərov 1960-cı ildə Laçın rayonunun Minkənd kəndində anadan olub. 1967-1977-ci illərdə Minkənd kənd orta məktəbində təhsil alıb. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub, 1982-ci ildə univesiteti bitirmişdir.

Maarif Cəfərov 1982-ci ildə keçmiş SSRİ Müdafiə Sənayesi Nazirliyinin Tətbiqi Riyaziyyat İnstitunun Bakı filialında təyinatla mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1984-cü ildə Azərbaycan Respublikası Elmlər

Akademiyasının Fizika İnstitunun aspiranturasına qəbul olunmuşdur. Aspiranturanı müvəffəqiyyətlə bitirərək, 1989-cu ildə Kiyev Yarımkeçiricilər İnstitutunun aparıcı təşkilatının rəyi ilə namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almışdır.

Maarif Cəfərov 1982-1991-ci illərdə Tətbiqi Fizika İnstitutunda mühəndis - elmi işçi, 1991-1993–cü illərdə Foto-elektronika ETİ – böyük elmi işçi, 1994-2005-ci illərdə Bərk cisim elektronikası ETL-nin müdiri, 2005-ci ildə Fizika Problemləri İnstitutunda aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 2010-cu ildən BDU-nin Yarımkeçiricilər fizikası kafedrasının professoru vəzifəsində çalışır.

Maarif Cəfərov 1993-cü ilədək Elmi Tədqiqat Fotoelektronika İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır. 1994-cü ilin yanvarında Bakı Dövlət Universite-tinin Fizika fakültəsinin nəzdində Bərk cisimlər Elektronikası Elmi-Tədqiqat laboratoriyasına elmi işçi vəzifəsinə qəbul edilmiş, həmin ilin dekabr ayında isə laboratoriyaya müdir vəzifəsinə təyin olunmuşdur. 2007-ci ildə "AIIBVI" tipli birləşmələrin monokristallarında və onların bərk məhlullarının kimyəvi çökdürülmüş nazik təbəqələrində elektron prosesləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır.

Maarif Cəfərov 250-dən artıq elmi işin (100 elmi məqalə, 40 konfrans materialı, 80 beynəlxalq konfransda məruzə) müəllifidir. 2 nəfər elimlər namizədi yetişdirmişdir.

Maarif Cəfərov bir sıra Respublika və Beynəlxalq (Kaluqa, 1990, Daşkənd 1991, Aşqabad 1991, Tayvan 1994, Ulyanov 1997, 2004, 2006, 2007, 2008, Çernovtsı 1997,

Taqanroq 2000, 2002, 2004, Moskva 2000, 2002, 2004, 2006, Santa Barbara 2000, 2002, Edinburq 2002, Təbriz 2004, Ankara 2006, Sank-Peterburq 2002, 2004, Strasburq 2003, 2005, 2007) seminar, simpozium və konfransların iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir.

**Kitabları:**

1. А.Г.Кязым-заде, В.М.Салманов, М.А.Джафаров, А.Г.Гусейнов, Р.М.Мамедов. Практикум по физике полупроводников. Баку, 2013,433с (dərs vəsaiti).
2. A.H.Kazımzadə,V.M.Salmanov, A.Z.Abbasova, M.Ə.Cəfərov, Ə.H.Hüseynov, L.H.Həsənova, R.M.Məmmədov. Yarımkeçiricilər fizikası üzrə praktikum.Bakı, 2013, 403с (dərs vəsaiti).
3. A.H.Kazımzadə, V.M.Salmanov, M.Ə.Cəfərov, Ə.H.Hüseynov, L.H.Həsənova, R.M.Məmmədov.Yarımkeçiricilər fizikasından məsələlər. Bakı-2014,403с (dərs vəsaiti)
4. M.A.Jafarov, E.F. Nasirov Электронные свойства наноструктированных материалов соединений. Монография, LAMBERT Academic Publishing, Германия, 2013 183 стр,

## 4.9. Zöhrab İslam oğlu Qarayev

*Tibb elmləri doktoru, professor*



Zöhrab İslam oğlu Qarayev 25 mart 1945-ci ildə Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. 1951-ci ildə Minkənd orta məktəbinin birinci sinfinə daxil olmuş, 1961-ci ildə orta məktəbi bitirmişdir. Elə həmin 1961-ci ildə N.Nəri-manov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) stomatologiya fakültəsinə daxil olmuş və 1966-cı ildə institutu bitirmişdir.

Zöhrab Qarayev institutu bitirdikdən sonra təyinatla Laçın rayonuna göndərilmiş və 1966-cı ildə Laçın rayonunun Alxaslı kəndində həkim-stomatoloq və 1967-1968-ci illərdə isə Minkənd xəstəxanasında baş həkim vəzifəsində işləmişdir. Zöhrab Qarayev 1969-cu ildə müvəffəqiyyətlə imtahan verərək Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun aspiranturasına qəbul olmuşdur. 1974-cü ildə

Krasnodar şəhərində Kuban Dövlət Tibb İnstitutunda "Sülfonol istehsalatında işləyənlərin dişlərinin və ağız boşluğu selikli qişasının vəziyyəti" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda metodist və stomatologiya kafedrasında assistent vəzifəsində çalışmışdır. 1980-1985-ci illərdə Ə.Əliyev adına ADHTİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində işləmişdir. 1985-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Tibb İnstitutunun ortepedik stomatologiya kafedrasında assistent vəzifəsinə seçilmiş, 1987-ci ildə dosent elmi adı almışdır.

Zöhrab Qarayev 1990-cı ildən 2000-ci ilə qədər Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

Z.Qarayev diş-çənə anomaliyalarının genetik aspektləri ilə bağlı tədqiqatlar aparmışdır. Tədqiqatların nəticəsi olaraq, "Diş-çənə anomaliyalarının genetik aspektləri və inbridingin onların strukturunda və yayılma tezliyində rolu" mövzusunda doktorluq dissertasiyası yazmış və 2000-ci ildə Moskva şəhərində Rusiya Federasiyası Səhiyyə Nazirliyinin Mərkəzi Elmi-Tədqiqat Stomatologiya İnstitutunda müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2005-ci ildə isə professor elmi adı almışdır. 2004-2007-ci illərdə ATU-nin stomatoloji klinikasının direktoru vəzifəsində işləmişdir.

Z.İ.Qarayev 2011-ci ildə yenidən Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinə dekan vəzifəsinə seçilmiş və 2018-ci ilədək bu vəzifədə çalışmışdır. 2018-ci ildə ATU-nun Elmi Şurasının qərarı ilə Ortopedik stomatologiya

kafedrasına məsləhətçi-professor vəzifəsinə keçmiş və 2024-cü ilin iyun ayınadək bu vəzifədə çalışmışdır. O, Azərbaycan Tibb Universitetinin Elmi Şurasının, Stomatologiya fakültəsinin Elmi Şurasının, Stomatologiya ixtisası üzrə Problem Komissiyanın sədri, Dissertasiya Şurasının üzvü olmuşdur.

Zöhrab Qarayev 160-dan çox elmi işin, o cümlədən 1 monoqrafiya, 3 dərslik, 8 metodik vəsait və 5 səmərələşdirici təklifin müəllifidir. Elmi işləri ölkəmizdə və Rusiya, ABŞ, Fransa, İran, Ukrayna və digər ölkələrdə nəşr edilmişdir. O, Beynəlxalq Stomotoloqlar Akademiyasının, Beynəlxalq Stomatoloqlar Federasiyasının (FDİ) və Avropa Regional Stomatologiya Assosiyasiyasının üzvü seçilmişdir. Müxtəlif illərdə Moskva Mərkəzi Həkimləri Təkmilləşmə İnstitutunda və Moskva Tibbi Stomatologiya İnstitutunda təkmilləşmə kursu keçmişdir.

Z.Qarayev ABŞ-ın Beynəlxalq Stomatologiya Akademiyasının (Academy of Dentistry International), Beynəlxalq Stomatologiya Federasiyasının (Federation Dental International), Avropa Regional Təşkilatı (European Regional Organisation) və Beynəlxalq Stomatoloji Araşdırmalar Assosiasiyasının (International Association for Dental Research) üzvü idi. O, Rusiya, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Türkiyə, ABŞ, Almaniya, İran, Avstriya, İsveç, Sinqapur, Fransa, Tailand, Ukrayna və digər ölkələrdə beynəlxalq konqreslərin iştirakçısı olmuşdur.

Zöhrab Qarayevin rəhbərliyi ilə 9 nəfər - 6 nəfər tibb üzrə fəlsəfə doktoru, 3 nəfər isə elmlər doktoru dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar.

Professor Zöhrab Qarayev 1997-ci ildən (ASA) yaradılmasında iştirak etmiş və təşkilat komitəsinin üzvü olmuşdur.

“Caucasian Dental News” jurnalının redaktoru olmuş və stomatologiyanın aktual problemlərinə həsr olunmuş 15-dən çox beynəlxalq konfrans və simpoziumun təşkilatçısı və iştirakçısı olmuşdur. O, Azərbaycan Stomatoloji Assosiasiyası Şurasının üzvü olaraq maarifləndirmə proqramının həyata keçirilməsində fəal iştirak etmişdi.

Zöhrab Qarayev sağlamlıq sahəsində uzunmüddətli əmək fəaliyyətinə görə "Səhiyyə əlaçısı" nişanı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir və bir neçə dəfə Universitet rəhbərliyinin təşəkkürünə layiq görülmüşdür. O, 2010-cu ildə Azərbaycan Respublikasının “Əməkdar həkimi” fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2024-ci il 2 fevral tarixli 4289 nömrəli sərancamı ilə “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə təltif olmuşdur.

25 iyun 2024 - cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Əsas əsərləri**

1. Üz-çənə anomaliyalarının genetik aspektləri və inbridinq
2. Dişsiz çənələrin protezlənməsi
3. Ortopedik stomatologiya
4. Üz-çənə anomaliyalarının genetik aspektləri və inbridinq
5. Dişsiz çənələrin protezlənməsi
6. Parodont xəstəliklərin ortopedik müalicəsi
7. Ortopedik stomatologiya

## 4.10. Eldar Allahverdi oğlu Əliyev

*Tibb elmləri doktoru, professor*



Eldar Allahverdi oğlu Əliyev 18 iyul 1962-ci ildə Laçın şəhərində müəllim ailəsində anadan olmuşdur. 1969 -1979-cu illərdə Laçın rayonu Ərdəşəvi kənd orta məktəbində təhsil almışdır. 1989-cu ildə Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1989-1991-ci illərdə I cərrahi xəstəliklər kafedrasında klinik ordinator vəzifəsində çalışmışdır. Eldar Əliyev 1991-ci ildə Azərbaycan Tibb Universitetinin aspiranturasına qəbul olmuş və 1994-cü illərdə aspiranturanı müvəffəqiyyətlə bitirmişdir. 1994-2008-ci illərdə kafedrada assistent vəzifəsində çalışmışdır. 1994-cü ildə "Kəskin xolesistitin kompleks müalicəsində lazer şüalarının müştərək tətbiqi" mövzusunda

namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır. 2008-ci ildə dosent vəzifəsinə seçilmiş və 1-ci cərrahi xəstəliklər kafedrasında dosent vəzifəsində işləmişdir.

Eldar Əliyev elmi axtarışlarını davam etdirmiş və 2014-cü ildə "Anal sfinkter çatışmazlığının cərrahi müalicəsinin nəticələrinin yaxşılaşdırılması yolları" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Hazırda Azərbaycan Tibb Universitetinin 1-ci cərrahi xəstəliklər kafedrasının professoru vəzifəsində çalışır.

Eldar Əliyev özünü tələbkar, savadlı, intizamlı pedaqoq və həkim kimi göstərmiş, sadəliyi və işgüzarlığı ilə işlədiyi Tibb Universiteti kollektivinin dərin hörmətini qazanmışdır. Özünün həkimlik və elmi-pedaqoji hazırlığını daimi yüksəltməyə çalışmışdır.

Eldar Əliyev fəal elmi fəaliyyətlə məşğul olur və elmi araşdırımalarını davam etdirir. Dövrü mətbuatda cərrahiyyənin aktual problemlərinə həsr olunmuş məqalələrlə çıxışlar edir. Onun müxtəlif səviyyəli elmi konfranslarda etdiyi məruzələr maraqla qarşılanır. 150-dən çox elmi məqalə və məruzə tezisinin müəllifidir. O, eyni zamanda tibb elmləri üzrə fəlsəfə və elmlər doktorluğu proqramı ilə tədqiqat aparan tədqiqatçıların elmi-tədqiqat işlərinə rəhbərlik edir.

Eldar Allahverdi oğlu Əliyev həm də fəal ictimaiyyətçidir. İşlədiyi müddətdə özünü fəal işçi kimi göstərmişdir. Gələcək həkimlərlə apardığı mühazirə və praktik məşğələlər tələbələr tərəfindən maraqla qarşılanır. Klinikada aparılan müalicə işlərində və kafedranın ictimai işlərində fəal iştirak edir.

E.Əliyev müxtəlif ictimai vəzifələrdə işləmiş və bu fəaliyyətini davam etdirir. Hazırda Tibb Universitetinin nəzdində fəaliyyət göstərən D.03.011 Müdafiə Şurasının elmi katibidir.

E.Əliyev bir neçə patentin (Donmaların müalicə üsulu, 22.04.1993) və aşağıda adları göstərilən səmərələşdirici təkliflərin müəllifidir:

1. Rektovaginal fistulların təsnifatı, Azərbaycan Tibb Universiteti, 2003, № 443.
2. Rektovaginal fistulların cərrahi müdaxilə üsulu, Azərbaycan Tibb Universiteti, 2003, № 444.
3. Anal sfinkteringücünü ölçən və fiksə edənyaylı sfinkterometr, Azərbaycan Tibb Universiteti, 2004, № 475.
4. Aralığın doğuşdan sonra cırılması zamanı aparılan əməliyyat üsulu, Azərbaycan Tibb Universiteti, 2010, № 539. 5. Düz bağırsağın sfinkter əzələsinin rekonstruktiv cərrahiyyəsində əzələ transplantlarından istifadə üsulu, Azərbaycan Tibb Universiteti, 2010, № 540.

**Əsas əsərləri:**

1. Düz və yoğun bağırsaq operasiyalarının atlası (H.A.Sultanovla birlikdə). Bakı: "Təbib", 2005.
2. Koloprktologiya. (H.A.Sultanov və S.H.Sultanova ilə birlikdə). Bakı:"Təbib", 2011.

# 4.11. Eldar Məmməd oğlu Süleymanov

*Texnika elmləri doktoru, professor*



Eldar Məmməd oğlu Süleymanov 22 mart 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. Əslən Laçın rayonunun Əhmədli kəndindəndir. Atası Azərbaycandan kənarlarda da, keçmiş sovetlər məkanında tanınan məşhur neftçi Məhəmməd Süleymanov olmuşdur. Onun adına verilmiş gəmi bu gün də Xəzər dənizinin sularında üzür.

Eldar Süleymanov 1967-ci ildə Bakı şəhəri 189 saylı orta məktəbi bitirmişdir. Həmin il Azərbaycan Neft və Kimya İnstitutunun "Neft, qaz və mədən" fakültəsinə daxil olmuş,

1972-ci ildə “Neft və qaz quyularının qazılması” ixtisası üzrə ali təhsilini başa vurmuşdur.

E. Süleymanov 1972-ci ildən fasiləsiz olaraq Azərbaycanın Neft və Qaz Sənayesinin dəniz və quru sahələrində: ÜQQ(JUCK-UP)-Xəzər, “İliç Buxtası” və “Bulla” Dəniz Qazma İşləri idarələrində, AzNSETLİ-də, “Schlumberger” Beynəlxalq neft kompaniyasında, “Elmi Tədqiqatlar” İnstitutunda və s. yerlərdə qazmaçı köməkçisi, şöbə müdiri, menecer və s. vəzifələrdə çalışmışdır. 1997-ci ildən 2000-ci ilə qədər “Schlumberger” firmasında işləyərkən “Çıraq” platformasının ilk 12 quyusuna və “Dədə Qorqud” yarımdalma qurğusunun qazılan quyularına qəyyumluq edibdir. 1982-ci ildən 2015-ci ilədək AzNSETLİ-də və “Neft-qazelmitədqiqatlayihə” İnstitutunda laboratoriya müdiri və şöbə müdiri vəzifələrində çalışmışdır. 2015-ci ildən indiədək Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) - Neft və Qaz mühəndisliyi kafedrasının professorudur.

Eldar Süleymanov 1980-ci ildə Qroznı şəhərində Quyuların qazılması - (05.15.10) ixtisasında “Gilli suxurlarda quyuların tamponaj texnologiyasının tədqiqi və onun təkmilləşdirilməsinin işlənməsi” mövzusunda namizədlik (Fəlsəfə doktorluğu), 1994-cü ildə isə Bakı şəhərində yenə də həmin ixtisasda “Mürəkkəbləşdirilmiş şəraitdə quyuların möhkəmləndirilməsinin səmərəliliyini artırmaq üçün yeni texnika kompleksinin mütərəqqi texnologiyasının işlənib hazırlanması” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Keçmiş SSRİ AAK-nın qərarı ilə böyük elmi işçi adı almışdır.

Eldar Süleymanov geniş elmi yaradıcılıqla məşğuldur. 200-dən artıq elmi əsərin, o cümlədən 8 monoqrafiya, 3-ü Bakı şəhərində, 1-i Moskvada, 8-i Almaniyada və ABŞ-in

AMAZON saytında olmaqla 4 kitab və 135 elmi məqalənin, 30 ixtira və patentin müəllifidir.

Elmi işlərinin əsas istiqaməti quyuların qazılması, möhkəmləndirilməsi və tamamlanması sahəsi üzrədir. Onun tədqiqatları Beynəlxalq iclas və sərgilərdə - Almaniyada (Frayberg ş.), Yuqaslaviyada - 1983, Vyetnamda – 1987, Efiopiyada – 1987, Liviyada – 1988, Misirdə - 1989, Ruminiyada – 1989, İranda – 1993, Bakıda – 1994-1998, Aberdində, Huostonda - 1998-ci ildə təqdim edilmişdir. Beynəlxalq iclas və konfranslarda ingilis dilində məruzələr etmişdir. Bunlarla yanaşı, E.M.Süleymanov Moskva, Krasnodar, Astraxan, Qroznı, İvano-Frankovsk, Daşkənd, Aktau, Yaremça, Tümen, Nijne-Vartovsk, Surqut, Minsk, Kiyev, Kuybışev və s. şəhərlərdə iclas və konfranslarda məruzələrlə çıxışlar etmişdir.

E.M.Süleymanovun 18 tədqiqatı (yeni texnologi-yalar, tərkiblər, qurğular) sənayedə tətbiq olunub. Onlardan 10-u tədqiqat-müəlliflik şəhadətnaməsidir. Müəlliflik şəhadətnaməsinin biri olan – sementləmə tıxacı keçmiş SSRİ-nin Neft Sənayesi Nazirliyinin 29 birliyində, Qaz sənayesi Nazirliyinin 17 birliyində, Geologiya Nazirliyinin 25 birliyində - demək olar ki, SSRİ-də hər qazılan quyuda, 200 mindən artıq kəmərlərində istifadə olunmuşdur.

Azərbaycanda quruda və dənizdə qazılan quyularda sement məhlulunun optimal reseptlərinin seçilməsinə E.M.Süleymanov 25 ildən artıq rəhbərlik edirdir. Onun təklifi ilə 6000-dən artıq sement məhlulunun nümunələri seçilmişdir.

Eldar Süleymanov bir çox fəxri adlara və diplomlara layiq görülmüşdür. 1979-cu ildə “AzNeft” İstehsalat Birliyinin “Fəxri fərmanı”, 1986-cı ildə SSRİ-nin Ali Soveti Rəyasət

Heyətinin əmri ilə SSRİ-nin ali medalı olan "Əmək fədakarı" medalı, 1987-ci ildə SSRİ-nin Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin "Qızıl medalı" ilə təltif olunmuşdur. 1988-ci ildə ixtiraçı adını almış, 2004-cü ildə ARDNŞ "Fəxri fərmanı" ilə təltif olunmuşdur. O, ADA və İADC üzvüdür.

E.M.Süleymanov dünyada ən dərin sement körpüsünün (SQ-1 Saatlı quyusunda dərinliyi 8000 m, 1986-cı il) müəllifidir.

E.M.Süleymanov 2003-cu ildən indiyədək Azərbaycan Respublikasının AAK-nın ADNA-da neft ixtisasları üzrə, doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə Xüsusiləşdirilmiş Şurasının üzvü, elmi seminarin sədridir. 2009-2010-cu illərdə AAK-nın eksperti olmuşdur.

2004-cü ildən 2013-cü ilədək - E.M.Süleymanov ADNA quyuların qazılması üzrə Dövlət İmtahan Komissiyasının sədri olmuşdur. 2005-ci ildən isə E.M.Süleymanov Azərbaycan Milli Neft Komitəsinin üzvüdür.

## 4.12.Rəşad Şahbaz oğlu Muradov

*İqtisasad elmləri doktoru, professor*



Rəşad Şahbaz oğlu Muradov 28 aprel 1966-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1985-1987-ci illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur. 1989-cu ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bitirmiş və təyinatla "Siyasi iqtisad" kafedrasında işə başlamışdır. Həmin ildə Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) "Siyasi iqtisad" ixtisası üzrə məqsədli aspiranturaya daxil olmuş və 1992-ci ildə vaxtından əvvəl "Azərbaycan Respublikasında iş qüvvəsindən istifadənin bəzi xüsusiyyətləri" mövzusunda dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

1989-cu ildə “Siyasi iqtisad” kafedrasında işə başlamış, müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2001-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə ona dosent elmi adı verilmişdir.

2003-cü il yanvar ayının 30-da Azərbaycan Respublikası Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Müdafiə Şurasında “Müasir dövrdə Azərbaycan Respublikasında əmək bazarının formalaşması və məşğulluq siyasətinin istiqamətləri” mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və Ali Attestasiya Komissiyasının 9 iyul 2003-cü il tarixli qərarı ilə iqtisad elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

2003-cü ildən Universitetin Elmi Şurasının üzvü və eyni zamanda Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının İqtisad və Hüquq elmləri üzrə ekspert şurasının üzvü olmuşdur.

2008-ci il noyabrın 14-də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollegiyasının iclasında qəbul edilmiş qərarla ona professor elmi adı verilmişdir.

TASIS proqramının xətti ilə Irlandiya Respublikasının Dublin (1994-cü il) və Niderland Krallığının Amsterdam Universitetlərində (MBA proqramı üzrə - 1996-1998-ci illər) təhsil almışdır.

Hal-hazırda iqtisad elmləri doktoru Rəşad Şahbaz oğlu Muradov Azərbaycan Dövlət Iqtisad Universitetinin “Biznesin idarə edilməsi” kafedrasında professor vəzifəsində çalışır. O, 129 elmi-metodiki əsərin, o cümlədən dərslik və 4 monoqrafiyanın müəllifidir. Bu əsərlərdən 9-u WoS, Scopus

bazalarında indekslənmiş və onlara 33 müxtəlif elmi jurnallarda istinadlar verilmişdir. Rəşad Şahbaz oglu Muradovun Hindeksi 3-dür. Bu əsərlər Azərbaycanın, Türkiyə Cümhuriyyətinin, Isveçin, Rusiya Federasiyasının, Belarus Respublikasının bir sıra nüfuzlu nəşriyyatları tərəfindən çap olunmuşdur.

R.Ş.Muradov onlarla doktoranta, aspiranta və magistranta elmi rəhbərlik etmişdir. Onlardan bir çoxu ölkənin bir sıra nazirliklərində və nüfuzlu ali məktəblərində çalışırlar.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2021-ci il 24 sentyabr, 2278 saylı sərəncamı ilə, iqtisad elmləri doktoru, professor Rəşad Şahbaz oğlu Muradov Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

Ailəlidir, iki övladı var.

## 4.13. Eldar İsmayıl oğlu Vəliyev

*Fizika-riyaziyyat elmlər doktoru, professor*



Eldar İsmayıl oğlu Vəliyev 24 yanvar 1951-ci ildə Bakı şəhərində anadan olub. Əslən Laçın rayonunun Piçənis kəndindəndir. 1968-ci ildə Bakı şəhərində orta məktəbi gümüş medalla bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Döğvlət Univesiteti) Fizika fakültəsinə daxil olmuş, 1973-cü ildə universiteti bitirmişdir. 1973-1976-cı illərdə Xarkov şəhərində, Ukrayna SSRİ Elmlər Akademiyasının Radio Fizika və Elektronika İnsitututunun aspirantı olmuşdur. Həmin İnsitutda 1977-ci ildən 1980-ci ilə qədər kiçik elmi işçi, 1980-ci ildən 1988-ci ilə qədər baş elmi işçi və 1988-ci ildən 2008-ci ilə qədər isə aparıcı elmi işçi vəzifələrində çalışmışdır.

1977-ci ildə Xarkov şəhərində radio fizika ixtisas üzrə fiziki-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almaq üçün

dissertasiya işini müdafiə etmişdir. 1988-ci ildə isə eyni ixtisas üzrə doktorluq dissertasiyası işini müdafiə etmiş və fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi adını almışdır. “Elektrodinamika sərhəd problemləri, Elektromaqnit sahə nəzəriyyəsi, Difraksiya nəzəriyyəsi və İnteqral tənliklər həlli üçün ədədi və analitik üsullar” Eldar Vəliyevin tədqiqat sahəsidir. Tətbiqi Elektronika Akademiyasının akademiki və əməkdar elm xadimidir.

Eldar Vəliyev 20 ildən çoxdur ki, Beynəlxalq elmi konfrans olan "Elektromaqnit nəzəriyyəsidə Riyazi metodlar" (MMET)" təşkilat komitəsinin sədridir. Bu nüfuzlu beynəlxalq tədbirin yaranması və inkişaf tarixi Eldar Vəliyevin adı ilə bağlıdır. Bu konfrans bir mötəbər URSI (Radio Engineers, ABŞ) Beynəlxalq Birliyin siyahısına daxil edilib. O, 1997-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən ilin adamı elan edilib. 1999-cu ildə isə Xarkovda İEEE (Radio Engineers) Beynəlxalq İnstitutunun (ABŞ) üzvü seçilib.

2008-ci ildən 2012-ci ilə qədər (NIOCHIM, Xarkov) Əsas Kimya Elmi Tədqiqat və Layihə İnstitutunun direktoru vəzifəsində işləmişdir. 2012-ci ildən Xarkov Bələdiyyə İqtisadiyyatı Milli Akademiyasında təlim, ixtisasartırma və Uzaqdan Təhsil Mərkəzinin direktoru olmuşdur. 2016-cı ildə Ukrayna Milli Texniki Universiteti "Xarkov Politexnik İnstitutu"nda (NTU "KPI") Uzaqdan Təhsil Mərkəzinin rəhbəridir. 11 may 2016-cı ildən isə Ukrayna Milli Texniki Universiteti "Xarkov Politexnik İnstitutu" (NTU "KPI") elmi və pedaqoji işləri üzrə prorektordur.

Eldar Vəliyev aparıcı milli və beynəlxalq jurnallarda 150-dən çox nəşr edilmiş orjinal elmi məqalənin müəllifi və həmmüəllifidir. Yaponiya və Avropada nəşr olunan 3 kitabın

həmmüəllifidir. 7 elmlər namizədi və bir elmlər doktoru yetişdirmişdir. O, 2000-ci ildən Xarkov Tətbiqi Radio Elektronika Akademiyasının akademikidir. 2011-ci ildən Almaniyanın Təbii Avropa Elmlər Akademiyasının həqiqi üzvüdür (akademik). 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Eldar Vəliyevə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. Eldar Vəliyev 2011-ci ildə Dədə Qorqud Fondu tərəfindən "Vətən Övladı" medalı və elə həmən ildə Xarkov Tətbiqi Radio Elektronika Akademiyasının Qızıl medalı ilə təltif etmişdir.

Eldar Vəliyev 1990–2010 illərdə bir çox ölkələrin universitetlərinə professor olaraq dəvət edilmişdir. 1991, 1992, 1999, 2009 illərdə Yaponiyanın Tokio şəhərində Chou Universitetinə, 1995-ci ildə Yaponiyanın Osaka Electrokom-munikasiya Universitetinə, 2002-ci ildə ABŞ-ın Filadelfiya şəhərində Pensylvania Universitetinə və 1992-ci ildən 1995-ci ilə qədər Türkiyənin Adana şəhərində Çukurova Universitetinə dəvət olunmuşdur.

***Tədqiqat sahəsi*:**

Elektrodinamika sərhəd problemləri
Elektromaqnit sahə nəzəriyyəsi
Difraksiya nəzəriyyəsi
İnteqral tənliklər həlli üçün ədədi və analitik üsullar

## 4.14. Tofiq Surxay oğlu Şahsuvarov

*Geologiya-mineralogiya elmləri doktoru, professor*



Tofiq Surxay oğlu Şahsuvarov 1929-cu ildə Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. 1937-ci ildə Minkənd kənd orta məktəbin birinci sinfinə qəbul olunmuş, 1948-ci ildə orta məktəbi bitirmişdir. Elə həmin il- 1948-ci ildə Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1953-cü ildə institutu bitirmişdir.

Tofiq Şahsuvarov əmək fəaliyyətinə 1954-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indi-ki Bakı Dövlət Universiteti) assistent kimi başlamışdır.

1957-ci ildə “Pirsaat-Hamamdağ antiklinal zonasının geoloji quruluşu. İnkişaf tarixi. Neftliliyi” mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1960-cı ildə dosent elmi adı almışdır.

Tofiq Şahsuvarov elmi tədqiqat işlərini davam etdirmiş və 1967-ci ildə “Azərbaycanın məhsuldar qat hövzəsinin paleosocoğrafiyası” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək Geologiya - mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır. 1986-cı ilə kimi Bakı Dövlət Univesitetinin Ümumi geologiya kafedrasında dosent vəzifəsində çalışmışdır. 1986-cı ildə Geoloji-coğrafiya fakültəsinin dekanı vəzifəsinə seçilmiş və 1992-ci ilə kimi bu vəzifədə işləmişdir. 1992-ci ildən 2009-cu ilə - ömrünün sonuna kimi Tofiq Şahsuvarov Bakı Dövlət Universitetinin "Ümumi geologiya kafedra"sının professoru vəzifəsində çalışmışdır.

Tofiq Şahsuvarovun tədqiqat sahəsi əsasən neft və qaz geologiyası, qeyri-strukturneft və qaz tələləri, ümumi geologiya, geomorfologiya, geoekologiya, geologiya elmlərinin tarixi və metodologiyası və s. olmuşdur. Bir kitabın və 100-ə qədər elmi məqalənin müəllifi olmuşdur. Onun rəhbərliyi ilə iki nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Tofiq Şahsuvarov bir çox Respublika və Sankt-Peterburq (1969); Kazan (1971); Tomsk (1987); Fransa (1988); Xarkov (1988); Almaniya (1990) və Tbilisidə (1990) keçirilən Beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmiş və məruzələrlə çıxış etmişdir.

Tofiq Şahsuvarov 2009-cu ildə Bakı şəhərində vəfat etmişdir.

***Seçilmiş əsərləri:***

1. Kompensasiya profilləri əsasında izopaxit xəritələrinin qurulması metodikası və kəsimlərin bərabər bölünməsinin bəzi məsələləri haqqında. Bakı Universiteti xəbərləri. Təbiət elmləri seriyası, № 3, 2003.

2. BDU-nun Geologiya fakültəsi tələbələrinin tədris-çöl məşğələlərində maqnit bucağının oriyentiri və təyin olunması məsələsinə dair. Bakı Universiteti xəbərləri, Təbiət elmləri seriyası, № 3, 2004.

3. Fasiya və formasiya təlimi haqqında. Bakı Universiteti xəbərləri. Təbiət elmləri seriyası, № 3, 2005.

4. Kiçik Qafqazın şimal-şərq yamacında mexaniki denudasiyanın və denudasiya kəsiminin təqribi qiymətləri barədə. Bakı Universiteti xəbərləri. Təbiət elmləri seriyası, № 4, 2006.

5. Kiçik Qafqazın şimal-şərq yamacında çaqıl-valun çöküntülərinin bəzi parametrlərinin təxmini müəyyənləşdirilmə metodikası haqqında Bakı Universiteti xəbərləri. Təbiət elmləri seriyası, № 1, 2008.

## 4.15. Knyaz Şiraslan oğlu Məmmədov

*Fizika-riyaziyyat elmləri doktoru, professor*



Knyaz Şiraslan oğlu Məmmədov 1950-ci ildə Laçın rayonunun Alxaslı kəndində müəllim ailəsində anadan olmuşdur. 1967-ci ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olub, 1972-ci ildə oranı bitirmişdir. Azərbaycan Texniki Universitetinə göndərilmiş, orada əmək fəaliyyətinə başlamışdır. Bundan sonra təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutuna göndərilmiş, orada istehsalatdan ayrılmaqla aspiranturada oxumuşdur. 1981-ci ildə Belarus Respublikasının Minsk şəhərində "Tamədədli proqramlaşdırma məsələlərinin suboptimal və optimal həllərinin qurulmasının tədqiqi" mövzusunda disser-

tasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi almışdır.

Knyaz Məmmədov 1976-1993-cü illərdə AMEA-nın Kibernetika İnstitutunda kiçik elmi işçi, baş elmi işçi və laboratoriya müdiri vəzifələrində işləmişdir. 2007-ci ildə "Müxtəlif sinif tamədədli optimallaşdırma məsələlərinin tədqiqi və həll üsullarının işlənməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. 1994-cü ildən etibarən indiyədək Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat və Kibernetika fakültəsində professor vəzifəsində işləyir. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda da "Diskret Optimallaşdırma Modelləri və Üsulları" şöbəsinin müdiridir və həmin institutda "Riyaziyyat, texnika və iqtisadiyyat elmləri üzrə" doktorluq Müdafiə Şurasının Elmi katibidir. 2004-cü ildə ABŞ riyaziyyatçılar cəmiyyətinin "Əməliyyatlar tədqiqi" bölməsinin üzvü seçilmişdir. Bununla yanaşı, Knyaz Məmmədov ABŞ-də nəşr olunan bir neçə nüfuzlu elmi jurnalın ekspertidir.

Knyaz Məmmədovun əsas elmi fəaliyyəti riyazi kibernetika, diskret optimallaşdırma, iqtisadi-riyazi modelləşdirmə, əməliyyatlar tədqiqi və ədədi üsullarla bağlıdır. Həmin sahələrə aid 160-dan artıq elmi əsəri Azərbaycanın, Rusiyanın, Ukraynanın, Latviyanın, Almaniyanın və ABŞ-nin nüfuzlu elmi jurnallarında çap edilmişdir. Onun aldığı elmi nəticələr Azərbaycanın və keçmiş SSRİ-nin müxtəlif yerlərində praktiki tətbiqini tapmışdır. Bunlardan dəniz neft-qaz yataqlarının istismarı zamanı platformaların optimal yerlərinin tapılması və onların müxtəlif kommunikasiya xətləri ilə optimal birləşdirilməsi məsələsi Azərbaycan Dövlət Neft

Şirkəti tərəfindən qəbul olunmuş və müxtəlif yataqlara tətbiq olunmuşdur. Bundan əlavə, professsor K.Məmmədovun çoxsaylı obyektlər arasından optimal seçmə ilə bağlı işləyib hazırladığı riyazi modellər və onların həll üsulları Moskva səhərindəki bir hərbi hissədə müvəffəqiyyətlə tətbiq olunmuşdur.

K.Məmmədov "çətin həll olunan" məsələlər sinfinə aid olan diskret optimallaşdırma məsələlərinin müxtəlif sinifləri üçün yeni effektiv həll üsulları işləmiş və bu nəticələr çoxsaylı beynəlxalq və respublika elmi konfranslarında məruzə olunmaqla yanaşı, müxtəlif xarici elmi jurnallarda çap olunmuşdur.

Son illərdə onun aldığı elmi nəticələrdən ikisi daha mühüm əhəmiyyət kəsb edir. Bunlardan birincisi tamədədli, çox məchullu tənliyi, ona ekvivalent olan sadə tənliklər sisteminə gətirmək üçün təklif etdiyi üsuldur. Qeyd edək ki, bu məsələ ilk dəfə 1972-ci ildə ABŞ riyaziyyatçıları tərəfindən qoyulmuş, lakin 30 ilə yaxın müddətdə həll olunmamışdır. Professor K.Ş.Məmmədov bu məsələni dünyada ilk dəfə olaraq əvvəlcə "Bul" dəyişənləri halında, sonra isə daha ümumi şəkildə həll edərək ABŞ-də və Ukraynada nəşr etdirmişdir. İkinci elmi nəticə isə diskret optimallaşdırma məsələlərində optimal həlli saxlayan kiçik oblastın tapılmasıdır. Bu nəticə, baxılan məsələnin optimal həllinin verilmiş oblastda deyil, yalnız onun müəyyən kiçik hissəsində axtarmağa imkan verir.

Professor K.Ş.Məmmədov ali məktəb tələbələri üçün 4 dərs vəsaitinin ("İqtisadi kibernetikadan mühazirələr" və "Alqoritmlər nəzəriyyəsindən məsələlər") və öz elmi kəşflərindən ibarət rus dilində yazılmış 430 səhifəlik bir monoqrafiyanın ("Методы решения различных классов задач дискретной оптимизации") müəllifidir. Onun elmi rəhbərliyi ilə 5 nəfər müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi,

bir nəfər isə riyaziyyat üzrə fəlsəfə doktoru elmi adını almışdır.

Knyaz Məmmədov Bakı Dövlət Universitetində iqtisadi kibernetika, alqoritmlər nəzəriyyəsi, qraflar nəzəriyyəsi və kombinator analiz üsulları, diskret proqramlaşdırma fənləri üzrə dərsləri tədris edir.

Knyaz Məmmədov müxtəlif təcrübələr və elmi yeniliklər həyata keçirmişdir. Tamədədli proqramlaşdırma məsələlərinin müxtəlif siniflərinin həlli üçün yeni, daha effektiv həll üsulları təklif etmişdir. İlk dəfə olaraq 30 ildən artıq müddətdə həllini tapmayan "Tamədədli tənliyin dezaqreqasiyası" problemini həll etmişdir. O, 30-dan çox Beynəlxalq seminar, konfrans və simpoziumlarda (The Third International Conference “Problems of Cybernetics and Informatics”. Baku, 2010; IV İnternational Conference “Problems of cybernetics and İnformatics” Baku, 2012; Международная Научная Конференция, посвя-щенная 85-летнему юбилею академика Мирзаджан-заде. Баку, 2013, 21-21 ноября; “Elmin Müasir Nailiyyətləri” mövzusunda VII Beynəlxalq elmi konfrans, Bakı, 2014; The 5-th International Conference on control and optimization with industrial applications baku, 27-29 August, 2015; riyaziyyatin nəzəri və tətbiqi problemləri, Sumqayıt, 25-26 may, 2017; The 6-th International Conference on Control and Optimization with Industrial. Application, Baku, 11-13 July, 2018; The 6-th International Conference on Control and Optimization with Industrial Application, Baku, 11-13 Jule, 2018; Международная Конференция “Достижения в области науки и техники”, Воронеж (Россия), 12-14 ноябрь, 2018 və s.) elmi məruzələrlə çıxış etmişdir. "Riyazi modelləşdirmə, optimal-

laşdırma üsulları, diskret proqramlaşdırma, riyazi kibernetika, hesablama riyaziyyatı və ədədi üsullar" mövzusu onun tədqiqat sahələrindəndir.

### *Kitabları*

1. İqtisadi kibernetikadan mühazirələr. Bakı: 2008.
2. Alqoritmlər nəzəriyyəsindən məsələlər. Dərs vəsaiti. Bakı: BDU, 2010.
3. Методы решения различных классов задач дискретной оптимизации. Monoqrafiya. Баку: Elm, 2011,41 s
4. Исследование по целочисленной оптимизации, Lambert Academic Publishing. 2012. 269 səh.
5. Qraflar nəzəriyyəsi. Dərs vəs. Bakı: BDU nəşr. 2014.
6. Alqoritmlər nəzəriyyəsi, (dərs vəsaiti), Bakı: 2014,186 s.
7. Tamədədli proqramlaşdırma məsələlərində zəmanətli həll və zəmanətli suboptimal həllərin tapılmas üsulları (monoqrafiya). Bakı, “Elm”, 2018. 206 səh.

### *Seçilmiş məqalələri*

-Сведение решения общей задачи нелинейного дискретного программирования к решению последовательности задач с меньшим количеством ограничений. Ж. Дис-крет. матем., 1992, Т.4, №1, с.50-59.

- Mamedov K. Sh. Definition of the narrow intervals for variables in the integervalued knapsack problem, Applied and computational Mathematics. (An International Journal). 2003, vol.2, №.2. pp, 156-160.

- Mamedov K. Sh., Mardanov S.S. Desegregation of Diophantine Equation with Boolean Variables, Computational Optimization and applications. (USA) 2004 vol.27, №.1. p. 31-36.

- Мамедов К. Ш. Один подход к решению целочисленной задачи о ранце, "Автоматика и Вычислительная Техника" (Рига), 2005 №5, ст. 56-63
- Мамедов К. Ш. Априорное определение границ оптимального значения переменных в задачах целочисленного линейного программирования, "Кибернетика и Системный Анализ", (Киев) 2006 № 2, ст. 86-93.
- Methods of Constructing Suboptimal Solitions of Integer Proqramming Problems and Successive Improvement of these Solitions, An International Journal "Automatic Control and Computer Sciences", 2007, Vol.41, N6, pp. 312–319/
- Məmmədov K.Ş., Nağıyeva S.K. Bir məhdudiyyətli qismən Bul proqramlaşdırması məsələsinin suboptimal həllinin qurulması üsulu, AMEA-nın Xəbərləri, 2011, №3, s. 66-73
- Musayeva T.M., Məmmədov K.Ş. Çox məhdudiyyətli tamədədli proqramlaşdırma məsələsinin bir həll üsulu, AMEA-nın Xəbərləri, 2011, №3, s. 82-89.

## 4.16. Ziyadxan İsrafil oğlu Nəbibəyli

*Texnika elmləri doktoru, professor*



Ziyadxan İsrafil oğlu Nəbibəyli 26 avqust 1940-cı ildə Laçın rayonunun Bülövlük (Bəylik) kəndində anadan olmuşdur. Laçın rayonundakı Pircahan kənd orta məktəbini "əla" qiymətlərlə bitirmişdir. Orta məktəbdə özünün biliyi və bacarığı ilə seçilmişdir. Orta məktəbi bitirdiyi il qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (İndiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin) fizika-riyaziyyat fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. Yaxşı oxuduğu və ümidverici gələcəyini görən ali məktəb rəhbərliyi onu təhsilini davam etdirmək üçün o zaman SSRİ-də nüfuzlu universitetlərdən sayılan Moskva Bauman adına Univesitetə göndərmişdir. Gündüz şöbəsində oxumasına

baxmayaraq ordu sıralarına göndərilmiş və hərbi xidmətdən sonra təhsilini həmin universitetdə davam etdirərək 1968-ci ildə ali məktəbi yüksək qiymətlərlə bitirmişdir.

Ziyadxan Nəbibəyli əmək fəaliyyətinə gənc mütəxəssis kimi Bakı şəhərində fəaliyyət göstərən "Bakı fəhləsi" zavodunda başlamışdır. Bakı şəhəri, Yasamal rayonundakı 176 nömrəli orta məktəbdə müəllim işləyib, fizika, istehsalatın əsasları və elektronika fənlərindən dərs deyibdir. Bununla yanaşı, Azərbaycan Polotexnik İnstitutunda da mühazirələr aparıb. Fəal ictimaiyyətçi və təşkilatçı kimi tanınıb. Daha sonra əmək fəaliyyətini Bakı şəhərindəki 80 nömrəli məktəbdə davam etdirib.

Ziyadxan müəllimin elmə, ədəbiyyata və tarixə olan marağı onu daim bu istiqamətdə inkişaf etməyə sövq etmişdir. Bu maraq və həvəs onu 1970-ci ildə Azərbaycan Elmlər Akademiyasına gətirmişdir. 1970-ci ilin oktyabr ayında Z.Nəbibəyli Akademiyanın çox nüfuzlu elmi-tədqiqat mərkəzlərindən biri olan Dərin Neft-Qaz Yataqları Problemləri laboratoriyasında mühəndis vəzifəsində çalışmağa başlamışdır. Sonrakı illərdə böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmış və burada nəşr olunan elmi jurnalda bölmə rəhbəri olmuşdur.

Ziyadxan müəllim bir çox vəzifələrdə çalışmışdır: Azərbaycan Respublikası Nazirlər Kabinetində Fövqaladə Hallar Şöbəsinin və paralel olaraq Qaçqınlarla İş Şöbəsinin müdiri, Komitə sədrinin müavini, Kollegiya katibi, bir neçə dövlət əhəmiyyətli komissiyalarının sədri, Elmi-Tədqiqat Hidrometorologiya İnstitutunda direktor müavini, Ekologiya və Təbii Sərvətlər Nazirliyində şöbə müdiri, Milli Elmlər

Akademiyasında baş elmi işçi, laboratoriya müdiri, "Hüquq" qəzetinin baş redaktoru (1994-cü ildən) və s.

Ziyadxan Nəbibəyli hələ tələbəlik illərində "Azərbaycan gəncləri" və "Azərbaycan müəllimi" qəzetlərində, sonralar isə "Elm" qəzetində və "Elm və həyat" jurnalında, Akademiyanın "Xəbərlər"ində məqalələrlə çıxışlar etmişdir. 1960-cı ildə Azərbaycan Jurnalistlər İttifaqına üzv seçilmişdir. Həm də Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Sonralar elmi fəaliyyətini davam etdirən Ziyadxan Nəbibəyli elmin müxtəlif sahələri üzrə çoxsaylı məqalələr və kitablar nəşr etdirmiş, üç ixtiranın və  iki elmi-təcrübi qurğunun müəllifidir.

Ziyadxan müəllim əvvəlcə texnika elmləri namizədi (fəlsəfə doktoru) və bir neçə il sonra isə texnika elmləri doktoru (1989-cu il) elmi dərəcələri almaq üçün dissertasiya işləri müdafiə etmişdir. 1990-cı ildə ona professor elmi adı verilmişdir. Texnika elmləri doktoru, professordur. Ziyadxan müəllim həmçinin tarix üzrə də doktorluq dissertasiyası müdafiə etmiş, həm də tarix elmləri doktorudur. Üç xarici akademiyanın akademiki, altı universitetin fəxri professorudur.

Ziyadxan müəllimin həyat bioqrafiyasında diqqəti çəkən məsələlərdən biri onun respublikamızın bir çox görkəmli şəxsiyyətləri ilə bilavasitə ünsiyyətdə olması onların haqqında yaddaqalan xatirələrlə çıxış etməsidir. Özü elm adamı olduğundan elm xadimlərinə yüksək qiymət verməsi, onları dəyərləndirməsidir.

Hazırda təqaüdçü və I Qarabağ müharibəsi veteranı olan Z.Nəbibəyli müxtəlif vaxtlarda Azərbaycan hökumətinin, İran İslam Respublikasının bir sıra mükafatları və Fəxri Fərmanlarına layiq görülmüş, "Yeniləşən Dövlətə Dəstək"

ictimai birliyinin üç fəxri diplomu, "Qızıl Qələm" mükafatı, "Xalqın nüfuzlu ziyalısı", "Şərəf", "Araz", "Qalib Sultan" "İctimaiyyətin səsi və ekologiya" qəzetlərinin fəxri diplomları ilə təltif olunmuşdur.

Ziyadxan Nəbibəyli heç də sıradan olan bir elm adamı deyildir. Çox geniş yaradıcılıq diapozonuna malik olan alimlərimizdəndir. Onun elmin müxtəlif sahələrinə aid olan elmi araşdırmalarının dairəsi çox geniş, yaradıcılığı çoxşaxəlidir. Elmin bir çox sahələri ilə yaxından məşğul olmuşdur. Fizika, kimya, fiziki-kimya, ekologiya, hidromotologiya, neft, qaz, kondensat, yeraltı və yerüstü su, fövqəladə hal və hadisə, beynəlxalq hüquq, idarəçilik, iqtisadiyyat, geologiya, din, mənəviyyat, ədəbiyyat, tarix və s. elm sahələrinə aid 70 kitabın və 2500 – dən çox ədəbi, bədii, elmi və publisistik məqalələrin müəllifidir. Əlbəttə bunlar elmə, yaradıcılığa, eyni zamanda insanlara, insanlığa, mənəviyyat və əqidəyə olan münasibətin nəticəsi kimi dəyərləndirilməlidir. Onun əsərlərinin bir çoxunda əsl vətənpərvərlik, vətəndaşlıq, ziyalılıq, ziyalılara yüksək qiymət vermək, onları şəxsiyyət kimi dəyərləndirmək, Laçını azad görmək, vətənə bağlılıq və azərbaycançılıq hissləri geniş yer alır.

***Kitablarının bir qismi***

1. Zəngəzurun altun tacı Laçın. Bakı: Uniprint, 2008. 270 s.
2. Sultan bəy və Xosrov bəy qardaşları. Bakı: Nurlar nəşriyyatpoliqrafiya mərkəzi, 2011. -224 səh.
3. Ekologiya və fövqaladə hallar. Bakı: 2012. -380 səh.
4. Əxlaqa aparan yol. Bakı: Adiloğlu nəşriyyatı,2015, 356 s.
5. Gördüklərim, götürdüklərim. I cild. Bakı: Adiloğlu nəşriyyatı, 2015,528 s.

6. Geoloji anlamlardan məqamlar. Bakı: Adiloğlu nəşriy. 2018, 104 s.
7. Fizika və insan yaşamı. Bakı: Ecoprint, 2019, 184 s.
8. Gördüklərim, götürdüklərim (Laçın və laçınlılar). II cild. Bakı: Adiloğlu nəşriyyatı, 2020, 780 səh.
9. Bəxtiyar Vahabzadənin milli-mənəvi portreti. Bakı: Ecoprint, 2022, 164 s.
10. Ətraf mühitə dövlət qayğısı. Bakı: "İmza" nəşrlər evi, 2023. -232 səh.

# 4.17. Muğan Salman oğlu Quliyev

*Riyaziyyat üzrə elmlər doktoru, professor*



Muğan Salman oğlu Quliyev 1965-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Əslən Laçın rayonunun Səfiyan kəndindəndir. 1983-85-ci ildə Hərbi xidmətdə olub. 1982-ci ildə H.Zərdabi adına KDPİ-yə (Gəncə) daxil olmuşdur. 1989-cu ildə fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1990-cı ildə H.Zərdabi adına KDPİ-nin (Gəncə) Ümumi Texniki fənlər kafedrasına baş laborant vəzifəsinə təyin edilmişdir. 1990-1994-cü illərdə AMEA-nın Mexanika-Riyaziyyat İnstitutunun dissertantı olmuşdur. 1993-cü ildə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi (Fəlsəfə doktoru) elmi dərəcəsi almışdır. 1994-cü ildə müsabiqə yolu ilə Ümumi Texniki fənlər kafedrasına müəllim seçilmişdir. Eyni zamanda 1994-cü ildə "Mühəndis-pedaqoji" fakültəsinin dekan müavini vəzifəsinə

təyin edilmişdir. 1994-cü ildən 2006-cı ilə kimi Mühəndis - pedoqoji fakültəsində dekan müavini, 2006-cı ildən 2010-cu ilə kimi isə Fizika və texniki fənlər fakültəsinin dekanı vəzifəsində işləmişdir.

Muğan Quliyev 20.06.2011-ci il tarixinədək Gəncə Dövlət Universitetin Magistratura şöbəsinə rəhbərlik etmişdir. 2012-ci ilin mart ayından 2013-cü ilin mart ayına kimi Gəncə Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru vəzifəsində çalışmışdır. M.Quliyev elmi - tədqiqat işlərini davam etdirmiş, 2006-ci ildən başlayaraq AMEA-nın doktorantı kimi elmlər doktorluğu dissertasiyası üzərində işləmiş və 2014-cü ildə doktorluq dissertasiyası müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

M.Quliyev 2016-cı il iyun ayında Fizika və Texniki fənlər fakültəsinin dekanı vəzifəsinə seçilmiş və hal-hazırda bu vəzifədə çalışır. İşlədiyi Gəncə Dövlət Unuversitetində və rəhbərlik etdiyi fakültədə bir çox beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin keçirilməsində M.Quliyev yaxından iştirak etmişdir.

Professor Muğan Quliyev Azərbaycan elmini avanqard kimi təmsil edən alimlərimizdəndir. O, elmi yaradıcılıq müstəvisində də çox məhsuldar fəaliyyət göstərmişdir. Respublikamızda və respublikadan kənarda (Türkiyə, Amerika, Latviya və s.) 30-a qədər elmi əsərləri çap olmuşdur.

M.Quliyev ailəlidir, 3 övladı var.

***Seçilmiş əsərləri***

1. Guliev M.S. Axisymmetric wave propagation in the twisted circular cylinder embedded ina compressible elastic medium. Procedings of IMM of NASA, 2009, V.

XXXI (XXXIX), p.187-194.
2. Guliev M.S. On axisymmetric wave propagation in the unitially twisted circular cylinders (soft inner and stif external cylinders). Proceeedings of IMM of NAS of Azerbajcan, 2010, vol. XXXII (XLI), pp 163-176.
3. Akbarov S.D., Guliev M.S., Kepceler T. On the some particularities of the axisymmetric wave propaqation in the initially twisted circular compound cylinolers. Proceeding of the ASME 2010 10th. Biennial Conference on Engineering System Desigu and Analysis ESDA, July 12-14.2010/ Istanbul Turkey. 1-7.
4. E.H.Mövsümov., M.S.Quliyev., Y.B.Namazov. Ümumi Fizika kursundan məsələlər. Dərs vəsaiti. Gəncə, 2019.
5. M.S.Quliyev., E.H.Mövsümov., N.İ.Quliyev. Termodinamika və statistik fizikadan məsələlər. (həlli ilə). Dərs vəsaiti. Gənsə. 2017.
6. Quliyev M.S., Quliyev N.İ., İmanov R.M. Bitkilərin fotosintezinin intensivliyinin işıq selinin dəyişən sıxlığına qarşı reaksiyasının modelləşdirilməsi.
7. Гулиев М.С., Исмиева С.А. Анизотропия электрических свойств экструдированных образцов $Bi_{0,85}Sb_{0,15}$ облу ченных с гамма радиациями. стр 106-109.

## 4.18. Solmaz Səttar qızı Məhərrəmova

*Tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi*



Azərbaycan etnoqrafiya elminin inkişafında xüsusi yeri olan dəyərli ziyalı Solmaz Səttar qızı Məhərrəmova 17 sentyabr 1949-cu ildə Laçın şəhərində ziyalı ailəsində anadan olmuşdur.

Solmaz Məhərrəmova 1956-cı ildə Laçın şəhər orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1966-cı ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunmuşdur. Obyektiv səbəblər üzündən ikinci kursu bitirdikdən sonra təhsilini qiyabi yolla davam etdirmiş və 1973-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Solmaz Məhərrəmova öz ağlı, zəkası, son dərəcə zəhmətkeşliyi sayəsində pillə-pillə yüksələrək orta məktəb

müəllimliyindən Azərbaycanın Elm Məbədgahı sayılan AMEA-da baş elmi işçi vəzifəsinə və tarix elmləri doktoru kimi yüksək elmi dərəcə almağadək yüksəlmişdir.

Solmaz Məhərrəmova Universitetin 3-cü kursunu bitirdikdən sonra 1970-ci ildən 1977-ci ilədək Laçın şəhər səkkizillik məktəbində tarix, 1977-1978-ci illərdə Laçın şəhər 1 saylı orta məktəbdə tarix və ictimaiyyət müəllimi, 1978-1980-ci illərdə isə 2 saylı Laçın şəhər orta məktəbində direktor müavini vəzifələrində çalışmışdır. 1980-1992-ci illərdə Laçın rayon Tarix-Diyarşünaslıq Muzeyinin qurucusu və ilk direktoru vəzifəsində çalışmışdır. Muzeyşünaslıq sahəsindəki bilik və ixtisasını artırmaq məqsədi ilə o, 1990-cı və 1992-ci illərdə Bakı şəhərində Mədəniyyət İşçilərinin Respublika Hazırlıq və İxtisasartırma kurslarında, 1983-cü və 1989–cu illərdə Moskva şəhərində, SSRİ Mədəniyyət Nazirliyinin Mədəniyyət işçilərinin Ümumittifaq İxtisasartırma İnstitutunun "Tarix-Diyarşünaslıq Muzeylərinin direktorları" qrupunda, 1990-cı ildə isə Tatarıstan Muxtar Respublikasının paytaxtı Kazan şəhərində "Muzeyşünaslıq" qrupunda ixtisasartırma təlimləri keçmişdir.

1992-ci ildə erməni faşistləri tərəfindən Laçın şəhəri işğal olunduqdan sonra Solmaz xanım Bakı şəhərində məskunlaşmış və 1992-ci ilin may ayından oktyabr ayınadək Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Metodiki Kabinetində direktor müavini vəzifəsində çalışmış və 1992-ci ilin oktyabr ayının 20-dən 2023-cü ilin iyun ayınadək isə Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda əvvəlcə kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, sonra isə aparıcı və baş elmi işçi vəzifələrində çalışmışdır. O, 1992-ci ildən 2014-cü ilədək eyni zamanda Bakı şəhərində bərpa etdiyi Laçın Rayon Tarix-Diyarşünaslıq Muzeyinin

direktoru vəzifəsində işləmişdir. 2023-cü ilin iyun ayından etibarən isə AMEA-da həyata keçirilmiş islahatlar nəticəsində yeni təşkil edilmiş AMEA Tarix və Etnologiya İnstitutunun "Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq" şöbəsində baş elmi işçi vəzifəsində çalışır.

Solmaz Məhərrəmova 1995-ci ildə "Azərbaycan kəndində müasir mədəni-məişət prosesləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi, 2011-ci ildə isə "XIX əsr və XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi - etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

Son dərəcə zəhmətkeş, istedadlı, vətənpərvər, yüksək elmi və intellektual səviyyəsi olan Solmaz Məhərrəmova Azərbaycanda etnoqrafiya elminin inkişafına böyük töhfələr vermişdir.

Solmaz Məhərrəmova 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə nəşr edilən və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən üçcildlik "Azərbaycan etnoqrafiyası" (Bakı: "Şərq-Qərb", 2007), 2016-cı ildə Azərbaycan, rus və ingilis dillərində yüksək poliqrafik tərtibatda Türkiyənin İstanbul şəhərində nəşr olunmuş "Qəbələnin folkloru"; 2017-ci ildə nəşr olunmuş "Qəbələnin tarixi" və "Qəbələnin etnoqrafiyası" adlı kitablar toplusunun, 2017-ci ildə Moskva şəhərində "Наука" nəşriyyatında rus dilində çapdan çıxmış "Azərbaycanlılar"; Heydər Əliyev Fondu tərəfindən çap edilmiş "Qarabağın sənətkarlığı", 2024-cü ildə Bakı şəhərində "Elm" nəşriyyatında çapdan çıxmış "Qarabağın etnoloji tədqiqatı" adlı fundamental tədqiqat

əsərlərinin də əsas müəlliflərindən biridir. Onun bir çox əsərləri xarici ölkələrdə, o cümlədən Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ukraynanın, Qazaxıstanın nüfuzlu mətbuat orqanlarında nəşr edilmiş və həmin ölkələrin oxucularının diqqətini cəlb etmişdir. O, Azərbaycanın etnoqrafiya elminin və milli-mənəvi dəyərlərimizin təbliği və geniş yayılması sahəsində də fəal iştirak edir.

Solmaz Məhərrəmovanın elmi rəhbərliyi ilə 4 nəfər tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işlərini müdafiə etmişlər. O, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının üzvü və həmin Dissertasiya Şurasının "Etnologiya" ixtisası üzrə Elmi Seminarının rəhbəridir.

Solmaz xanımın xidmətləri dövlətimiz və hökumətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" kimi yüksək fəxri ada, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Prezidenti yanında Respublika Ağsaqqallar Şurasının, AMEA Rəyasət Heyətinin, AMEA İctimai Elmlər Bölməsinin, AMEA Azad Həmkarlar Komitəsinin, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə YAP Laçın Rayon Təşkilatının, Laçın Rayon Mədəniyyət və Turizm Şöbəsinin Fəxri Fərmanlarına, "Vətən eşqi", "Yeni şans" və "Azərbaycan əsgəri" qəzetlərinin, habelə "Media Araşdırma Azərbaycan və Avropanın layihəsi əsasında "Azərbaycan

ziyalısı” fəxri diplomlarına, “Qafqaz-Media” İctimai Birliyinin təsis etdiyi “Xarı bülbül” medalına layiq görülmüşdür.

**Kitabları:**

1. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı**.** Bakı: “Elm”, 2007.
2. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında). Bakı: “Elm”, 2020.
3. “XIX-XX əsrin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda sənətkarlıq və ticarət (Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında)”. Bakı: “Elm”, 2023 .
4. Hacı Axund Molla Şükürün “Risaleyi-hürüf və xütüt” (Hərflər və xətlər risaləsi)**.** Bakı: “Qanun”, 2024.
5. XIX-XX əsrin əvvəllərində Qarabağ və Zəngəzurda etno-demoqrafik vəziyyət. Monoqrafiya. Bakı: 2024.

## 4.19. Sevinc Novruz qızı Əliyeva

*filologiya elmləri doktoru*



Sevinc Novruz qızı Əliyeva 2 iyun 1976-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1992-ci ildə Binəqədi rayonundakı 244 nömrəli orta məktəbi qızıl medalla, 1997-ci ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1998-2002-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstiutunun aspirantı olmuşdur. 2002-ci ildə Türk dilləri ixtisası üzrə "Orxon-Yenisey abidələrində toponimlər" mövzusunda namizədlik, 2017-ci ildə "Kitabi-Dədə Qorqud"dakı feillərin leksik-

semantik inkişafı (ədəbi dilin təşəkkülü kontekstində)" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Filologiya elmləri doktoru, dosentdir.

50-dən artıq beynəlxalq (Türkiyə, Misir, Polşa, Monteneqro, Bolqarıstan,Yunanıstan və s.) və respublika miqyaslı konfransların iştirakçısı və məruzəçisi, 100-ə yaxın elmi məqalə və üç monoqrafiyanın müəllifidir. İlk dəfə olaraq Orxon-Yenisey abidələrindəki toponimləri kompleks şəkildə tədqiq etmiş, onların Cənubi Qafqaz ərazisində paralellərini müəyyənləşdirmişdir. Həmçinin "Dədə Qorqud"dakı feilləri və dastanın söz yaradıcılığındakı (feil sistemində) alınmaları ədəbi dilimizin təşəkkülü kontekstində araşdıraraq semantik-struktur fərqliliklərini şərh etmişdir.

Türk dilləri ixtisası üzrə namizədlik və doktorluq dissertasiyalarına opponent, monoqrafiya və dərsliklərə redaktor, rəyçi olmuşdur.

AMEA Nəsimi adına Dilçilik İnstitutunda 2000– 2015-ci illərdə Gənc Alim və Mütəxəssislər Şurasının, 2016–2020-ci illərdə Həmkarlar təşkilatının sədri olmuşdur. Həmin illər-də Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar Nəsimi adına Dilçilik İnstitutunda yaradılan Monitorinq şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

2020–2024-cü illərdə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanına əsasən

yaradılan Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru olmuşdur.

Hazırda AMEA Nəsimi adına Dilçilik İnstitutunun Monitorinq və linqvistik təhlil şöbəsinin müdiri, İnstitutun Elmi və Dissertasiya şuralarının üzvüdür.

Ailəlidir, üç övladı var.

**Əsas əsərləri**

1. Orxon-Yenisey abidələrində toponimlər. Bakı, Elm, 2003, 152 s.
2. "Kitabi-Dədə Qorqud"un söz yaradıcılığında alınmalar (ədəbi dilin təşəkkülü kontekstində). Bakı, Elm və təhsil, 2014, 216 s.
3. "Kitabi-Dədə Qorqud"un mürəkkəb feilləri. Bakı, Elm və təhsil, 2017, 376 s.
4. Orxon-Yenisey abidələrində toponimlər. Ankara, Iksad, 2024, 155 s.

## 4.20. Səbinə Zöhrab qızı Qarayeva

*Tibb elmləri doktoru*



Səbinə Zöhrab qızı Qarayeva 16 sentyabr 1977-ci ildə Bakı şəhərində professor Zöhrab Qarayevin ailəsində dünyaya göz açmışdır. 1994-cu ildə Bakı şəhəri 151 nömrəli orta məktəbi "əla" qiymətlərlə bitirmişdir. 1994-cü ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsinə qəbul olunmuş, 2000-ci ildə universiteti əla qiymətlərlə (fərqlənmə diplomu) ilə bitirmişdir. Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarı ilə 2000-ci ildə müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasına klinik ordinaturaya göndərilmişdir.

Səbinə Qarayeva 2002-ci ildə Azərbaycan Tibb Universitetində pediatriya ixtisası üzrə aspiranturaya qəbul olunmuş və 2006-cı ildə "Qohum nigahdan doğulmuş erkən yaşlı uşaqların sağlamlıq vəziyyəti və fiziki inkişafı" mövzusunda dissertasiya işi müdafiə edərək tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Həmin il Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasına assistent vəzifəsinə qəbul edilmiş, 2012-ci ildə isə dosent vəzifəsinə seçilmişdir.

S.Qarayeva müəllimlik fəaliyyəti ilə yanaşı elmi tədqiqat işini davam etdirmiş və 2017-ci ildə "Bətndaxili inkişafın ləngiməsi olan uşaqların diaqnostikası, müalicəsi və sağlamlığının proqnozlaşdırılması" mövzusunda doktor-luq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 2022-ci ildə ATU-nun I Uşaq xəstəlikləri kafedrasında professor vəzifəsinə seçilmişdir.

Səbinə Qarayeva Azərbaycan Tibb Universitetində Azərbaycan, rus və ingilis dillərində tədris işi aparır. Paralel olaraq 2020-ci ildən İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında "Pediatriya" və "Təxirəsalınmaz vəziyyətlər" fənlərini tədris edir.

S.Qarayeva 2009-cu ildə Almaniya Federativ Respublikasının paytaxtı Berlində, 2012-ci ildə Türkiyədə, 2014-cu ildə Rusiyada (Moskva şəhəri), 2018-ci ildə Çin Xalq Respublikasında "Pediatriya" və "Neonatologiya" ixtisası üzrə klinik təcrübələr keçmişdir. Çap olunmuş 115 elmi işin və o cümlədən, üç seçilmiş vəsaitin müəllifidir. O, Türkiyə, Rusiya, Avstriya, Gürcüstan, Özbəkistan və digər ölkələrdə keçirilmiş Beynəlxalq konqreslərdə və simpoziumlarda müxtəlif mövzulu məruzələrlə çıxış etmişdir.

## 4.21.Pərvanə Bəkir qızı İsayeva

*Filologiya elmləri doktoru*




Pərvanə Bəkir qızı İsayeva 12 iyul 1969-cu ildə Bərdə şəhərində anadan olmuşdur, əslən Laçınlıdır. Sonradan ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür. 1977-1987-ci illərdə Bakı şəhəri Binəqədi rayon 99 saylı orta məktəbində orta təhsil almışdır. 1989-cu ildə Azərbaycan SSR Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda makinaçı vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1990-cı ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kadrlar üzrə baş inspektoru vəzifəsinə təyin edilmiş və ali məktəbə daxil olana kimi bu vəzifədə çalışmışdır.

Pərvanə İsayeva 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olmuş və 1995-ci ildə ali məktəbi bitirmişdir. Elə həmin il Nizami Gəncəvi adına Ədəbiyyat İntitutunun elmi arxivinə baş laborant vəzifəsinə təyin edilmişdir. P.İsayeva 1998-2001-ci illərdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda istehsalatdan ayrılmaqla doktoranturada təhsil almışdır. Doktorantura təhsilini bitirdikdən sonra, 2001-ci ildə həmin institutun Müasir ədəbi proses şöbəsində kiçik elmi işçi, 2003-cü ildə isə elmi işçi vəzifəsinə təyin edilmişdir. Pərvanə xanım 2003-cü ildə "Azərbaycan ədəbiyyatşünaslığında faciə janrının tədqiqi problemləri mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiəsi etmiş və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2004-cü ildən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində elmi fəaliyyətini davam etdirmişdir.

Pərvanə İsayeva 2005-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Ədəbiyyat nəzəriyyəsi şöbəsinə böyük elmi işçi vəzifəsinə təyin edilmişdir. 2005-2008-ci illərdə paralel olaraq Bakı Slavyan Universitetində "Azərbaycan ədəbiyyatı və jurnalistika" kafedrasının müəllimi vəzifəsində çalışmışdır. 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Humanitar və ictimai elmlər şöbəsinin müdir müavini vəzifəsinə təyin edilmiş, 2017-ci ilədək bu vəzifədə çalışmışdır.

P.İsayeva elmi fəaliyyətini davam etdirmiş və 2016-cı ildə "XX əsr Azərbaycan ədəbiyyatının bədii strukturu və mifopoetik təfəkkür (nəsr və dramaturgiya əsasında)" doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışdır.

2017-2025-ci illərdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat nəzəriyyəsi şöbəsinin baş elmi işçisi olmuşdur.

Pərvanə İsayeva 2023-2025-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Filologiya və pedaqogika elmləri üzrə Ekspert şurasının sədr müavini işləmişdir. 80-dən artıq elmi əsərin müəllifidir.

2007-ci ildə Pərvanə İsayevaya "I dərəcəli dövlət qulluqçusu", 2010-cu ildə "Dövlət qulluğunun kiçik müşaviri", 2013-cü ildə "Dövlət qulluğunun müşaviri", və 2016-cı ildə isə "Dövlət qulluğunun baş müşaviri" ixtisas dərəcələri verilmişdir.

Pərvanə xanım filologiya sahəsində xidmətlərinə görə bir neçə mükafatlarla dəyərləndirilmişdir.

Onun fəaliyyəti, Azərbaycan Yazıçılar Birliyi tərəfindən Azərbaycan dramaturgiyasının öyrənilməsində xidmətlərinə görə "Cəfər Cabbarlı" mükafatı (2024), Cəfər Cabbarlının ev muzeyi tərəfindən Fəxri Fərmanla (2024), AMEA Humanitar bölmənin Fəxri Fərmanı, Türkiyədə Kazım Qara Bəkir paşa forumunun təşəkkürnaməsi və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Təşəkkürnaməsi ilə qiymətləndirilmişdir.

Pərvanə İsayeva, 2025-ci ildə Bakı şəhərində vaxtsız vəfat etmişdir.

**Əsas əsərləri:**

1. "Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının
2. poetik strukturu" (2015).
3. "Mifopoetika və filoloji fikirdə mif konsepsiyaları" (2016).

4. “Faciə janrının poetikası və tədqiqi problemləri” (2017).
5. Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri (2018).
6. "Mito-Poetik ve Filolojik Düşüncede Mit Konseptleri” (2025, Türkiyə).
7. “XX əsr Azərbaycan dramaturgiyasında İblis obrazının dini-mifoloji qaynaqlarına dair” (2025).
8. “Dastan poetikası və nəsr” (2025).

# V Fəsil
# Dövlət icra strukturunda çalışanlar
## *İcra hakimiyyəti başçıları*
### 5.1. Xanlar Əliş oğlu Məmmədov
*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Xanlar Əliş oğlu Məmmədov 1940-cı ildə Laçın rayonunun Mişni kəndində anadan olmuşdur. Orta təhsilini Mişni kənd orta məktəbində almışdır. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1962-ci ildə həmin fakültəni bitirmişdir.

Xanlar Məmmədov 1963-cü ildə Alxaslı kənd orta məktəbində müəllim işləmişdir. 1966-cı ildə Laçın qəzetində

şöbə müdiri vəzifəsində çalışmışdır. 1967-ci ildə Azərbaycan LKGİ Laçın rayon komitəsinin ikinci katibi, 1968-ci ildə isə birinci katibi vəzifələrində işləmişdir. 1970-ci ildə Bakı Ali Partiya məktəbinin dinləyicisi olmuşdur. 1972-ci ildə Azərbaycan Kommunist Partiyası Laçın rayon komitəsinin təlimatçısı, 1975-ci ildə Azərbaycan Kommunist Partiyası Laçın rayon komitəsinin katibi olmuşdur.

1979-cu ildə Azərbaycan Kommunist Partiyası Laçın rayon komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır. 1985-ci ildə isə Laçın Rayon Xalq Deputatları Soveti İcrayə Komitəsinin sədri vəzifəsinə seçilmişdir.

1990-1995-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Ali Sovetinin 30 avqust 1991-ci il tarixdə keçirilmiş sessiyasında 340 xalq deputatları içərisindən seçilmiş, 50 nəfərdən ibarət Azərbaycan Ali Sovetinin Milli Surasının tərkibinə seçilmişdir.

Xanlar Məmmədov 1986-ci ildən 1991-ci ilədək Azərbaycan Kommunist Partiyası Laçın rayon komitəsinin birinci katibi, 1991-ci ildən isə deputat seçilənədək Laçın rayon icra hakimiyyətinin başçısı vəzifəsində çalışmışdır.

Xanlar Məmmədov 2002-ci il dekabr ayının 1-də Bakı şəhərində Laçın həsrəti ilə vəfat etmişdir.

Xanlar Məmmədov Laçında İcra başçısı olduğu müddətdə çoxsaylı layihələr həyata keçirmişdir. Yeni ATS-in qurulması, yeni çörək zavodunun tikintisi, müasir kitab evinin tikintisi, Sarı aşığın məqbərəsinin tikintisi belə layihələrdən idi. Ancaq Laçının işğalı nəticəsində bir çox layihələr və xüsusilə də Laçın şəhərinə Minkənd yaxınlığından bulaq suyunun çəkilməsi, yeni xəstəxananın tikintisi kimi böyük layihələr yarımçıq qaldı.

Xanlar Məmmədov laçınlıların böyük hörmət və məhəbbətini qazanmış ziyalı olmuşdur. Heç yerdə çap etdirməsə də gözəl şeirlər yazmışdır. Laçınsız keçirdiyi illərdə yazdığı bu şeirlərdən birini təqdim edirik.

**Uzaqda ölsəm**

Əgər o dağlardan uzaqda ölsəm,
Bilin, ölməmişəm, hələ sağam mən.
İstərdim alovtək çıxıb qəbirdən,
Çənə dönüb, o dağlara çıxam mən.

Duman olub dərəsilə sürünəm,
Bulud olub zirvəsinə qalxam mən.
Yağış olub təpəsinə çilənəm,
Selə dönüb yamacıyla axam mən.

Qənşərində əlim qoyub göz üstə,
Qatarına bir doyunca baxam mən.
Çınqılları dönə-dönə dolanıb,
Buz bulağı dodağıma sıxam mən.

Min bir çiçəyindən bir damcı məlhəm,
Yaralı sinəmə alıb yaxam mən.
Dağın boz daşından kaş bircə çilik,
Başdaşı yerinə tapıb taxam mən.

## 5.2. Elbrus Halay oğlu Təhməzov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Elbrus Halay oğlu Təhməzov 23 avqust 1946-cı ildə Laçın şəhərində ziyalı ailəsində anadan olmuşdur. Laçın şəhər 1 nömrəli orta məktəbi bitirmişdir. 1965-ci ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) Texnologiya fakültəsinə daxil olmuş və 1970-ci ildə həmin fakültəni bitirmişdir. Ehtiyatda olan zabitdir.

Elbrus Təhməzov təyinatla Laçın rayonuna göndərilmiş, 1970-ci ildə Laçın rayon əhaliyə məişət xidməti kombinatında əvvəlcə istehsalat sahə rəhbəri, sonra isə mühəndis vəzifəsində çalışmışdır.

Elbrus Təhməzov 1974–1994-cü illərdə Laçın rayonunda müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. Bu illərdə Laçın

Rayon İcrayyə Komitəsində Tikinti-memarlıq şöbəsinə, rayonun Təssərüfatlararası tikinti materialları istehsalat birliyinə, Laçın şəhər İcrayyə Komitəsinə, Rayon Partiya Komitəsində müvafiq şöbəyə, Aqronəqiliyyat müəsisəsinə, Yerli sənaye kombinatına rəhbərlik etmişdir. 1994–2000-ci illərdə Laçın Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışmışdır. 1994-cü ilin may ayından siyasi fəaliyyətini genişləndirmiş, qısa müddətdə rayonda Yeni Azərbaycan Partiyasının yerli təşkilatını yaradaraq həmin vaxtdan 2005-ci ilin sonunadək rayon təşkilatına sədrlik etmiş, partiyanın bütün qurultaylarında onun seçkili orqanlarında təmsil olunmuşdur. Yeni Azərbaycan Partiyası siyasi şurasının üzvüdür.

Elbrus Təhməzov 2000-ci il noyabrın 5-də Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Milli Məclisinin Aqrar siyasət komissiyasının daimi üzvü kimi ictimai-siyasi fəaliyyəti ilə yanaşı, bu səlahiyyətlərdən istifadə edərək rayonun məcburi köçkünlərinin sosial həyat şəraitlərinin daha da yaxşılaşması, onlara hökumət tərəfindən olunan güzəştlərin daha da artırılması istiqamətində geniş fəaliyyət göstərmişdir. 2002-ci ildə Nazirlər Kabineti tərəfindən əhaliyə göstərilən bəzi güzəştlərin məhdudlaşdırılması barədə məsələ Milli Məclisdə müzakirə olunarkən onun Milli Məclisin sədrinə xitabən etdiyi çıxışında “Cənab sədr, siz burada hansı qərar qəbul etməyinizdən asılı olmayaraq məcburi köçkünlərin həm mənəvi, həm də maddi atası olan möhtərəm Prezidentimiz Heydər Əliyev bizim istək və tələbatımızı müdafiə edən fərman imzalayacaqdır” çıxışından sonra Milli Məclisin iclasının video görüntülərini izləyən cənab Prezidentimiz həmin izləmədə iştirak edən “Dövlətqaçqınkom”un sədri Əli Həsənova tövsiyyə edir ki, “Laçınlı deputatın çıxışının surətini çıxardıb mənə

təqdim edərsən”. Ertəsi gün təqdim edilən həmin təkliflər Milli Məclis tərəfindən təsdiq olunur. Həmin vaxtdan indiyədək laçınlı məcburi köçkünlər kimi bütün məcburi köçkünlər həmin güzəştlərdən istifadə etməkdədirlər. Elbrus Təhməzov Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan sonra 71 saylı Laçın - Kəlbəcər seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə Laçından seçilən ilk deputat olmuşdur.

Prezidentin 15 mart 2005-ci il tarixli sərəncamı ilə Laçın rayonu İcra Hakimiyyətinin başçısı təyin olunduqdan sonra qanuna müvafiq olaraq Elbrus Təhməzovun deputat fəaliyyətinə xitam verilmişdir.

Elbrus Təhməzov 2005-ci ilin əvvəlindən 2007-ci ilin sonunadək Laçın rayon icra hakimiyyətinin başçısı vəzifəsində çalışmışdır. Birinci müavin və başçı işlədiyi müddətdə Taxta körpü ərazisində “Laçın obaları”nda və ayrı-ayrı rayonlarda məskunlaşan məcburi köçkünlərin sosial-iqtisadi həyatlarının yaxşılaşdırılmasına əhəmiyyətli köməkliklər göstərmişdir.

Elbrus Təhməzov 2008-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sabiq deputatı kimi təqaüdə çıxmışdır. Hazırda erməni ordusunun işğalından azad edilmiş doğma Laçın şəhərində yaşayır.

## 5.3. Sevindik Hacıağa oğlu Hətəmov

*Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı*



Sevindik Hacıağa oğlu Hətəmov 7 aprel 1961-ci ildə Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. 1980-ci ildə Güləbird kənd orta məktəbini bitirmişdir. Əmək fəaliyyətinə 1980-ci ildə başlamışdır. 1980-1981-ci illərdə Laçın rayonu Güləbird kənd orta məktəbində çilingər-montyor işləmişdir.

Sevindik Hətəmov 1981-ci ildə Azərbaycan Politexnik İnstitutunun Mühəndis-mexanik fakültəsinə daxil olmuş və 1986-cı ildə institutu bitirmişdir. Ali təhsil aldıqdan sonra Laçın rayonuna qayıtmış və 1987-ci ildə Laçın rayon Texniki Təhcizat Bazasında mühəndis, 1987-1989-cu illərdə böyük mühəndis, 1989-1990-cı illərdə Laçın rayon Maddi-Texniki

Təhcizat və Mexanikləşdirmə İstehsalat Birliyində mühəndis, 1990-1997-ci illərdə Laçın rayon Təsərrüfathesablı Tikinti Quraşdırma Sahəsində rəis vəzifələrində çalışmışdır. 1997-1999-cu illərdə "Güzdək" daş karxanasında direktor, 1999-2005-ci illərdə isə "Güzdək-Günay" firmasında direktor vəzifəsində işləmişdir. Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri olmuşdur.

Sevindik Hətəmov Laçın rayon əhalisinin böyük etimadını qazanaraq 2005-ci ildə Milli Məclisə deputat seçilmiş və 2005-2010-cu illərdə Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2012-ci ilin mart-aprel aylarında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində baş məsləhətçi olmuşdur.

Sevindik Hətəmov 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Yardımlı rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmiş və 2016-cı ilədək bu vəzifədə çalışmışdır. 2016-cı ildə Azərbaycan Respublikası prezidenti İlham Əliyevin Sərəncamı ilə Salyan rayonuna dəyişdirilmiş və 2024-cü ilədək Salyan rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmişdir. 17 sentyabr 2024-cü il tarixdə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. Hal-hazırda fəaliyyətini uğurla davam etdirir.

## 5.4. Aqil Ağaxan oğlu Nəzərli

*Laçın Rayon İcra Hakimiyyətinin başçısı*



Aqil Ağaxan oğlu Nəzərli 1976-cı il martın 10-da Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. 1983-cü ildə Laçın rayonunun Güləbird kənd tam orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ilin may ayına kimi orada oxumuşdur. 1992-ci ilin may ayında Laçın rayonunun ermənilər tərəfindən işğalından sonra ailəlikcə məcburi köçkün kimi Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində müvəqqəti məskunlaşmışlar. Orta təhsilini 1993-cü ildə orada başa vurmuşdur.

Aqil Nəzərli 1993-1998-ci ildə Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetinin hüquqşünaslıq fakültəsini və 2000-2002-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti ya-

nında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Ehtiyatda olan zabitdir.

Aqil Nəzərli 1999-2009-cu illərdə Laçın rayonu İcra Hakimiyyəti aparatının Hüquq şöbəsində hüquqşünas və Hüquq şöbəsinin müdiri vəzifələrində işləmişdir. 2009-cu il 12 iyun tarixdən 2016-cı il 16 iyun tarixinədək Laçın rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2012-2017-ci ilərdə Yeni Azərbaycan Partiyasının Laçın Rayon Təşkilatının sədri olmuşdur.

Aqil Nəzərli işlədiyi müddətdə bacarıqlı və təşkilatçı kadr kimi tanınmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il tarixli Sərəncamı ilə Laçın Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuşdur. Hazırda həmin vəzifədə çalışır.

Aqil Nəzərli İcra Hakimiyyətinin Başçısı kimi məcburi köçkün həyatı yaşayan laçınlıların məskunlaşdığı 58 rayonu bir-bir gəzir, onlarla səyyari görüşlər keçirir, həyat şəraitləri, qayğıları ilə yaxından tanış olur, onların qeydinə qalır və mümkün olan köməyini əsirgəmir. Fəaliyyəti boyu camaatla bir arada olması və vətənsevərliyi ona laçınlılar arasında böyük hörmət qazandırmışdır.

Aqil müəllimi bir laçınlı kimi cənab Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş Laçında aparılan bərpa-quruculuq işləri ürəkdən sevindirir.

A.Nəzərli ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ildə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə (1918–2018)” görə və 2023-cü ildə isə "Heydər Əliyevin 100 illiyinə (1923–2023)" görə yubiley medalları ilə təltif edilmişdir.

## 5.5. Akif İsmayıl oğlu Səlimov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Akif İsmayıl oğlu Səlimov 7 noyabr 1950-ci ildə Laçın rayonunun Qarıqışlaq kəndində ziyalı ailəsində anadan olmuşdur. 1966-cı ildə Laçın rayonu Qarıqışlaq kənd orta məktəbini, 1972-ci ildə isə Azərbaycan Politexnik İnstitutunu kimyaçı mühəndis-texnoloq ixtisası üzrə bitirmişdir.

1972–1974-cü illərdə SSRİ Silahlı qüvvələrində həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmət illərində leytenant rütbəsi almışdır.

1974-cü ilin oktyabr ayından 1975-ci ilin avqust ayınadək Qaradağ sement zavodunda usta, 1975-ci ilin avqust ayından 1976-cı ilin avqust ayınadək Laçın rayon Qarıqışlaq daş karxanasında mühəndis, 1976-cı ilin avqust ayından 1980-

ci ilin fevral ayınadək Laçın Təmir-tikinti idarəsində mühəndis, 1980-ci ilin fevral ayından 1982-ci ilin fevral ayınadək Laçın Tikinti materialları istehsalat birliyinin direktoru, 1982-ci ilin fevral ayından 1984-cü ilin oktyabr ayınadək Laçın Rayon Partiya Komitəsində təlimatçı vəzifələrində işləmişdir.

Akif Səlimov 1984-cü ilin oktyabr ayından fəaliyyətini polis (milis) orqanlarında davam etdirmişdir. Partiya xətti ilə Laçın rayon polis şöbəsinə siyasi hissə üzrə rəis müavini göndərilmiş, kapitan rütbəsilə bir neçə il bu vəzifədə işlədikdən sonra qiyabi yolla Volqaqrad Ali İstintaq Məktəbində ikinci ali təhsil almışdır. 1990-cı ilin noyabr ayında o zaman Respublika Daxili İşlər Naziri olan general Məhəmməd Əsədovun sərəncamı ilə Laçın Rayon Polis Şöbəsinə rəis təyin edilmişdir. 1994-cü ilin mart ayınadək Laçın Rayon Polis Şöbəsinin rəisi vəzifəsində çalışmışdır. 1994-cü ilin mart ayından 1996-cı ilin oktyabr ayınadək Goranboy Rayon Polis Şöbəsinin rəisi, 1996-cı ilin oktyabr ayından 2000-ci ilin oktyabr ayınadək Qax Rayon Polis Şöbəsinin rəisi, 2000-ci ilin oktyabr ayından 2006-cı ilin dekabr ayınadək Cəlilabad Rayon Polis şöbəsinin rəisi vəzifələrində çalışmışdır. A.Səlimov polis polkovniki rütbəsinədək yüksəlmişdir. Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş, bu müharibədə xüsusi önəm təşkil edən "Horadiz əməliyyatı"nda xüsusi qəhrəmanlıqlar və şücayət göstərən Laçın polis alayına rəhbərlik etmişdir. Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Horadiz ərazilərində aparılan qanlı döyüşlərdə qəhrəmanlıq göstərən, cəsarətlə, mərdliklə, qorxmazlıqla vuruşan Laçın polis dəstəsi bütün döyüş əməliyyatlarını bilavasitə polis polkovniki A. Səlimovun rəhbərliyi altında keçirmişdir.

Akif Səlimov polis orqanlarından təqaüdə çıxdıqdan sonra 2007-ci ilin yanvar ayından 4 mart 2013-cü il tarixədək

isə "Yaqub" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru vəzifələrində işləmişdir.

Uzun müddət polis orqanlarında rəhbər vəzifələrdə qüsursuz işləməsi, məcburi köçkün həyatı yaşayan laçınlılara yüksək qayğı və kömək göstərməsi nəzərə alınaraq Akif Səlimov Azərbaycan Respublikası Prezidentinin 4 mart 2013-cü il tarixli 2761 saylı Sərəncamı ilə Laçın Rayon İcra Hakimiyyətinin başçısı təyin edilmiş, 3 mart 2016-cı il tarixə kimi bu vəzifədə çalışmışdır.

2022-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Akif Səlimov yaradıcılıqla da məşğul olmuşdur. Onun aşağıda göstərilən adda kitabları da nəşr olunmuşdur.

***Kitabları***

1. Cığırlar birləşsələr…. Bakı: "Elm", 2008.
2. Ora Vətəndir. Bakı: "Sabah", 2009.

## 5.6. Ramiz Məhərrəm oğlu Cəbrayılov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Ramiz Məhərrəm oğlu Cəbrayılov 04 iyun 1961-ci ildə Laçın rayonunun Ağanus kəndində anadan olmuşdur. 1968-ci ildə Ağanus kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, ibtidai təhsilini həmin məktəbdə almışdır. Orta təhsilini 1978-ci ildə Laçın şəhər 1 nömrəli orta məktəbdə almışdır.

Əmək fəaliyyətinə fəhləliklə başlamışdır. 1978-1979-cu ildə Şuşa rayonundakı Ətçilik Sovxozunda işləmişdir. 1979-cu ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsinin birinci kursuna qəbul olub, 1984-cü ilə həmin fakültəni bitirmişdir. Təyinatla ixtisası üzrə Laçın rayonuna göndərilmişdir. 1 dekabr 1984-cü ildən 1 mart 1985-ci il tarixədək Laçın rayon Baytarlıq laboratoriyasında sereloq həkim işləmişdir.

Ramiz Cəbrayılov işlədiyi müddətdə özünün səriştəsi, bacarığı və təşkilatçılığı ilə seçilmişdir. 1985-ci il tarixdə komsomol orqanlarında işə cəlb edilmişdir. 1985-ci il tarixdən 1986-cı il tarixədək Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Laçın rayon komitəsində təşkilat şöbə müdirinin müavini işləmişdir. 1986-cı ildə irəli çəkilərək 1986-1987-ci illərdə Azərbaycan LKGİ Laçın rayon komitəsində ikinci katib vəzifəsində işləmişdir.1987-1992-ci illərdə Azərbaycan LKGİ Laçın rayon komitəsinin və sonra isə Laçın rayon Gənclər təşkilatının birinci katibi vəzifəsində çalışmışdır.

R. Cəbrayılov məsul vəzifələrdə çalışmaqla yanaşı, təhsilini də davam etdirmiş və 1986-1992-ci illərdə qiyabi yolla Bakı Sosial İdarəetmə və Politologiya institunda oxumuş, politoloq ixtisası almışdır. 1992-ci ildən 1994-cü ilədək Azərbaycan Baytarlıq Elmi Tədqiqat İnstitutunda kiçik elmi işçi işləmişdir.

1994-cü ildən 1996-cı il tarixədək Laçın rayon Məşğulluq mərkəzinin direktoru vəzifəsində çalışmışdır. 1996-cı il tarixdən 1997-ci il tarixədək 121 saylı Laçın Dairə Seçki Komissiyasının Sədri işləmişdir.

Ramiz Cəbrayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə dekabr 1997-ci ildə Laçın rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmiş, mart 2003-cü il tarixədək bu vəzifədə çalışmışdır. Ramiz Cəbrayılov Laçın rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışdığı dövrdə məcburi köçkünlük şəraitində yaşayan laçınlıların həyat və şəraitləri ilə yaxından tanış olmuş, onların normal yaşaması üçün xeyli köməklik göstərmişdir. Eyni zamanda müntəzəm olaraq laçınlı ziyalılarla əlaqə saxlamış, onlarla laçınlı məcburi köçkünlərin problemlərini

həll etmək, onlara kömək göstərmək məsələlərini müzakirə etmişdir.

R.Cəbrayılov 2003-cü ilin mart ayından hal hazıradək Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlığın təşkili və monitorinqi şöbəsində baş məsləhətçi vəzifəsində çalışır.

Birinci Qarabağ müharibəsi veteranı, ehtiyyatda olan kapitan Ramiz Cəbrayılov 1 noyabr 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dövlət Qulluğunda Fərqlənmə"yə görə medal ilə təltif olunmuşdur.

## 5.7. Azər Səfər oğlu Məmmədov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Azər Səfər oğlu Məmmədov 17 fevral 1954-cü ildə Laçın rayonunun Hoçaz kəndində anadan olmuşdur. 1971-ci ildə Laçın şəhər orta məktəbini bitirib həmin il Azərbaycan Politexnik institutunun memarlıq fakültəsinə daxil olmuş, 1976-cı ildə Politexnik İnstitutunun bazasında yeni yaradılmış Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsini bitirmişdir. Rayon rəhbərliyinin tələbnaməsi əsasında təyinatla Laçın rayonuna göndərilmişdir. 1976-cı ilin oktyabr ayının 16-da Laçın rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi Tikinti Memarlıq şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1984-cü ilədək həmən vəzifədə çalışmışdır. 1984-cü ildə Laçın Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir. 1989-cu ildə yeni yaradılmış

Laçın Rayon İcra Hakimiyyətində Tikinti Memarlıq şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Bu vəzifələrdə işlədiyi müddətdə Laçın şəhərinin və rayonun abadlaşdırılması işlərində böyük əməyi olmuşdur.

Azər Məmmədov Laçın rayonunun erməni ordusu tərəfindən işğalı dövründə - 1992-ci ildə Laçın Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuşdur. 1993-cü ildə öz xahişilə bu vəzifədən azad olunmuşdur.

A.Məmmədov dövlət qulluğunda işlədiyi dövrlərdə dəfələrlə yerli Sovetlərə deputat, RPK-nə Plenum üzvü seçilmişdir. 1994-1996-cı illərdə o vaxtkı AKP Mərkəzi Komitəsi nəzdində Marksizm Leninizm Universitetini bitirmişdir.

Azər Məmmədov 1993-cü ildən Bakı şəhərində "VAR" şirkətinin Baş direktoru, 1997-2002-ci illərdə xarici investisiyalı "Əmir-Var Compani" şirkətinin baş direktoru vəzifəsində çalışmışdır. 2002-ci ildən 2006-cı ilədək Ukrayna Respublikasının Odessa şəhərində Dekorativ Şüşə istehsalı fabrikinin direktoru vəzifəsində çalışmışdır. 2006-cı ildə Vətənə qayıdıb Bakı şəhərində memar kimi çalışmışdır. 2013-cü ildə "Azərsu" ASC-də Baş mütəxəssis - memar vəzifəsində çalışmışdır. 2025-ci ildə təqaüdə çıxmışdır. Həm sovetlər dönəmində Laçında, həm də Bakı, Sumqayıt şəhərlərində işlədiyi dövrlərdə onun layihələri əsasında xeyli müxtəlif təyinatlı obyektlər tikilmişdir. Hətta Moldovanın Kişinyov və Sınjerey şəhərlərində də A.Məmmədovun layihələri əsasında müəyyən obyektlər inşa edilmişdir.

## 5.8. Zakir Cabbar oğlu Cabbarov

*Laçın Rayon İcra Hakimiyyətinin sabiq başçısı*



Zakir Cabbar oğlu Cabbarov 22 dekabr 1937-ci ildə Laçın rayonunun Xırmanlar kəndində ziyalı ailəsində anadan olmuşdur. Xırmanlar kənd 7 illik məktəbi bitirdikdən sonra Laçın şəhər orta məktəbində orta təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Laçın Pedaqoji Texnikumunda oxuyub ibtidai sinif müəllimi ixtisası almışdır. Texnikumu bitirdikdən sonra hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) filologiya fakültəsinə daxil olmuşdur. Tələbəlik illəri ərzində əmək fəaliyyəti ilə məşğul olmuş, gecə polisinin rəisi vəzifəsində işləmişdir.

Zakir Cabbarov 1969-cu ildə universiteti müvəffəqiy-yətlə bitirərək Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası almışdır. Təyinatla Laçın rayonuna göndərilmiş və 1969-cu ildə Laçın rayon Xırmanlar kənd orta məktəbində Azərbaycan

dili və ədəbiyyatı müəllimi işləmişdir. Bir müddət sonra isə həmin məktəbə direktor vəzifəsinə təyin edilmişdir. 1975-ci ilədək bu vəzifədə çalışmışdır.

Zakir Cabbarov 1975-ci ildə Laçın rayon Təhsil Şöbəsinə gənclərin hərbi hazırlığı üzrə metodist vəzifəsinə təyin edilmişdir. Eyni zamanda Laçın rayonu üzrə təbiəti mühafizə idarəsinin sədri vəzifəsində işləmişdir.

Zakir Cabbarov 1991-1992-ci illərdə Azərbaycanın müstəqilliyi uğrunda gedən mübarizədə yaxından iştirak etmişdir. Ermənistan ordusunun Qarabağ və ətraf rayonları işğal etdiyi çox gərgin dövrdə - 1992-1994-cü illərdə Laçın rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmışdır. 1994-cü ildə yenidən təhsil sahəsinə qayıtmış və ömrünün sonuna kimi Laçın rayon Təhsil Şöbəsində gənclərin çağırışa qədərki hərbi hazırlığı üzrə metodist vəzifəsində çalışmışdır. 07 yanvar 2013-cü ildə Sumqayıt şəhərində vəfat etmişdir.

Zakir Cabbarovun kiçik oğlu 22.02.1973-cü il təvəllüdlü Cabbarov Elnur Zakir oğlu 1994-cü il dekabr ayının 28-də I Qarabağ müharibəsi zamanı Laçın Polis batalyonunun tərkibində Cəbrayıl rayonunun Cocuqmərcanlı kəndində erməni faşistləri ilə döyüşdə şəhid olmuşdur. Məzarı Sumqayıt Şəhidlər Xiyabanındadır.

Zakir Cabbarov istər rayon təhsil şöbəsində işlədiyi dövrdə, istərsə də Laçın rayon İcra Hakimiyyətinin başçısı işlədiyi vaxtlarda laçınsevərliyini göstərmişdir. O, Laçının gərgin zamanlarında və əhalinin yurd-yuvalarından didərgin düşdükləri dövrdə camaatla bir olmuşdur.

# VI Fəsil

# Qanunvericilik orqanlarında çaslışanlar

## 6.1. *Milli Məclisin üzvləri*

### 6.1.1. Rövşən Şahbaz oğlu Muradov



Rövşən Şahbaz oğlu Muradov 10 may 1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1977-ci ildə V.V.Mayakovski adına 20 nömrəli orta məktəbin (indiki Arif Hüseynzadə adına məktəb-liseyin) 1-ci sinfinə getmiş və həmin məktəbi 1987-ci ildə əla və yaxşı qiymətlərlə bitirmişdir. Həmin ildə də D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) plan-iqtisad fakültəsinin "Əməyin iqtisadiyyatı və sosiologiyası" ixtisası

üzrə əyani şöbəsinin 1-ci kursuna daxil olmuşdur. 1-ci kursu əla qiymətlərlə bitirdikdən sonra Sovet Ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılmış, 1988-1989-cu illərdə Sərhəd Qoşunlarının Azərbaycan Respublikasının Cəlilabad rayonunun Prişib qəsəbəsində yerləşən (indiki Göytəpə şəhəri) N saylı hərbi hissədə yefreytor rütbəsində baş nəzarətçi kimi hərbi xidmət keçmişdir. Hərbi xidmətdən təxris olunandan sonra 1989-1993-cü illərdə təhsilini davam etdirib institutu fərqlənmə diplomu ilə bitirmişdir. 1993-cü ildə gənc mütəxəssis kimi avqust ayının 2-dən Azərbaycan Dövlət İqtisad İnstitutunun "Sosioloji elmi tədqiqatlar laboratoriyası" na kiçik elmi işçi vəzifəsinə təyinat almışdır. 1994-cü ilin 28 sentyabr tarixində isə köçürmə yolu ilə Azərbaycan Respublikası Ali Sovetinin Milli Məclisinin İqtisadi siyasət daimi komissiyasına ekspert vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə 1994-cü ilin noyabr ayının 29-a kimi çalışmış, 1994-cü ilin 29 noyabr tarixindən 2004-cü ilin aprel ayının 14-ə kimi əvvəlcə Ali Sovet Katibliyinin Ümumi şöbəsində məsləhətçi, sonra Milli Məclis Katibliyinin Ümumi şöbəsində böyük məsləhətçi, daha sonra isə Milli Məclis Aparatının Ümumi şöbəsində baş məsləhətçi vəzifələrində işləmişdir. 2004-cü ilin aprel ayının 14-dən 2024-cü ilin 21 sentyabr tarixinədək isə Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsində əvvəlcə 14 aprel 2004-cü il-01 mart 2006-cı illərdə şöbə müdirinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri üzrə qanunvericilik sektorunun müdiri, sonra 1 mart 2006-cı il - 28 avqust 2010-cu illərdə Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri üzrə qanunvericilik sektorunun müdiri, 28 avqust 2010-cu il - 1 fevral 2014-cü illərdə Maliyyə və büdcə məsələləri üzrə qanunvericilik sektorunun müdiri, 01 fevral

2014-cü il - 01 may 2020-ci illərdə şöbə müdirinin müavini, 01 may 2020-ci il - 21 fevral 2021-ci illərdə İqtisadi və sosial qanunvericilik şöbəsində şöbə müdirinin müavini, 21 fevral 2021-ci ildən 21 sentyabr 2024-cü ilədək isə İqtisadi qanunvericilik şöbəsinin müdir müavini vəzifəsində işləmişdir.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin 1 aprel 2005-ci il tarixli, 179-II-№-li Sərəncamı ilə əvvəlcə Dövlət qulluğunun baş müşaviri, sonra isə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli, 1275 №-li Sərəncamı ilə isə 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi verilmişdir. Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Dövlət qulluqçularının təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2013-cü il tarixli 2978 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə medalı" ilə təltif edilmişdir.

Rövşən Muradov Milli Məclisdə işləməklə yanaşı, əvəzçiliklə elmi-pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1997-ci ilin may ayının 30-da İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.0004.0501 İxtisaslaşdırılmış Dissertasiya Şurasında "Bazar iqtisadiyyatına keçid şəraitində əhalinin məşğulluq quruluşunun formalaşdırılması və təkmilləşdirilməsi problemləri" mövzusunda iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün 08.00.07 "Əməyin iqtisadiyyatı" ixtisası üzrə dissertasiya işi müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 noyabr 1997-ci il tarixli qərarı ilə iqtisad elmləri namizədi elmi dərəcəsi, 26 sentyabr 2006-ci il tarixli qərarı ilə isə dosent elmi adı verilmişdir. 1999-cu ildə müsabiqədən keçməklə AEA-nın

doktoranturasına qəbul olmuş və oranı 2003-cü ildə müvəffəqiyyətlə bitirmişdir.

Rövşən Muradov 02 yanvar 2004-cü ildən AMEA-nın İqtisadiyyat İnstitutunun "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı" şöbəsində əvvəlcə 0,5 ştat əvəzçiliklə aparıcı elmi işçi, 01 noyabr 2013-cü ildən 01 mart 2016-cı ilədək isə baş elmi işçi vəzifəsində işləmişdir.

R.Muradov 2015-ci il noyabr ayının 25-də AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.181 dissertasiya şurasında "Azərbaycan Respublikasında əmək potensialının formalaşması və istifadəsinin sosial-iqtisadi və demoqrafik problemləri" mövzusunda iqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün 5308.01 "Ümumi iqtisadiyyat" ixtisası üzrə dissertasiya işini müdafiə etmiş və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 21 oktyabr 2016-cı il tarixli qərarı ilə iqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

R.Muradov 1994-2018-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin müxtəlif kafedralarında əvəzçiliklə asistent, müəllim, baş müəllim, dosent, professor kimi müxtəlif ixtisas fənlərini tədris etməklə elmi-pedaqoji fəaliyyət göstərmişdir. Hazırda isə "Biznes və logistika" kafedrasının 0,5 ştat əvəzçiliklə professor vəzifəsində çalışmaqla "Menecmentin əsasları", "Strateji menecment" fənlərini tədris edir.

Rövşən Muradov ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya, Avstriya, Litva, Gürcüstan və bir çox başqa ölkələrdə keçirilən beynəlxalq, regional və yerli konfranslarda, seminarlarda, treninqlərdə iştirak etmiş, diplom və sertifikatlara layiq görülmüşdür. İri həcmli 5 monoqrafiya və 100-dək elmi əsərləri Azərbaycanda və xarici ölkələrdə çap edilmişdir.

Azərbaycan Texniki Universitetinin Doktorluq Dissertasiya Şurasının, Azərbaycan Dövlət İqtisad Universitetinin isə Elmi seminarının üzvü kimi fəaliyyət göstərir.

Rövşən Şahbaz oğlu Muradov 01 sentyabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Milli Məclisində keçirilən VII çağırış növbədənkənar seçkilərdə 121 saylı Laçın seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir. Deputatlıq fəaliyyəti dövründə dəfələrlə i.ğaldan azad edilmiş Laçın şəhərində olmuş və seçiciləri ilə görüşlər keçirmişdir. Eyni zamanda Rövşən Muradov Bakıda, Sumqayıt şəhərində və Ağzəbədidə "Taxta körpü" ərazisində müvəqqəti məskunlaşmış seçiciləri ilə dəfələrlə görüşmüş, onların problemləri ilə maraqlanmışdır və imkan dairəsində köməyini göstərmişdir.

Evlidir, iki övladı vardır.

## 6.1.2. Müşfiq Fazil oğlu Məmmədli

*Milli Məclisin üzvü*



Müşfiq Fazil oğlu Məmmədli, 01 avqust 1972-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 01 sentyabr 1979-cu ildə Sumqayıt şəhər 3 nömrəli orta məktəbə daxil olmuş və 1989-cu ildə Sumqayıt şəhəri 25 saylı orta məktəbi bitirmişdir. 1989-cı ildə Semaşko adına 1 saylı Bakı şəhər kliniki xəstəxanasında kiçik tibb işçisi (sanitar) kimi fəaliyyətə başlamışdı. 1990-cı ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnsitutunun pediatriya fakültəsinə daxil olmuş və 1996-cı ildə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsini bitirmişdi. O, həkim-pediatr, səhiyyə təşkilatlarının meneceri ixtisasını almışdı. 1996-1997-ci illərdə Sumqayıt şəhər Uşaq

Xəstəxanasında həkim-interna kimi fəaliyyət göstərmişdir. 1997-2000-ci illərdə Sumqayıt şəhər Uşaq Xəstəxanasının qəbul şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Müşviq Məmmədli 2000-2003-cü illərdə Türkiyə Respublikasının İstanbul şəhərində Bəylərbəyi Sağlıq Sarayı, Kocaeli bölgəsi - Bayramoğlu Bələdiyyə Xəstəxanasında həkim-pediatr kimi çalışmışdır. Sonra o Azərbaycana gəlmiş, 2004-2006-cı illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 703 saylı hərbi hissəsində tibb məntəqəsinin həkimi və rəisi vəzifələrində işləmişdi. 2006-2008-cı illərdə Sumqayıt TTYS-də çağırışçı-pediatr vəzifəsində çalışmış, 2008-2016-ci illərdə isə Sumqayıt şəhər Uşaq Xəstəxanasında həkim və şöbə müdiri vəzifələrində işləmişdir. Fəaliyyəti nəzərə alınaraq 2016-2020-ci illərdə ehtimad göstərilərək, Sumqayıt şəhər Uşaq Xəstəxanasının baş həkimi vəzifəsinə təyin olunmuşdur. Müşviq müəllim daima özü üzərində çalışır və təhsilinin artırılması qayğısına qalır. Beləki, 2014-2016-cı illərdə Sankt-Peterburq Dövlət İqtisad Universitetində təhsil alaraq, Ali İqtisad Məktəbini də bitirmişdir.

Çalışdığı bütün sahələrdə Müşviq Məmmədli özünü yaxşı həkim, dövlətinə və xalqına bağlı bir insan kimi tanınmışdır. Elə bu müsbət keyfiyyətlərin nəticəsi olaraq o, 2020-2024-cü illərdə 55 saylı Siyəzən-Quba-Xızı dairəsindən, Azərbaycan Respublikası VI çağırış Milli Məclisinin deputatı seçilmişdir. Sonuncu 2024-cü il parlament seçkilərində 44 saylı Sumqayıt-Xızı dairəsindən Azərbaycan Respublikası VII çağırış Milli Məclisinin deputatı seçilmişdir. Milli məclisdə Səhiyyə, Elm və təhsil komitələrinin üzvü kimi fəaliyyət göstərir. Braziliya işçi qrupunun rəhbəri, Çin, Finlandiya, İraq,

Qazaxıstan, Monteneqro, Özbəkistan, Serbiya, Türkiyə, Ukrayna, Venesuela, Panama işçi qrupunun isə üzvüdür.

Müşfiq Fazil oğlu Məmmədli, 2007-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü və Ehtiyatda olan Tibb Xidməti Baş leytenantıdır. Fəaliyyəti layiqincə dəyərləndirilmişdir. O, ADPU-nin 100 illiyi (1921-2021) və Heydər Əliyevin 100 illiyi (1923-2023) yubiley medalları ilə təltif olunmuşdur.

## 6.1.3. Mahir Tapdıq oğlu Abbaszadə

*Milli Məclisin sabiq üzvü*



Mahir Tapdıq oğlu Abbaszadə 27 oktyabr 1975-ci ildə Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. 1982-1992-ci illərdə Güləbird kənd orta məktəbində orta təhsil almışdır. 1997-ci ildə Bakı Dövlət Universitetinin İqtisadi nəzəriyyə fakültəsini bitirmişdir. 1997-2001-ci illərdə Güzdək tikinti materialları kombinatında kadrlar şöbəsinin rəisi vəzifəsində işləmişdir. 2001-2003-cü illərdə Azərbaycan Beynəlxalq Bankında Xidmət bölməsi üzrə mütəxəssis vəzifəsində çalışmışdır. 2003-2004-cü illərdə Zamin Bank ASC Gənclik filialında mühasib, xəzinə müdiri, 2024-2025-ci illərdə isə filialın müdiri vəzifələrində işləmişdir. 2018-ci ildən

hal-hazıra kimi Nazirlər Kabineti yanında Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunda direktor vəzifəsində çalışır.

Mahir Abbaszadə elmi fəaliyyətlə də məşğul olmuş, 2012-ci ildə "Sənaye müəssisələrində investitsiya imkanları (problemlər və perspektivlər)" mövzusunda dissertasiya işi müdafiə edərək iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Mahir Tapdıq oğlu Abbaszadə özünün fəaliyyəti ilə laçınlıların böyük hörmət və etimadını qazanmış, 2015-2024-ci illərdə V və VI çağırış Azərbaycan Respublikası Milli Məclisin deputatı olmuşdur. Deputat olduğu müddətdə Milli Məclisdə qanunların qəbulunda və məsələlərin müzakirəsində göstərdiyi fəllığı ilə seçilmişdir. Kütləvi informasiya vasitələrində etdiyi maraqlı çıxışları yaddaqalan olmuşdur.

Mahir müəllim, xüsusilə deputatlıq fəaliyyəti dövründə seçiciləri ilə mütamadi əlaqə saxlamış, onların arzu və istəklərini yerinə yetirməyə çalışmışdır. Belə ki, o məcburi köçkün həyatı yaşayan laçınlılarla keçirilən ardıcıl görüşlərində onların problemləri ilə yaxından tanış olmuş və imkanı daxilində öz köməyini əsitgəməmişdir.

## 6.1.4. Səlim İsmayıl oğlu Səlimov

*Milli Məclisin sabiq üzvü*



Səlim İsmayıl oğlu Səlimov 11 oktyabr 1941-ci ildə Laçın rayonunun Xaçınyalı kəndində anadan olmuşdur. Yeddiillik təhsilini Piçənis kəndində, orta təhsilini isə Kürdhacı kənd orta məktəbində almışdır. Əmək fəaliyyətinə 1961-ci ildə Bakı şəhərində başlamış və Bibiheybətdəki gəmi təmiri zavodunda qaynaqçı köməkçisi işləmişdir. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş və 1968-ci ildə universiteti bitirmişdir. Ali Təhsil aldıqdan sonra Laçına qayıtmış və 1968-ci ildə Laçın rayon Komsomol Komitəsində "Pioner və Məktəbli Gənclər şöbəsinin müdiri vəzifəsində fəaliyyətə başlamışdır.

1971-ci ilədək Səlim Səlimov bu vəzifədə çalışmış, 1971-ci ildə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Laçın rayon Komsomol Komitəsinin katibi vəzifəsinə təyin olunmuş və 1973-cü ilədək bu vəzifədə çalışmışdır.

Səlim Səlimov 1971-ci ildə 56 nömrəli seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. 1973-1975-ci illərdə Bakı Ali Partiya Məktəbində oxumuşdur. 1975-1979-cu illərdə 14-cü və 15-ci çağırış Laçın rayon sovetinə deputat seçilmişdir.

Səlim Səlimov 1975-ci ildə Azərbaycan Kommunist Partiyasının Laçın rayon Komitəsinin ümumi şöbə müdiri vəzifəsinə təyin edilmişdir. 1979-cu ildə irəli çəkilərək Azərbaycan Kommunist Partiyası Laçın rayon Komitəsinin üçüncü katibi vəzifəsinə təyin edilmiş və 1985-ci ilə kimi bu vəzifədə çalışmış, fəaliyyətini uğurla davam etdirmişdir. 1985-ci ildə Azərbaycan Kommunist Partiyası Laçın rayon Komitəsinin ikinci katibi vəzifəsinə seçilmişdir.

S.Səlimov 1986-cı ildə Laçın Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin Sədri vəzifəsinə təyin olunmuş və bu sahədə də özünün yüksək təşkilatçılıq qabiliyyətini, bilik və bacarığını göstərmişdir. 1991-ci ilin dekabr ayına kimi bu vəzifədə çalışmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra 18 dekabr 1991-ci il fərmanına uyğun olaraq respublikamızda İcraiyyə Komitələri ləğv edilmiş və onun bazasında Laçın Rayon Soveti yaradılmışdır. Səlim Səlimov onun sədri seçilmiş, 1995-ci ilədək bu vəzifədə fəaliyyətini davam etdirmişdir.

Səlim Səlimov 1992-ci ildə müstəqil respublikamızın ilk parlamentinə deputat seçilmiş və olduqca çətin bir dövrdə bu vəzifəsini də ləyaqətlə yerinə yetirmişdir.

Səlim Səlimovun Laçın Rayon Sovetinin sədri kimi rayonun inkişafında xeyli əməyi olmuşdur. İşğaldan əvvəl Laçın-Kəlbəcər avtomobil yolunun çəkilməsində mühüm rolu olmuşdur. 1992-ci ildə məcburi köçkün düşən laçınlıların məskunlaşmalarına, qarşılaşdıqları bir çox problemlərin həll edilməsinə yaxından köməklik göstərmişdir.

Səlim müəllim fəaliyyəti boyu öz elinə-obasına bağlı, təmənnasız xidmət edən rəhbər işçılərdən və dəyərli ziyalılarımızdan biri olmuşdur. Onu tanıyanların birağızdan dedikləri kimi, hələ rayon Komsomol Komitəsində işlədiyi illərdən vətənsevərliyi ilə tanınmışdır. Deyilənlərə görə Laçına gələn bütün qonaqları Laçının görməli yerlərinə- Qara gölə, Abatxeyir dərəsinə, Minkənd İstisuyuna, Qırxqıza, Sarı babaya, Şəlvə dərəsinə, Ağoğlan məbədinə aparmış, Laçının adlı-sanlı ziyalıları, ağsaqqalları ilə görüşdürüb Laçın haqqında maraqlı təssürat yaratdırarmış.

Laçının dəyərli ziyalısı Nizami müəllimin İsmayılovun yazdıqlarına və rayon sakinlərinin dediklərinə görə o hələ Rayon İcrayyə Komitəsinin sədri işlədiyi illərdə öz kabinetində oturmazmış. Daima xalqın içərsində olub, onların problemlərini yerindəcə öyrənib və elə yerində də həll edərmiş.

Səlim Səlimov Laçının işğalından əvvəl rayonun təhlükəsizliyi naminə sərhəd məsələlərində rus zabitləri ilə münasibət yaratmaq işində, polisə kömək göstərilməsində, onların silahlandırılmasında və səfərbərlik işlərində gecə-gündüz çalışmışdı. O zözünü deyən, qorxmaz, xalqını sevən  və onunla bir yerdə olan  sadə bir laçınlı olmuşdur.

Səlim müəllim fəaliyyətinin çiçəkləndiyi bir dövrdə, 23 mart 2024-cü ildə Laçın həsrəti ilə dünyadan köçmüşdür.

## 6.1.5. Nazim Fərəc oğlu Fərəcov

*Milli Məclisin sabiq üzvü*



Nazim Fərəc oğlu Fərəcov 1960-cı ildə Laçın rayonunun Qazıdərə kəndində anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirmişdir. Həmin il Laçın rayonundakı XXII qurultay adına kolxozda əmək fəaliyyətinə başlamışdır. 1978-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) qəbul olmuşdur. Ali təhsil aldıqdan sonra hərbi xidmətdə olmuşdur. 1983-cü ildə əmək fəaliyyətini Sumqayıt şəhərində davam etdirmişdir. 1995-1996-cı illərdə Sumqayıt şəhər Ticarət İdarəsinin baş direktorunun

müavini vəzifəsində çalışmışdır. 1996-1998-ci illərdə Sumqayıt şəhər İctimai İaşə tirestinin müdiri vəzifəsində işləmişdir.

1999-cu ildən 2006-cı ilədək Dövlət Əmlak Komitəsinin Sumqayıt şəhər şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 2006-2009-cu illərdə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Bakı şəhər Əhalinin Sosial Müdafiəsi İdarəsinin müdiri vəzifəsində işləmişdir. 2009-2010-cu illərdə Dövlət Sosial Müdafiə Fondunun Sumqayıt şəhər Şöbəsinin müdiri vəzifəsində işləmişdir. 2010-2015-ci illərdə IV çağırış Milli Məclisin deputatı olmuşdur. Hazırda təqaüddədir.

# 6.2.Azərbaycan SSR Ali Sovetinin deputatları

## 6.2.1.Şərqiyyə Əkbər qızı Vəliyeva

*Sabiq Ali Sovetin deputatı, Sosialist Əməyi Qəhrəmanı*



Şərqiyyə Əkbər qızı Vəliyeva 01 iyul 1936-cı ildə Laçın rayonunun Piçənis kəndində anadan olmuşdur. Orta təhsil almışdır. Laçın rayonunun Nağdalı kəndində - o zaman rayonda yeganə sovxoz olan Nağdalı sovxozunda sağıcı işləmişdir. Öz zəhməti və əməyi ilə respublikada birincilər sırasında olmuşdur. Əməkdə qazandığı nailiyyətlərinə görə Sovet dövrünün ən yüksək mükafatı olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. 269 sayılı Laçın rayonu Pircahan

seçki dairəsindən 7-ci və 8-ci çağırışla Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Şərqiyyə Vəliyeva sovet dövlətinin bir çox ali mükafatlarına layiq görülmüşdür. 22 mart 1966-cı ildə Lenin ordeni, 6 sentyabr 1973-cü ildə yenə də Lenin ordeni, "Şərəf nişanı" ordeni, 8 aprel 1971-ci ildə "Oktyabr inqilabı" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni , 23 fevral 1981-ci ildə isə "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmuşdur.

2002-ci ildə Ulu öndər Heydər Əliyevin sərəncamı ilə Şərqiyə Vəliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir. Prezident təqaüdçüsüdür. 2023-cü ildə isə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir.

Şərqiyyə Vəliyeva şəhid anasıdır. Birinci Qarabağ müharibəsində üç oğlu iştirak etmiş və Vətən yolunda qəhrəmancasına həlak olmuşlar. Oğlu Vəliyev Füzuli Sabir oğlu döyüş vertaliyotunun komandiri olmuş, 252 uçuş etmiş və sonuncu uçuşda verolyotu düşmənlər tərəfindən vurulmuş və şəhid olmuşdur. Digər oğlu Vəliyev Vidadi Sabir oğlu da birinci Qarabağ müharibəsində döyüşmüş, ağır yaralanmış və aldığı zədələrdən dünyasını dəyişmişdir. Üçüncü oğlu Vəliyev Xaliq Sabir oğlu da həmin dövrdə vəfat etmişdir.

Şərqiyyə Vəliyeva təkcə əməyi ilə deyil, özünün vətənpərvərliyi, şəxsiyyəti və ləyaqəti ilə də laçınlıların böyük hörmətini və rəğbətini qazanmışdır.

## 6.2.2.Familə Savalan qızı Həşimova

*Sabiq Ali Sovetin deputatı,*
*Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenli*



Familə Savalan qızı Həşimova 1936-cı ilin iyun ayının 15-də Laçın rayonunun Cicimli kəndində zəhmətkeş ailədə doğulmuşdur.

Uşaqlığı müharibə illərinə düşən Familə atasını erkən yaşında itirmişdir. 1944-52-ci illərdə Cicimli kəndindəki 7 illik məktəbi yaxşı oxuyub bitirsə də, çətinliklər ucbatından təhsilini davam etdirə bilmir. Sonralar kənddə açılan axşam məktəbində orta təhsil almışdır.

Familə Həşimova hələ kiçik yaşlarında fermada sağıcı işləyən anasına kömək etməyə başlayır. 1953-cü ildən kolxoz işində müxtəlif sahələrdə çalışmışdır. Çalışdığı hər sahədə öndə gedən qabaqcıl işçilərdən olmuşdu. 1967-ci ildə fermada sağıcı işləməyə başlamışdır. Bu sahədə yüksək nailiyyətlər əldə etmişdir. Laçın rayonunda qabaqcıl sağıcılardan biri kimi tanınmışdır. Dövlət tərəfindən əməyi yüksək qiymətləndirilmişdir. İki dəfə "Qırmızı Əmək Bayrağı", bir dəfə "Şərəf nişanı" ordenləri, müxtəlif medallar və fəxri fərmanlarla təltif edilmişdir. Rayonun ictimai həyatında, dövlət tədbirlərində fəal iştirak etmişdir.

Familə Həşimova IX çağırış Azərbaycan SSR-nin Ali Sovetinə deputat seçilmişdir. Deputatlıq fəaliyyəti dövründə Cicimli-Laçın yolunun təmiri, məktəb binasının təmiri və s. işlərin görülməsi üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırmış və icrasına nail olmuşdur.

1986-cı ildə təqaüdə çıxan Familə Həşimova 1990-cı ildə kənddə yeni açılmış tikiş sexində yenidən fəaliyyətə başlamışdır. 1992-ci ilin may ayında Ermənistanın ölkəmizə hücumu nəticəsində ömür boyu çalışaraq tikdikləri evlərini, becərdikləri bağ-bağatını qoyaraq, məcburiyyət qarşısında ailəsi ilə birlikdə oğlu Hidayətin Bakı şəhəri, Yeni Günəşli qəsəbəsindəki evində məcburi köçün kimi yaşamağa məcbur olmuşdur. Hal-hazırda da Bakı şəhərində yaşayır.

Familə Həşimova Vətənə layiq övladlar böyüdüb tərbiyə etmişdir. Övladları Muxtar və Xaqani Həşimovlar I və II Qarabağ müharibəsində düşmənə qarşı şərəflə döyüşmüşlər.

## 6.2.3.İsgəndər Əziz oğlu İsgəndərov

*Sabiq Ali Sovetin deputatı*



İsgəndər Əziz oğlu İsgəndərov 1916-cı ildə Laçın rayonunun Aşağı Fərəcan sovetliyinin Xanallar kəndində anadan olmuşdur. 1940-cı ildən kommunist partiyası sıralarına qəbul olmuşdur. O, 1941-1942-ci illərdə II Dünya müharibəsində (Alman - Sovet müharibəsi) iştirak etmiş, alman faşistlərinə qarşı döyüşlərdə iştirak etmişdir. Döyüşlərdə ağır yaralanmış, arxa cəbhədə müalicə keçəndən sonra hərbi xidmətdən təxris edilmişdir.

1943-cü ildən uzun müddət Laçın rayonu, "Kommunist" kolxozunun mühasibi vəzifəsində çalışmış, 1958-ci

ildə isə "Kommunist" kolxozu idarə heyyətinin sədri seçilmişdir. Uzun müddət Laçın rayon partiya komitəsinin büro üzvü, rayon sovetinin deputatı kimi rayonun ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

Laçın rayonundan iki dəfə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. Deputat olduğu müddətdə Azərbaycan SSR Ali Sovetinin plan-büdcə komissiyasının üzvü olmuşdur. Kolxoz sədri vəzifəsində çalışdığı müddətdə "Kommunist" kolxozu rayonun ən qabaqcıl təsərrüfatlarından birinə çevrilmişdir.

Həyatının son illərində Aşağı Fərəcan kənd soveti icraiyyə komitəsinin sədri vəzifəsində çalışmışdır.

İskəndər İsgəndərov İttifaq əhəmiyyətli fərdi pensiyaçı olmuşdur. 1983-cü ildə vəfat etmişdir.

## 6.2.4. Mirzə Ələsgər oğlu Cabbarov

*Sabiq Ali Sovetin deputatı*



Mirzə Ələsgər oğlu Cabbarov 1936-cı ildə Laçın rayonunun Qarakeçdi kəndində anadan olmuşdu. Kiçik yaşlarından Lenin adına kolxozda əmək fəaliyyətinə başlamış, Hərbi xidmətini başa vurduqdan sonra öz fəaliyyətini çoban kimi həmin kolxozda davam etdirmişdir. Onun çalışdığı briqada 1969-1990-cı illər ərzində sosialist beşilliklərinin və sosializm yarışlarının qalibi olmaqla bərabər, həm də respublikanın ən qabaqcıl briqadası olaraq tanınmışdır.

Fəaliyyəti ilə Laçında və hətta respublikada tanınan Mirzə Cabbarov 1980-1991-ci illərdə 10-cu və 11-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Həmin illərdə Laçın rayonunun qış yataqlarına daş yolun, elektrik xətlərinin çəkilişi, su-artezan quyularının qazılması, bir sıra təssərüffatlarda daş binaların tikilməsi də Mirzə Cabbarovun adı ilə bağlıdır. Eyni zamanda Laçın rayonunun ərazisində yerləşən yaylaqlara avtomobil yollarının çəkilməsində və digər yol infrastrukturlarının qurulmasında da Mirzə Cabbarovun xidmətləri böyük olmuşdur.

Mirzə Cabbarovun əməyi həmin dövrdə dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Əməkdə fərqləndiyinə görə 3-cü dərəcəli Əməkdə Şöhrət ordeni və bir çox medallarla təltif edilmişdir. Eyni zamanda o bir çox fəxri fərmanlara, pul və digər qiymətli mükafatlara layiq görülmüşdür. Mirzə Cabbarov 2007-ci ildə Bakı şəhərində Laçın həsrəti ilə dünyasını dəyişmişdir.

## VII Fəsil. Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri
### İlqar Süleyman oğlu İlyasov



İlqar Süleyman oğlu İlyasov 15 dekabr 1972-ci ildə Laçın rayonu İrçan kəndində anadan olmuşdur. O, 1989-cu ildə Ağanus kənd orta məktəbini bitirmişdir. 1991-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun politologiya fakültəsinə daxil olmuş, 1996-cı ildə həmin İnstitutu bitirərək politoloq, ali və orta təhsil müəssisələrində sosial-siyasi fənlər müəllimi ixtisasına yiyələnmişdir.

Ataların yaxşı bir sözü var: "ot kökü üstündə bitər". Əmək fəaliyyətinə 1996-cı ildə başlayan İlqar müəllim öz bilik və bacarığına, Vətənə və xalqa təmənnasız xidmət nümunəsi olan zəhmətkeşliyinə, əməksevərliyinə güvəndiyi üçün hələ

gənc yaşlarından böyük etimad qazanmış, müxtəlif məsul vəzifələrə irəli çəkilmişdir. O, hər zaman tapşırılan işlərin öhdəsindən layiqincə gəlmiş, özünü təşəbbüskar, prinsipial, dərin biliyə və geniş erudisiyaya malik, sədaqətli və püxtələşmiş bir kadr kimi tanıtmışdır. 2 avqust 1996 - 25 fevral 1997-ci illərdə "İlkay" Nəşriyyat Poliqrafiya müəssisəsində redaksiya şöbəsinin redaktoru, 1 mart 1997 - 6 sentyabr 1997-ci illərdə 215 saylı hərbi hissədə bölük komandirinin müavini, 6 sentyabr 1997 - 5 iyul 1999-cu illərdə 511 saylı hərbi hissədə təbliğatçı-ədəbiyyatçı və hərbi hissə komandirinin müavini, 25 iyul 1999 - 5 sentyabr 1999-cu il-lərdə Laçın rayonu Arıçılıq Məhsulları İstehsalı Kooperativinin sədr müavini, 5 sentyabr 1999 - 2 iyul 2009-cu illərdə "Azad Azərbaycan" Teleradio Kompaniyası və "Azad Azərbaycan" qəzetinin şöbə müdiri vəzifələrində çalışmışdır.

Şəxsi keyfiyyətləri və iş qabiliyyəti İlqar İlyasovun müxtəlif vəzifələrə yüksəlməsi üçün əsas zəmin olmuşdur. İnsanlarla işləmək, onlara qayğı ilə yanaşmaq İlqar müəllimi səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Məhz bu müsbət keyfiyyətləri sayəsində 11 iyul 2009-cu ildə Laçın rayon İcra Hakimiyyəti Başçısının Fətəlipəyə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi, 11 noyabr 2009 - 27 may 2013-cü illərdə Laçın rayon Mədəniyyət və Turizm Şöbəsində şöbə müdiri, 1 sentyabr 2014 - 1 sentyabr 2016-cı illərdə Azərbaycan Dövlət Rəsm Qalereyasında kiçik elmi işçi və direktor müavini, 1 sentyabr 2016-cı ildən 1 mart 2022-ci ilədək Laçın rayonu İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Kiçik dövlət müşaviri dövlət qulluqçusu ixtisas dərəcəsi almışdır.

İlqar İlyasov dövlət işində çalışmaqla yanaşı 7 iyun 2017-ci ildən Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri vəzifəsini də yerinə yetirmiş, hal-hazırda Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri olaraq fəaliyyətini davam etdirir. Birinci Qarabağ müharibəsinin veteranı və ehtiyatda olan zabitdir.

İlqar İlyasov müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lideri Heydər Əliyevin ideyalarının və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yürütdüyü siyasətin fəal təbliğatçısı və icraçısıdır. Mütəmadi olaraq kütləvi informasiya vasitələrində ictimai-siyasi məzmunlu yazılarla çıxış edir. Məcburi köçkünlük dövründə çətin məqamlarda daim sakinlərin yanında olmuş, sadə və səmimiliyi ilə insanların rəğbətini qazanmışdır.

Göstərdiyi xidmətlərə görə, fəaliyyət göstərdiyi sahələrin rəhbərliyi və müxtəlif təşkilatlar tərəfindən fəxri fərmanlar və diplomlarla təltif edilmiş, 10 dekabr 2020-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən “Hərbi Vətənpərvərlik Tərbiyəsində Xidmətlərə görə” Azərbaycan Respublikasının Medalı ilə təltif olunmuşdur.

# VIII Fəsil. Zəhməti ilə şöhrətlənib, Laçını sovetlər məkanında tanıdan Cabbar Ələsgər oğlu Cabbarov

*Xalqlar dostluğu və Qırmızı əmək bayrağı ordenli*





Əsrarəngiz təbiətli, havası, səfalı yaylaqları, şəfalı bulaqları ilə seçilən Laçın rayonu, hər zaman elimizə dəyərli, yurdumuza etibarlı və mərd oğullar yetiribdir. Azərbaycan elminin, tarixinin, mədəniyyətinin inkişafına töhfələr verib və ictimai xadimlər bəxş edibdir. Ümumilikdə götürdükdə Laçın camaatı mərdlikləri, əməksevərlikləri, saflıqları və dövlətə sədaqətləri ilə seçiliblər. Həm də ata-baba adətləri olan heyvandarlıq ənənəsini və təsərrüfata bağlılıqlarını qoruyub saxlamışlar.

Hələ XX əsrin 30-cu illərində, Laçını SSRİ məkanında tanıdan, Laçının Qarakeçdi kəndindən olan əmək qəhrəmanları barəsində məlumatımız vardı. Belə ki, Həsən Cümşüdov qoyunçuluqda qazandığı uğurlara görə, hələ 1936-cı ildə Lenin ordeninə layiq görülmüş və bir neçə il sonra isə oğlu Əkbər Cümşüdov Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Şərəf Nişanı" ordeni ilə təltif olunmuşdur. Amma açığını desək, öz əməksevərliyi, təsərrüfat sahəsində göstərdiyi müstəsna bacarığı ilə Laçına, bütün Azərbaycana, keçmiş Sovet İttifaqına səs salmış, sabiq Ali Sovetin deputatı Mirzə Cabbarovun qardaşı Cabbar Ələsgər oğlu Cabbarovun Laçın rayonunda yaşaması, öz əməyi ilə şöhrətlənib və Laçını sovetlər məkanında tanıtması barədə az eşitmişdik. Cabbar kişi barəsində Qarakeçdi kənd icra nümayəndəsi, tələbəmiz olmuş Zahir Əhmədovun köməyi ilə tapıb həmsöhbət olduğumuz oğlu Əliqismət Cabbarovun atası və əmisi haqqında ürək dolusu danışığından, verdiyi geniş materiallarla tanış olduqdan sonra, Laçını sovetlər məkanında öz əməyi ilə tanıdan, belə bir əmək qəhrəmanı haqqında da yazmağı və onu qardaşı Azərbaycan SSR Ali sovetin deputatı olmuş Mirzə Cabbarovdan ayırmamağı özümüzə borc bildik.

Cabbar Ələsgər oğlu Cabbarov 1934-cü ildə Laçın rayonunun Qarakeçdi kəndində anadan olmuşdu. O, uşaqlıq çağlarından Qarakeçdi kəndində - Lenin adına Kolxozda (sonralar Sovxoz) qoyunçuluq sahəsində çoban işləməklə əmək fəaliyyətinə başlamışdı. 1970-ci ildən 1990-cı ilə kimi fasiləsiz olaraq həmin Sovxozda baş çoban (Briqadir) işləmişdi. Briqadasında 2000 başa qədər qoyun-quzu saxlanırmış. Oğlunun dediyinə görə ildə sovxoza 800-900 quzu verirmiş. Çalışdığı illərdə onun briqadası Respublika üzrə bütün beşilliklərin qalibi olurmuş. Buna görə də briqada həm də dövlət tərəfindən bir sıra fəxri mükafatlara və təltiflərə layiq görülmüşdü. Hətta qardaşı Mirzə Cabbarov da onun briqadasında çoban işləyərək əməksevərliyini və vətənsevərliyini göstərərək, X-XI çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuşdu.

Cabbar Cabbarov o illərdə rayon, kənd XDS-nin deputatı, həmçinin Azərbaycan KP-nın XXX-XXXI Qurultayına nümayəndə seçilmiş və adı Azərbaycan Sovet Ensiklopediyasına düşmüşdür. Qoyunçuçuluq sahəsində göstərdiyi misilsiz əmək fəaliyyəti ilə Laçın rayonunun adını zirvələrə qaldırmışdı. Onun əməyi dövlətimiz tərəfindən qədərincə qiymətləndirilmişdir. "Xalqlar dostluğu”, "Qırmızı əmək bayrağı" ordeni, "Lenin yubleyi medalı", bir sıra bürünc medallar, 2 gümüş medal, bütün beşilliklərin və yarışların yubiley nişanları ilə təltif edilmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra ali məktəblərə test üsulu ilə keçirilən qəbul imtahanı suallarına Cabbar Cabbarovun adı da salınmış və mətbuatda haqqında məqalələr yazılmışdı.

O, Azərbaycanda yeganə əmək adamıdır ki, 1983-cü ildə qazandığı uğurlara görə heyvandarlıq sahəsində SSRİ

Dövlət Mükafatı Laueratı adına layiq görülmüşdür (Keçmiş SSRİ-də isə 4 nəfərdən biri olmuşdur).

Öz əməyi, halal zəhməti ilə Laçını Respublikada tanıdan C.Cabbarov 1990-cı ildə dünyasını dəyişmişdir.

Cabbar Cabbarovun ziyalı, savadlı, el-oba qədri bilən övladları əməksevər, humanist, xeyirxah, bərəkətli ailə-ocağı bu gün o nəcib insanın adını, xatirəsini yaşadırlar və onunla qürur duyurlar. Köçkünlük illəri hamı kimi onları üzsə də, yurddan-yuvadan, eldən-obadan uzaq salsada, ata-baba məzarlarının ziyarətinə həsrət qoysada bütün laçınlılar kimi, Cabbar kişinin övladları da çətinliklərə dözdü və bir gün olsun belə Laçını və yurd yuvalarını unutmadılar. 30 ildən sonar Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, ordumuzun qəhrəmanlığı və xalqımızın torpağa bağlılığı sayəsində Laçın işğaldan azad edildi. Qeyd edək ki, mənfur düşmənə qarşı 44 günlük müharibədə Cabbar kişinin nəvəsi Elnur Cabbarov da qəhrəmancasına şəhid oldu. Keçmiş Laçın dəhlizini Elnurun rəhbərlik etdiyi heyətin bağlaması, Şuşanın azad olunması əməliyyatına müstəsna köməyi olmuşdu. Ölümündən sonra göstərdiyi igidliyə görə Elnur Cabbarov “Qarabağ” ordeni ilə təltif edilmişdi.

Bu gün Laçında bərpa-quruculuq işləri aparılır. Laçın əvvəlkindən də gözəl qurulur. İnanırıq ki, Cabbar və Mirzə qardaşlarının övladları yenə də Qarakeçdi kəndində öz əməksevərliklərini əməli işləri ilə davam etdirəcək, Laçınımızı şərəfləndirəcək və şəhidlərimizin ruhlarını şad edəcəklər.

## Nəticə əvəzi - yaxud da dağlar qoynunda yenidən qurulan Laçın

Müasir dövlətçilik tariximizdə 27 sentyabr 2020-ci ildə başlanan, cəmi 44 gün davam edən, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və rəşadətli ordumuzun qələbəsi ilə başa çatan Vətən müharibəsi xalqımızın məğlubedilməzliyini göstərdi. Ermənistanı təslim aktını imzalamağa və 30 il müddətinə işğal altında saxladığı ərazilərimizi boşaltmağa məcbur etdi. Qüdrətli Azərbaycan ordusu düşmənə sarsıdıcı zərbə vurmaqla ermənilərin məğlub edilməzliyi haqqında yaydıqları mifi sındırdı və tarixi ədaləti bərpa etdi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, Ermənistanın işğalçı qoşunlarının Ağdam, Kəlbəcər və Laçın rayonlarından bir güllə atılmadan çıxmağa məcbur etməsi, birmənalı olaraq Ali Baş Komandan İlham Əliyevin və Ordumuzun tarixi qələbəsi idi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Laçın rayonunun Azərbaycana təhvil verilməsi tarixi hər bir laçınlının qəlbində silinməz iz buraxdı. Baxmayaraq ki, hələ 2020-ci ilin bir dekabr tarixinədək, yəni noyabr ayının doqquzunda Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdi.

Bütün Qarabağ ərazilərində olduğu kimi, Laçın rayonu da işğaldan azad olunan kimi, ərazilərdə minalardan təmizləmə işləri aparıldı. Quruculuq planları tərtib edildi və yaşayış məntəqələrinin bərpasına başlandı. Elə ilk aylardan başlayaraq Zəngilan, Qubadlı və Laçın avtomobil yolunu genişləndirilərək yenidən çəkilişinə başlandı. Hazırda da geniş miqyaslı yol çəkilişi davam etdirilir. Şimaldan isə Kəlbəcər-Laçın yolunun çəkilişi davam edir. Ən əsası olaraq Laçının Qorçu kəndi ərazisində Laçın hava limanının tikintisinə start verilmişdi. Bütün bu işlər ölkə Prezidenti Cənab İlham Əliyevin nəzarəti altında həyata keçirilir. Ancaq bərpa quruculuq işlərinə başlansa da, qeyd etməliyik ki, Laçın işğal olunduğu müddətdə ermənilər hərbi cinayət törədərək Zabux və Sus kəndlərində məskunlaşdırma aparmış, Ermənistandan, eləcə də Yaxın Şərqdən erməniləri bu ərazilərimizə köçürərək qanunsuz yerləşdirmişlər. 2022-ci ilin avqust ayına qədər ermənilərin bu tör-töküntüləri Laçın şəhərini, Zabux və Sus kəndlərini tərk etməmişlər. Dövlət başçısı, cənab Ali Baş Komandan İlham Əliyevin yeritdiyi uğurlu siyasət sayəsində 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri də Azərbaycanın ordusunun nəzarətinə götürüldü**.** Ermənilərin son tör-töküntüləri Laçından çıxarıldı. Bununla da Laçının tarixində yeni bir səhifə açıldı. Bu, təkcə müzəffər ordumuzun qazandığı növbəti hərbi uğur deyildi, həm də Azərbaycanın tarixi ədaləti bərpa etməsi idi.

Müzəffər Ali Baş Komandan hərbçilərimizin qəhrəmanlığını ən yüksək səviyyədə qiymətləndirmiş, öz sərəncamları ilə Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı

Qüvvələrinin 8418 nəfər hərbi qulluqçusu "Laçının azad olunmasına görə" medalı ilə təltif olundular.

Laçının işğaldan azad edilməsi bizim üçün həm də Laçın dəhlizinin Azərbaycanın nəzarətinə keçməsi baxımından olduqca əhəmiyyətli idi. Ermənistan qanunsuz olaraq ermənilərin Laçında məskunlaşdırılması siyasətini həyata keçirməklə bütün dünyaya qəbul etdirməyə çalışırdılar ki, Laçın rayonu Ermənistanda qalmalıdır, ya da ən azından bütünlükdə rayon özü dəhliz kimi onların nəzarətinə verilməlidir. Lakin, Laçın şəhərinə daxil olmadan Laçın dəhlizinə alternativ yolun çəkilməsinə nail olan Azərbaycan Prezidentinin qətiyyəti, diplomatik məharəti nəticəsində onların bu xəyalları da boşa çıxdı. Laçının və onun bütün kəndlərinin işğaldan azad edilməsi təntənəsi, xalqımız tərəfindən cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu diplomatiyasının və ölkəmizin hərbi qüdrətinin növbəti qələbəsi kimi qəbul olundu.

Ermənilər 30 illik işğal dövründə bütün Qarabağda olduğu kimi Laçında da şəhər və kəndlərimizi, tarixi, mədəni abidələrimizi vandalcasına məhv etmiş, xalqımıza ölçüyə gəlməz səviyyədə maddi və mənəvi ziyan vurmuşlar. Belə ki, 1992-ci ildən başlayaraq ermənilər Laçın şəhərində 1340 evi, 125 kəndi və bir qəsəbədə bütün yaşayış evlərini, məktəbləri mədəni-maarif ocaqlarını dağıtmış və yandırmışlar. 30 illik işğaldan sonra ordumuzun şücaəti və Prezident İlham Əliyevin mahir diplomatiyası sayəsində döyüşsüz, amma yandırılmış və viran edilmiş vəziyyətdə, Laçın düşməndən təhvil alındı.

İşğaldan azad olunan kimi, gecəli-gündüzlü aparılan abadlıq-quruculuq işlərinin nəticəsi olaraq, bu gün Laçın öz füsunkar simasını bərpa etməkdədir. Keçmiş məcburi köçkün-

lər öz doğma evlərinə qovuşmağın sevincini yaşayırlar. İnamla deyə bilirik ki, 6 il əvvəl - dekabrın 1-də işğaldan azad olunmuş Laçın şəhərində yeni həyat başlayıbdır. Laçın ilk şəhər gününə həsr olunmuş tədbirdə çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev hər bir Laçınlının bu günü böyük qürur hissi ilə yaşadığını qeyd edərək demişdi: "Xalqımız bundan sonra sülh, əminamanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub - yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük."

Keçən altı ilə nəzər salaraq demək olar ki, Laçın elə işğaldan azad olunan gündən dərhal sonra, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında özünün bərpa-quruculuq dövrünü başladı. İşğaldan azad olunmuş digər rayonlarımızda olduğu kimi Laçında da cənab Prezident öncə nəqliyyat infrastrukturunun bərpasına böyük əhəmiyyət verdi. Bu diqqətin nəticəsidir ki, bu gün də rayonda yeni avtomobil yolları, tunellər, keçidlər inşa olunur. Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən, uzunluğu 75,8 kilometr olan, Kəlbəcər-Laçın avtomobil yolu, rayonun yol-nəqliyyat infrastukturu üçün mühüm əhəmiyyət daşıyır. Bu yolun üzərində uzunluğu 13,3 kilometr olacaq 17 tunelin inşası nəzərdə tutulmuşdur. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpünün də inşa edilməsi nəzərdə tutulmuşdu. Əslində nəzərdə tutulan bu işlərin xeyli hissəsi görülüb başa çatdırılmışdı. Bunlarla birlikdə 2021-ci ildə, Qorçu kəndi yaxınlığında, dəniz səviyyəsindən 1800 metr hündürlükdə Laçın Beynəlxalq Hava Limanının təməli qoyulmuşdu. İnşa edilən hava limanın uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr olmaqla, 6 təyyarə dayanaca-

ğının da inşa edilməsi nəzərdə tutulmuşdu. Həm də nəzərə alınmışdır ki, Laçın şəhərinə 30, Kəlbəcər şəhərinə 60, Şuşa şəhərinə isə 70 kilometr məsafədə olan bu liman bölgənin beynəlxalq statusunu artıracaq və bölgənin sosial-iqtisadi inkişafına təkan verəcəkdir. O da qeyd olunmalıdır ki, bu hava limanı postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən limanlarından biri olaraq, strateji təyinatı ilə yanaşı, füsünkar təbiəti olan bu ərazilərə xarici turistlərin axınına şərait yaradacaq və regionda turizm potensialının inkişafına səbəb olacaqdır.

"Böyük Qayıdış" Dövlət Proqramına uyğun olaraq, cənab Prezidentin Laçının bərpasında xüsusi diqqət ayırdığı sahələrdən biri də enerji təhlükəsizliyi məsələsidir. Belə ki, 2021–ci ildə Laçın rayonunda generasiya gücü 8 meqavat olan Güləbird Su Elektrik Stansiyası işə salınmışdı. Bu stansiyanın təxminən 7000 nəfər əhalini elektrik enerjisi ilə təmin etməsi məsələsi də nəzərə alınmışdı. Burada istehsal olunan elektrik enerjisindən təkcə Laçının yox, qonşu rayonların da elektrik enerjisi ilə təmin edilməsində mühüm rol oynayacağı nəzərdə tutulmuşdu. Bundan başqa Hoçaz çayı üzərində yerləşən, ermənilər tərəfindən tamamilə dağıdılan "Ağbulaq", "Mişni" və "Alxaslı" Su Elektrik Stansiyaları qısa vaxtda cənab Prezidentin tapşırığına uyğun olaraq tam yenidən qurulmuşdur. "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik Stansiyaları 2023-cü il avqustun 25-də, "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik Stansiyaları isə 2024-cü il mayın 10-da işə salınmışdır.

Görülən işlərin davamı olaraq göstərə bilərik ki, 2023–cü ilin 25 avqustunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olmuşdur. Studiya iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Bu studiya

Qarabağın çoxşaxəli və nadir yaradıcılıq məkanı hesab edilir. Studiya çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarını bölgənin zəngin təbiəti, imkanları ilə bağlı məlumatlandırmaq, lokasiya xidmətləri göstərmək və onları müvafiq avadanlıqla təmin etmək məsələlərini də üzərinə götürmüşdür.

Laçında aparılan quruculuq prosesində istehsal müəssisələrinin yaradılması işinə də böyük əhəmiyyət verilir. Belə müəssisələrdən biri Laçın rayonun sənaye zonasında yaradılan, illik istehsal gücü 3 min kubmetr olan mebel fabrikidir. Burada Avropa ölkələrinin, Türkiyə və Çinin istehsalı olan avadanlıqlardan, Türkiyədən, Rusiyadan alınan xammaldan istifadə olunması və ümumilikdə 100 nəfərin də işlə təmin olunacağı nəzərdə tutulmuşdur. İstehsal müəssisələrinin yaradılması ilə yanaşı Laçında heyvandarlığın və balıqçılığın inkişafı üçün də böyük imkanlar vardır. Belə ki, 2023-cü ilin 25 avqust tarixindən Qarabağın ilk nərəyetişdirmə təsərrüfatı olan, "Həkəri Balıq Təsərrüfatı" fəaliyyətə başlamışdı.

Ən əsası demək olar ki, 28 may 2023-cü il tarixindən başlayan qayıdış laçınlıların doğma yurd həsrətinə son qoymuşdur. Bu əlamətdar gündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşmüş və evlərin açarlarını öz əli ilə onlara təqdim etmişdir. Cənab Prezident həmin görüş zamanı çıxışında söyləmişdir ki: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, buradır. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat

yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Görülən işlərə və həm də Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında sərəncamına əsasən, 26 avqustun Laçın "şəhər günü" elan edilməsi bir daha təsdiq edir ki, həqiqətən Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurlarla eyni səviyyədədir. Digər tərəfdən də Laçında quruculuq işlərinin mədəni səviyyədə aparılması və vüsəti baxımdan, Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının 2024-cü ildə keçirilən iclasında Laçın şəhərini 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi əhəmiyyətli bir hadisə olmuşdu. Əslində isə bu qərarla MDB üzvü olan ölkələrin dövlət başçıları, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və mədəniyyətimizə yüksək dəyər verdiklərini nümayiş etdirmişlər.

Laçın rayonunda aparılan bərpa-quruculuq işlərində olduğu kimi, Laçın şəhərinə, Zabux, Sus və Bəylik kəndlərinə də əhalinin köçürülməsi üçün hər bir şərait yaradılmışdı. Bu işdə cənab Prezident İlham Əliyevin Laçına dəfələrlə etdiyi səfərlərin böyük əhəmiyyəti olmuşdu. Dövlət başçısının Laçına hər səfəri, laçınlılar tərəfindən Laçının dirçəlişinə və yenidən qurulmasına mühüm bir töhfə kimi dəyərləndirilir.

Laçın işğaldan azad olunandan sonra cənab Prezident İlham Əliyevin Mehriban xanım Əliyeva ilə birlikdə dəfələrlə Laçına səfəri, xüsusilə ilk dəfə 14 fevral 2021-ci ildə Güləbird kəndində olması, su elektrik stansiyasının açılışını etməsi, bütün Laçın camaatının sevincinə səbəb olmuş və Laçına tezliklə qayıdacaqlarına inamı artırmışdı. Əslində bu səfərlər

laçınlılarda, Laçının və onun kəndlərinin əvvəlkindən də gözəl bərpa olunacağına yəqinlik yaratmışdı.

Cənab Prezident sonrakı ay və illərdə də dəfələrlə Laçına səfər etmiş, bir çox obyektlərin təməlqoyma mərasimində və açılışında iştirak etmişdir. Ümumilikdə desək, dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın Laçına hər səfəri, xüsusi hadisələrlə yadda qalan olmuşdu. Yolların çəkilişini nəzarətdə saxlaması, "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun, "Həkəri Balıq Təsərrüfatı"nın, Laçın sənaye parkının, mebel fabrikinin və digər obyektlərin açılışı, Laçın aeroportunun tikintisi ilə tanışlıq, 26 avqust 2023-cü il tarixdə "Laçın Şəhər Günü" tədbirində iştirak etmələri və cənab Prezidentin çıxışı laçınlıların böyük sevincinə səbəb olmuşdur. Tədbirdə çıxışı zamanı cənab Prezident İlham Əliyev 2023-cü ilin 23 aprel tarixində Laçında Həkəri çayı üzərində, Azərbaycan-Ermənistan sərhədində, sərhəd-buraxılış məntəqəsinin qurulması haqqında danışarkən demişdi: "23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir". Vətən Müharibəsi rəsmən 2020-ci ilin 10 noyabrında başa çatsa da Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi 23 aprel 2023-cü ildə Ermənistanla Azərbaycan arasında ilk sərhəd-buraxılış məntəqəsinin bərpa edilməsi ilə təmin olunmuşdu. 19-20 sentyabr tarixlərində keçirilən anti-terror tədbirlərindən sonra isə Xankəndi və onun ətrafındakı yaşayış məntəqələrində yuva salmış terrorçuların qalıqları bir sutka ərzində təslim oldular. Bu Azərbaycanın dövlət suverenliyinin tam təmin olmasını, dövlətimizin gücünü və xalqımızın dəmir iradəsini nümayiş etdirən əlamətdar hadisə idi.

Cənab Prezident İlham Əliyevin Laçın rayonuna səfərləri zamanı su elektrik stansiyalarının, müxtəlif obyektlərin açılışı, Güləbird, Şəlvə kəndlərinin, Qorçu qəsəbəsinin, Laçın şəhərində İşğal, Zəfər Muzeyi Kompleksinin və ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyması Laçında aparılan quruculuq işlərinin vüsətindən xəbər verir.

Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin, tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində, həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilməsi nəzərdə tutulmuşdu. Bununla yanaşı, çoxfunksiyalı yerlərdə və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilmişdi. Şəhərdə həm də xəstəxana, Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektlərinin yaradılması da nəzərdə tutulur. Bir sözlə fərəh hissi ilə deyə bilərik ki, işğaldan azad edilmiş Laçın rayonunun bərpası, abadlaşdırılması və yenidən qurulması istiqamətində misilsiz işlər aparılır. Azərbaycan dövləti yalnız öz gücü, daxili maliyyə vəsaitləri hesabına işğaldan azad olunmuş şəhər və kəndlərimizin bərpası işlərini uğurla davam etdirir. Belə ki, generasiya gücü 8 meqavat olan, təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təmin edə bilən Güləbird Su Elektrik Stansiyası işə salınmış, rayonun yol-nəqliyyat infrastrukturu yenidən qurulur, Kəlbəcər-Laçın avtomobil yolu çəkilir və dəniz səviyyəsindən 1800 metr hündürlükdə, postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olan Qorçu kəndi ərazisində Laçın Beynəlxalq Hava Limanının tikintisi başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq

olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qaydışa dair I Dövlət Proqramı” üzrə Laçın rayonunda çoxsaylı layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş ərazilərə “Böyük qaydış” Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetlərindən biri kimi müəyyən olunmuşdur. Bu baxımdan indiyə qədər bir sıra strateji əhəmiyyətə malik obyektlər inşa edilmiş və qısa müddətdə böyük işlər görülmüşdür. Bildiyimiz kimi, Laçın rayonu və ümumilikdə Şərqi-Zəngəzur bölgəsi böyük sənaye və aqrar potensiala malikdir. İşğaldan öncə rayonda əsas inkişaf etmiş sahə kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq idi. Bununla yanaşı, meyvəçilik, tütünçülük, üzümçülük, taxılçılıq, arıçılıq inkişaf etmiş sahələrdən hesab olunurdu. İşğaldan öncə Laçın rayonunda fəaliyyət göstərən sənaye müəssisələrində daha çox xammal növləri emalı edilirdi. Laçın həmçinin, zəngin təbii ehtiyatlara malik bir regiondur. Bu bölgə turizm, dağ turizmi və ekoturizm potensialına görə xüsusi əlverişli mövqeyə malikdir. Laçın rayonunun strateji-coğrafi mövqeyi, digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı, infrastruktura çıxış imkanları, bölgənin gələcəkdə Azərbaycanın ən iri sənaye və iqtisadi güc mərkəzlərindən birinə çevriləcəyinə əsas verir.

Milli çağırışımız olan Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışı yüksək səviyyədə həyata keçirmək üçün Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə tikinti-quruculuq işlərini sürətlə davam etdirir. Dövlət başçısı mütəmadi olaraq həmin ərazilərə gerçəkləşdirdiyi səfərlərində görülmüş işlərlə yerində tanış olur, tövsiyələrini verir, açılışlar edir və yeni obyektlərin bünövrəsini qoyur. Bunların sayı və miqyası günbəgün artmaqdadır.

Laçına ilk 20 ailə 2023-cü il may ayının 27-də köçürülmüşdü. Hər il köçürülən ailələrin sayı artır, bu günə qədər də mərhələ ilə köçürmə prosesi davam edir. 30 illik işğaldan sonra Laçın bərpa olunur və getdikcə gözəlləşir. Küçələrə Qarabağın General Qubernatoru, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hərbi Naziri Xosrov bəy Sultanovun adının, "Zəngəzur", "8 Noyabr" və digər adların verilməsi insanlarda böyük iftixar hissi yaratmışdır. Cənab Prezidentin bu məsələləri də diqqətdə saxlaması, küçələri göstərən lövhələri şəxsən özünün açması, tariximizi yaşatmaq, laçınlılara hörmət, Xosrov bəyin, Sultan bəyin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların hər birinin ruhunu şad etməsi kimi dəyərləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu genişmiqyaslı hərbi əməliyyatlar aparmaqla işğal altında olan doğma torpaqlarımızı işğaldan azad etdiyi kimi, bu gün də Azərbaycan xalqı ölkə başçısının rəhbərliyi ilə həmin torpaqların yenidən dirçəldilməsi üçün möhtəşəm layihələri həyata keçirməkdədir.

Bu layihələrin icrasının önəmli bir hissəsi olaraq, Laçında aparılan geniş miqyasda yaşayış binalarının tikintisini də göstərmək olar. Belə ki, indiyə qədər Laçında 1000-dən çox yaşayış evi tikilib və bərpa edilmişdi. O cümlədən Laçın şəhərində 700-dən çox bina bərpa edilmişdir. Onlardan 626 fərdi yaşayış binası, 9-u çoxmənzilli yaşayış binası və 71-i isə inzibati binalardı. Bütövlükdə isə sevindirici hal kimi göstərə bilərik ki, Laçın şəhərində 2023-cü iln avqustuna qədər 510 şagird yerlik 2 saylı tam orta məktəb bərpa edilərək pedoqoji kollektivin istifadəsinə verilmişdir. Həmçinin, dövlət başçısının

sərəncamı ilə Laçın rayonunun, Zabux kəndində 176 şagird üçün nəzərdə tutulan tam orta məktəbin binası, 50 yerlik uşaq bağçası və inzibati bina inşa edilib sakinlərin istifadəsinə verilmişdir. Kənddə evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında yaşıl enerjidən istifadə edilir.

Hazırda Laçın şəhərində 89 fərdi evin, 28 çoxmənzilli binanın, 26 qeyri-yaşayış sahəsinin tikintisi və bərpası davam etdirilir. Eyni zamanda, 237 fərdi ev və 29 çoxmənzilli binanın (436 mənzil) tikintisi də planlaşdırılmışdır.

Böyük Qayıdışı təmin edəcək Dövlət Proqramına əsasən 2025-ci ilin yay aylarınadək Laçın rayonuna 3516 nəfər (936 ailə) köçürülmüşdür. Onlardan 2100 nəfərin (571 ailə) Laçın şəhərində, 823 nəfərin (217 ailə) Zabux kəndində, 215 nəfəri (59 ailə) Sus kəndində və 363 nəfəri (89 ailə) isə Bəylik kəndində daimi məskunlaşması təmin edilmişdir. Bu günə qədər də köçürmə prosesi davam edir. 2026-cı ilin sonuna qədər 12 min nəfər insanın da öz evlərinə köçürülməsi gözlənilir.

Görülən işlərin zirvəsi olaraq 2025-ci ilin 28 mayında - Müstəqillik Günündə Laçın Beynəlxalq Hava Limanının açılışını, keçirilən möhtəşəm tədbirin siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyət kəsb etdiyini qürur hissi ilə göstərə bilərik. Üç qardaş ölkənin liderlərinin- Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şərifin iştirakı ilə baş tutan açılış mərasimi bir neçə tərəfdən diqqət çəkən hadisə olmuşdu. Azərbaycan, Türkiyə və Pakistan arasında getdikcə möhkəmlənən strateji, hərbi, diplomatik və iqtisadi müttəfiqlik Laçında bir daha öz təsdiqini tapdı. Laçında baş tutan möhtəşəm açılış

mərasimi Türkiyə-Azərbaycan-Pakistan birliyinin, gücünün təsdiqi və təcəssümü oldu.

Laçında aparılan bərpa və quruculuq işlərinin vüsətini gördükcə adamda belə bir təəssürat yaranır ki, Laçın özünün azad və inkişaf dövrünü yaşayır. Burada inşa edilən yaşayış binaları və sənaye obyektləri Laçının yenidən qurulmasına göstərilən xüsusi dövlət qayğısından xəbər verir. Surətlə aparılan quruculuq işləri dinamik xarakter daşıyır və əhalinin əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Artıq beşinci ildir ki, fermerlər öz təsərrüfatlarını Laçının yaylaqlarına aparırlar. Yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürürlər. Laçın şəhərində, Zabux, Sus və Bəylik kəndlərində həyat qaynayır. Əhali gözəl mənzillərlə və yaşayış resursları ilə yüksək səviyədə təmin olunmuşlar. Laçına qayıdış proqramı ardıcıllıqla və uğurla həyata keçirilir. Yüzlərlə məcburi köçkün ailəsi doğma od-ocağına qaytarılır. Laçın rayonunun Zabux, Sus və Bəylik kəndləri yenidən tikilmiş və bütün sosial-texniki infrastrukturla təchiz edilmişdir. Ermənilərin dağıtdığı, yandırdığı kəndlərin yerində bütün zəruri sosial-texniki infrastrukturla təchiz edilən və müasir standartlara cavab verən kəndlər inşa olunubdur. Bu kəndlərdə müasir standartlara cavab verən yaşayış evləri, tam orta məktəb, uşaq bağçası, tibb məntəqəsi tikilmiş və gözəl parklar salınmışdır.

Laçında görülən abadlıq-quruculuq işləri göstərir ki, görülmüş və görülməkdə olan işlər nəinki Laçın rayonunun, bütün bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, həm də turizm potensialının artırılmasına səbəb olacaq və bütün keçmiş məcburi köçkünlərin tezliklə öz doğma yurdlarına qayıtmaları təmin olunacaqdır.

Laçında aparılan quruculuq işlərinin bugünkü vəziyyəti göstərir ki, qısa müddətdə evlər abadlaşdırılmış, küçələr asfaltlanmış və Həkəri çayının sahilində əhalinin istirahətini təşkil etmək üçün park salınmışdır. Artıq şəhərdə mədəniyyət və iaşə ocaqları fəaliyyət göstərir. Beləki, oktyabr ayında Laçında keçirilən Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş YAP Laçın rayon təşkilatının geniş tədbiri, iki saylı Laçın tam orta məktəbində YAP Laçın ərazi təşkilatının yaradılması, "Zəfər" gününə həsr olunmuş yürüşün keçirilməsi, Laçın teatrının fəaliyyətə başlanması, ilk tamaşanın göstərilməsi və YAP Laçın Rayon təşkilatının yaranmasının 30 illiyinə həsr olunmuş tədbirin 2025-ci ildə Laçında keçirilməsi kimi çoxsaylı tədbirlər, həm də yeni Laçında gedən mədəni quruculuq işlərindən xəbər verir.

Laçında keçirilən çoxsaylı tədbirlər və aparılan bərpa-quruculuq işlərinin vüsəti, bir daha göstərir ki, erməni vandalları tərəfindən dağıdılmış evlər, yerlə yeksan edilmiş kəndlər, məhv edilmiş maddi mədəniyyət nümunələri, tarixi abidələr, cənab Prezident İlham Əliyevin uğurlu siyasəti, vətən sevgisi və laçınlıların torpağa bağlılığı sayəsində yenidən qurulur. Yeni Laçın əvvəlkindən də gözəl görünür.

Laçın bu gün özünün çiçəklənmə dövrünü yaşayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 28 mart 2023-cü ildə imzaladığı Sərəncamla Şərqi Zəngəzur iqtisadi rayo-nuna daxil olan Laçın rayonunda və 14 mart 2024-cü ildə isə yeni Sərəncamla Laçın rayonu üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilmiş **Məsim Məmmədovun** rəhbərliyi ilə rayonda aparılan bərpa-quruculuq işləri nəinki laçınlılarda, bütün Azərbaycan xalqında dağlar gözəli Laçının gələcəkdə dünyanın bir sıra turizm məkanları ilə

rəqabətə girəcək bir diyar olacağına böyük inam yaratmışdır. Erməni vandalları tərəfindən dağıdılmış, yandırılmış evlərin bərpası, yeni yaşayış evlərinin, inzibati binaların inşası, rayonda müasir avadanlıqlarla təchiz olunmuş yeni-yeni iş yerlərinin açılması, şəhərdə demək olar ki, hər ay geniş miqyaslı sosial-mədəni tədbirlərin keçirilməsi laçınlıları qürurlandırır, onları quruculuq işlərində yaxından iştirak etməyə ruhlandırır.

Bu gün Laçın rayonunda cəmi 3516 nəfərdən çox, o cümlədən Laçın şəhərində isə 2100 nəfərdən çox əhali yüksək səviyyədə təmir və bərpa olunmuş, müasir və rahat evlərdə yaşayırlar. Təkcə yaşamaq yox, həm də Laçının bərpa və quruculuq işlərində yaxından iştirak edirlər.

Məsim Məmmədovun təşkilatçılıq bacarığı, onun hər bir laçınlıya xüsusi diqqət və qayğı göstərməsi, Cənab Prezidentin etimadını yüksək səviyyədə doğrultması, Laçında aparılan bütün işlərə məsuliyyət, vətəndaşlıq və vətənpərvərlik hissi ilə rəhbərlik etməsi onu bütün laçınlılara doğmalaşdırmışdır. Cənab Prezident İlham Əliyevin qəbul zamanı Məsim müəllimə dediyi: “Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız” tapşırıq xarakterli sözlərinə cavab olaraq, Məsim Məmmədov öz fəaliyyəti ilə qarşısında qoyulan bütün vəzifə və tapşırıqları yerinə yetirmək üçün səy və bacarığını əsirgəmir.

Laçın günü-gündən inkişaf edir, gözəlləşir. Laçınlılar inanır ki, Ulu öndər Heydər Əliyev XX əsrin 70-ci illərində Laçını dağlar qoynunda necə abad, inkişaf etmiş gözəl bir şəhərə çevirmişdirsə, Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev də qısa müddətdə yeni Laçını dağlar qoynunda gözəl bir şəhərə və turizm bölgəsinə çevirəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan jurnalı 1967, №11, s.60-61
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.391,siy.1, iş.1086,v.2-3.
3. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat İncəsənət Arxivi (ARDƏİA), f.2,siy.2, iş.4410,v.3-arxa üzüə
4. Abbasov Famil. Laçın. Bakı: 1978.
5. Azərbaycan müəllimi qəzeti, 9 yanvar 1970-cu il.
6. Axundova E. Ağrım, canım mənim Zəngəzur 525-ci qəzet, 8 aprel, 2017-ci il, s.8.
7. AZƏRTAC- Bakı, 20 avqust, 2025-ci il
8. Böyuk qayidiş lacina hazirliq nece gedir https://www.
9. Cabbarov Muradxan. Mənim Laçınım. Bakı: 1995.
10. Əhmədov T. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər), Bakı, 2001. 32 s.
11. Hacıyev İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddaları və qanlı cinayətləri. Naxçıvan 2012, 192 s.
12. İsgəndərli Anar. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, 2012, 228s.+16 s. şəkil.
13. İsmayılov K. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırım (1918-1920), Elm, Bakı, 2007, 248 s.
14. İlyasov M.İ. Maarif fədaisi:Müseyib İlyasov.Bakı: 2024.
15. İsmayilov F. Tarixin faciəsi: Laçın. Bakı: 2003.
16. Qasımov Ş.M. Əsirlikdə qalan Laçın. Bakı: 2012.
17. Qasımov Ş. M.. Azərbaycan ərazilərində erməni saxtalaşdırmaları və ekoloji terror. (üç dildə). Bakı: 2018.
18. Qasımov Ş.M. Xalq Qəhrəmanı Sultan bəy Bakı: 2011.
19. Qasımov Ş.M. Qərbi Azərbaycana aparan yollar. Bakı: 2025, 208s.
20. Qasımov C. Birinci Türkoloji Qurultay: şahidlər və

şəhidlər. Bakı: Gənclik, 2019.
21. Qeybullayev Q.Ə. Azərbaycanın etnik tarixinə dair. Bakı: Elm, 1994.
22. Qeybullayev Q.Ə.Qarabağın etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990.
23. Qumilyev Y.N. Qədim türklər. Bakı: Gənclik, 1993.
24. Qarayev S. Zabux kendine qayidis Ahttps: 525.az news
25. Laçın 85. Xüsusi buraxılış. Bakı: 2009.
26. lacina-qayidis-44-gunluk-muharibenin davamidir https:// musavat. com/news/ 916560.html.
27. Minkənd orta məktəbinin 120 illiyi münasibəti ilə xüsusi buraxılış, Bakı: 2010.
28. Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr, Ağrıdağ, Bakı, 1999, 320 s.
29. Musa Urud. Zəngəzur. Uzaq keçmişdən müasir dövrə qədər, Nurlar, Bakı, 2016, 480 s.
30. Məmmədov R., Məmmədov X, Müasir Beynəlxalq Hüquq nöqteyi nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqa zidd fəaliyyəti, Bakı, 2017
31. Mehdiyev S. Tarixin zəfər yolu, Bakı, 2022, 216 s.
32. Mehdiyev S. Tarixin zəfər yolu, Bakı, 2022, 216 s.
33. Nəbibəyli Ziyadxan. Gördüklərim, götürdüklərim (Laçın və laçınlılar). Bakı: "Adiloğlu", 2020.
34. Nəbibəyli Ziyadxan. Sultan bəy və Xosrov bəy qardaşları. Bakı: "Nurlar nəşriyyat-poliqrafiya mərkəzi", 2011.
35. Sovet kəndi qəzeti, avqust 1974-cü il
36. Şahinoğlu A. Zəngəzur tarixi Azərbaycan torpağıdır **https://www. Yeniazerbaycan.com/**
37. Yaqublu N. Cümhuriyyət qurucuları. Bakı: 2018.

# Qeyd üçün

**Müseyib İlyasov, Şikar Qasımov**

# LAÇINI N ELMLƏR DOKTORLARI VƏ DÖVLƏT XADİMLƏRİ

**Texniki redaktor və**
**kompyüter dizaynı:** İlqar Qasımzadə
**Kompyüter yığımı:** Məhsəti Məmmədova
**Qrafik tərtibatçısı:** Zeynab Nəbiyeva



KİNGPRINT
POLİQRAFİYA VƏ REKLAM

Çapa imzalanıb 02.02.2026-ci il
Sayı 300. Həcmi 15 ç.v.
Formatı 60x84 1/16 Əla növ kağız

*Hazır orijinaldan çap edilmişdir*